# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

19 may 2017-ci il №18(8734) www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** muallim@edu.gov.az


## Bu sayımızda


**Peşə təhsili müəssisələrinin nüfuzu artır** ⇨səh.3

**Məzunlarla işəgötürənlər arasında ilkin əlaqələr qurulur** ⇨səh.3

**9 yaşlı Aysu məktəbə necə alışdı?** ⇨səh.7

**Karyerada ali təhsilin rolu şişirdilib** ⇨səh.9


# Müəllimlərin işə qəbulu qaydalarında mühüm dəyişikliklər



## Bu il müsabiqəyə daha çox vakansiyanın çıxarılacağı gözlənilir

2017-2018-ci tədris ilinə ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi üzrə müsabiqənin təşkili və keçirilməsinin yeni qaydaları təsdiqlənib. "Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları"nda bir sıra mühüm yeniliklər var.

Qaydalara görə, müəllimlərin yeni tədris ili üçün dərs yükü müəssisə rəhbəri tərəfindən müəllimlər əmək məzuniyyətinə çıxanadək müəyyənləşdirilir və onlara bu barədə məlumat verilir.

Tədris ili ərzində, bir qayda olaraq, sabit saxlanılan dərs yükü qanunvericiliyin tələbləri, müəllimlərin diaqnostik qiymətləndirmədə göstərdiyi nəticələr nəzərə alınmaqla müəyyənləşdirilir. Müəssisədə işləyən müəllim üçün həftəlik dərs yükü 18 saatdır (bu zaman həftəlik dərs yükü 2 stavkadan artıq olmamalıdır). Vakant dərs yükü 18 saatdan az olarsa, həmin saatlar ilk növbədə müəssisənin ixtisaslı müəllimləri arasında bölüşdürülür.

⇨Ardı səh.2

# Məktəbli tələbələr

Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi (DİM) ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə aprelin 30-da və mayın 7-də qəbul imtahanları keçirib. İmtahanlarda iştirak etmək üçün ümumilikdə 65673 abituriyent sənəd verib. Həmin abituriyentlərin 50623-ü bu ilin, 15050 abituriyent isə əvvəlki illərin məzunları olub.

Beləliklə, "cari ilin məzunu" hesab edilən 50623 abituriyent əslində hələ şagirddir. Onların iştirakçısı olduğu buraxılış imtahanlarının birinci mərhələsinin nəticəsi açıqlanmayıb, ikinci mərhələ isə hələ keçirilməyib. Bunlar bir yana, orta məktəblərdə tədris proqramı yekunlaşmayıb. Elə bu səbəblərdən də təhsil ilinin başa çatmadığı bir vaxtda ali məktəblərə qəbul imtahanlarının keçirilməsi birmənalı qarşılanmayıb.

### İmtahan qaydalarında dəyişiklik

Məlumat üçün qeyd edək ki, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanları "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın təsdiq edilməsi haqqında qərara uyğun olaraq həyata keçirilir. Həmin qaydalarda edilən dəyişikliklə abituriyentlərə seçdikləri ixtisas qrupu üzrə (V ixtisas qrupu istisna olmaqla) eyni tədris ilində keçirilən bir neçə qəbul imtahanında iştirak etməyə icazə verilib. Dəyişiklik Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə həyata keçirilib.

Ölkəmizdə qəbul imtahanları artıq bir neçə ildir ki, iki dəfə keçirilir. Belə ki, öncə əvvəlki illərin, daha sonra cari ilin məzunları imtahan verirdi. 2017-2018-ci tədris ilində də I-IV ixtisas qrupları üzrə bakalavriat səviyyəsinə qəbul imtahanı iki dəfə keçiriləcək. Amma bu dəfə məzunlara hər iki imtahanda iştirak etməyə icazə verilir.

Bütün imtahanlar yekunlaşdıqdan sonra ixtisas seçimi aparılacaq və həmin mərhələyə imtahan nəticələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla Mərkəz tərəfindən müəyyən edilən müsabiqə şərtlərinə uyğun olan abituriyentlər buraxılacaq.

Ali təhsil müəssisələrinin I-IV ixtisas qrupuna daxil olan ixtisaslar üzrə müsabiqə abituriyentin qəbul imtahanında topladığı ümumi bal əsasında aparılacaq. Abituriyent eyni tədris ilində keçirilən bir neçə qəbul imtahanında iştirak etsə də, müsabiqəyə yalnız bir imtahanın nəticələri ilə qatılacaq. Hansı imtahanın nəticəsi ilə iştirak edəcəyinə də abituriyent özü qərar verəcək.

⇨Ardı səh.4

# İKT ixtisaslarına gedənlərin sayı ildən-ilə artır

Proqram mühəndisliyi ölkəmizdə informasiya cəmiyyətinin inkişafı, biliklər iqtisadiyyatının formalaşması baxımından çox mühüm əhəmiyyət kəsb edən intellektual fəaliyyət sahəsidir. Bu fikirləri AMEA-nın prezidenti, akademik Akif Əlizadə mayın 17-də AMEA İnformasiya Texnologiyaları İnstitutunda keçirilən "Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri" mövzusunda I respublika konfransında səsləndirib.

AMEA Rəyasət Heyəti, Təhsil Nazirliyi və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılıq etdiyi konfransda hər üç dövlət qurumunun nümayəndələri, AMEA-nın institut və təşkilatlarının rəhbərləri, ölkənin informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə aparıcı alim və mütəxəssisləri, həmçinin KİV nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə AMEA-nın prezidenti, akademik Akif Əlizadə açaraq zala toplaşanları 17 may - Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü münasibətilə təbrik edib. Bildirib ki, BMT tərəfindən minilliyin ideologiyası kimi bəyan olunan informasiya cəmiyyətinin əsasında İKT və biliklər iqtisadiyyatı dayanır. Bu sahənin ən mühüm sektorlarından biri isə məhz proqram mühəndisliyidir.

Alim bu gün ulu öndərin əsasını qoyduğu elmi-texnoloji inkişaf xəttini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkədə yüksək texnologiyalar sektorunun inkişaf etdirilməsi, biliklər iqtisadiyyatının formalaşdırılması ilə bağlı bir sıra konseptual sənədlər, mühüm qərarların qəbul edildiyini diqqətə çatdırıb.

A.Əlizadə biliklər iqtisadiyyatının bir seqmenti kimi formalaşmaqda olan proqram sənayesinin əsasında "elm-təhsil-innovasiya" üçbucağının dayandığını vurğulayıb. Qeyd edib ki, Azərbaycan gənclərinin bu sahəyə marağının artırılması üçün stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir: "Proqramlaşdırma sahəsində elmi kadrlara və yüksəkixtisaslı mütəxəssislərə artan tələbatın ödənilməsi məqsədi ilə zəruri işlər görməli, ölkənin ali təhsil müəssisələri ilə əməkdaşlığı dərinləşdirməliyik". Alim bu istiqamətdə Elmlər Akademiyası ilə Təhsil Nazirliyi arasında işgüzar münasibətlərin mövcud olduğunu da nəzərə çatdırıb.

Konfransın plenar iclasında çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov müasir dünyada informasiya və kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin hər bir ölkənin intellektual və elmi potensialından asılı olduğunu bildirib. İKT-nin tətbiqinin keyfiyyət səviyyəsinin birbaşa proqram təminatından asılı olduğunu deyən nazir müavini inkişaf etmiş ölkələrin iqtisadiyyatının modernləşdirmə istiqamətləri sırasında proqram təminatına əsaslanan strateji informasiya texnologiyalarının xüsusi yer tutduğunu söyləyib. Qeyd edib ki, proqram təminatının işlənib hazırlanması və onun informasiya texnologiyalarına tətbiqi proqram mühəndisliyi tərəfindən həyata keçirilir. Bu səbəbdən proqram mühəndisliyi hazırda dünyada əqli mülkiyyətin ən yüksək forması hesab olunur.

⇨Ardı səh.5



# Bilik var, bəs bacarıq?

## Gələcəyin müəllimlərinin praktik hazırlığı qənaətbəxş səviyyədə deyil

Dərsin düzgün, səmərəli təşkili müəllimin elmi səviyyəsi ilə yanaşı, pedaqoji sahədə praktik hazırlığından da asılıdır. Məhz bunu nəzərə alaraq pedaqoji kadr hazırlayan ali təhsil müəssisələrinin də tədris planlarında pedaqoji təcrübəyə xüsusi yer verilir. Tələbələr 3-cü kursda passiv, 4-cü kursda isə aktiv təcrübələrdə olurlar. Bəs, görəsən, bu təcrübələr tələbənin gələcəkdə müəllim kimi formalaşmasına kifayət edirmi? Təcrübədən keçən tələbələr tədris prosesini təşkil etməyi, sadə dildə desək, dərs deməyi bacarırmı?

Məsələni yerində müşahidə etmək məqsədilə öncə Azərbaycan Dövlət Pedaqoji Universitetində olduq. Pedaqoji təcrübələrini başa vuran IV kurs tələbələrinin dərslərini dinləmək arzusunda olduğumuzu bildirdik.

⇨Ardı səh.6

# II Məntiq Olimpiadasının nəticələri açıqlanıb

Lütfi Zadə adına Məktəblilərarası II Məntiq Olimpiadasının nəticələri açıqlanıb. Olimpiadanın final mərhələsində Bakı şəhəri üzrə 1859 şagird iştirak edib. Nəticələrə əsasən, 59 şagird finalda 80 faiz həddi keçərək mükafatçılar siyahısına düşüb. 842 şagird isə 50-80 faiz aralığında nəticə göstərərək olimpiadanın final turunda aktiv iştirakına görə sertifikata layiq görülüb.

Qeyd edək ki, olimpiadanın final turunun nəticələri artıq məktəblərə göndərilib. Nəticələrlə bağlı narazılığı olan şagirdlər BŞTİ-də mayın 20-nə kimi fəaliyyət göstərən Apelyasiya Komissiyasına müraciət edə bilərlər.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "İstək" liseyinin birgə təşkilatçılığı ilə keçirilən olimpiada zamanı şagirdlərin bədii, mücərrəd və verbal məntiqi təfəkkürü qiymətləndirilib.

# UNEC-də bir gün tələbə həyatı yaşa

Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti olan UNEC abituriyentlər üçün ixtisas seçimindən öncə bir gün tələbə həyatı yaşamağı təklif edir. UNEC-də dərslərin ictimaiyyətə açıq keçirildiyini nəzərə alaraq, qəbul imtahanlarında 2-ci qrup üzrə müvafiq bal toplayan abituriyentlər bu ali məktəbə gələrək, istədikləri dərsdə dinləyici kimi iştirak edə bilərlər. Dərsləri dinləmək abituriyentlərə ixtisas seçimi edərkən düzgün qərar verməyə kömək edəcək.

Bundan başqa, UNEC-lə tanış olmaq istəyən abituriyentlər universitetin rəsmi Facebook səhifəsinə *(https://www.facebook.com/uneceduaz/)* yaza və yaxud "Qaynar Xətt" xidmətinə (146-1-3) müraciət edə bilərlər.

Qeyd edək ki, qəbul imtahanlarında 600-dən yüksək bal toplayaraq UNEC-ə daxil olan tələbələrə universitet hesabına bir semestr müddətinə əlavə təqaüd veriləcək. İmtahan sessiyasında fakültə fərqi olmadan hər kurs üzrə ən yüksək nəticə göstərən 15 tələbəyə isə ayrıca əlaçı təqaüdü verilir. Bunlar ödənişli, ödənişsiz, əyani və ya qiyabi təhsil alan tələbələr də ola bilər.

# Məktəblilərimiz ABŞ-da uğur qazanıb

Amerika Birləşmiş Ştatlarında 10-cu Beynəlxalq Davamlı Dünya-Enerji Mühəndislik Ətraf Mühit Layihə Olimpiadası (ISWEEEP International Sustainable World — Energy Engineering Environment Project Olympiad) keçirilib.

Hyuston şəhərində təşkil edilən olimpiadada 63 ölkədən 440 layihə ilə 700 şagird iştirak edib.

Olimpiadada ölkəmizi Bakı şəhəri akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Nailə Məmmədova və "İstək" liseyinin 8-ci sinif şagirdi Aytən Qayıbova təmsil edib.

Şagirdlər "Günəş enerjisinin çevrilməsi və səmərəliliyinin artırılması üçün yeni GaSe nanostrukturların inkişafı" (Development of novel GaSe Nanostructures for Solar Energy conversion and Efficiency) adlı layihə ilə çıxış ediblər.

Azərbaycanlı məktəblilər olimpiadada uğurla iştirak edərək bürünc medala layiq görülüblər.

## RƏSMİ XRONİKA



- Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qaradağ rayonunda, SOCAR-ın "Caspian Drilling" Şirkətinin dəniz təchizat və logistika bazasında Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılış mərasimində iştirak edib.
- Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mayın 17-də Bakı İdman Sarayında keçirilən taekvando üzrə final qarşılaşmalarına baxıblar. Prezident İlham Əliyev qalib idmançılara medalları təqdim edib.
- Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev mayın 16-da "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 560-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.
- Mayın 16-da ölkə başçısı İlham Əliyev "Tələbə-məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 23 fevral tarixli 225 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə fərman imzalayıb.
- Mayın 16-da dövlət başçısı İlham Əliyev Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarının və onların struktur elementlərinin ləğv, bəzilərində isə dəyişikliklər edilməsi haqqında fərmanlar imzalayıb.
- Mayın 15-də dövlət başçısı İlham Əliyev "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və Birinci vitse -prezident, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mayın 15-də Heydər Əliyev adına İdman Sarayında keçirilən kişi və qadın cüdoçular arasında komanda yarışının final qarşılaşmasına baxıblar. Ölkə başçısı İlham Əliyev kişilər arasında keçirilən yarışmada qalib gələn komandaların üzvlərinə medalları təqdim edib.
- Mayın 13-də dövlət başçısı İlham Əliyev, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri, eləcə də Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Heydər Əliyev adına İdman Sarayında keçirilən cüdo yarışlarının final mərhələsinə baxıblar. Ölkə başçısı İlham Əliyev qalib idmançılara medalları təqdim edib.
- Ölkə başçısı İlham Əliyev mayın 13-də Bakı İdman Sarayında keçirilən IV İslam Həmrəyliyi Oyunlarının karate üzrə final qarşılaşmalarına baxıb. Prezident İlham Əliyev qaliblərə medalları təqdim edib.
- Mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimində iştirak edib. Prezident İlham Əliyev oyunları açıq elan edib.

# Səlcuq Universiteti ilə birgə elmi-tədqiqat işləri aparılacaq

Mayın 18-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru, professor Cəfər Cəfərov Türkiyə Respublikasının Səlcuq Universitetinin rektoru, professor Mustafa Şahin və ədəbiyyat fakültəsinin tarix bölməsinin rəhbəri, professor Alaattin Aköz ilə görüşüb.

Professor Cəfər Cəfərov rəhbərlik etdiyi ali təhsil müəssisəsinin yaranma tarixi, tədris prosesi, fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələri barədə qonaqlara məlumat verib. Son illər ölkəmizdə dövlət səviyyəsində müəllim hazırlığının səviyyəsinin yüksəldilməsi və cəmiyyətdə müəllim peşəsinin ictimai nüfuzunun artırılması üçün həyata keçirilən tədbirlərdən danışan rektor qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 noyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu (AMİ) filialları ilə birlikdə ADPU-ya qoşulub. Hazırda ADPU-nun 5 filialı var. Universitetdə 8 fakültə, 39 kafedra fəaliyyət göstərir, 20 minə yaxın tələbə təhsil alır. Tədris 4 korpusda aparılır. Nazirlər Kabinetinin müvafiq qərarı ilə Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə birləşdirilməklə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərir. 2016-2017-ci tədris ilindən Bakı şəhərindəki Məmməd Rahim adına 7 nömrəli tam orta məktəb ADPU-nun baza məktəbi kimi müəyyənləşib. Hazırda ADPU-da alternativ əsaslarla bir neçə mərhələdən ibarət olmaqla, professor-müəllim heyətinin müsabiqəsi keçirilir. Müsabiqənin keçirilməsində məqsəd ADPU-da tədris prosesinin təkmilləşdirilməsi, yüksək elmi biliyə malik mütəxəssisləri işə cəlb etməkdir. Eyni zamanda tədris-yardımçı heyətin bilik və peşəkarlıq səviyyəsinin müəyyən edilməsi üçün yoxlama keçirilib, hazırda isə onların attestasiyası aparılır.

Rektor Cəfər Cəfərov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə bu il ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilib. Hazırda Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilir. Bu oyunlar islam ölkələrinin həmrəyliyinin güclənməsinə böyük töhfələr verəcək.

Səlcuq Universitetinin rektoru, professor Mustafa Şahin səmimi və mehriban münasibətə görə ADPU-nun rektoruna təşəkkür edərək rəhbərlik etdiyi universitet barədə məlumat verib. Bildirib ki, Səlcuq Universiteti 1975-ci ildən fəaliyyət göstərir. 23 fakültəsi, 95 min tələbəsi var. Türkiyənin ən böyük universitetlərindən biri olan Səlcuq Universitetinin hər il 22 min məzunu olur, bu məzunlar dövlət və özəl sektorda uğurla çalışırlar. Universitet Səlcuq dövlətinin mədəni mirasını yaşadır.

Görüşdə ADPU ilə Səlcuq Universiteti arasında anlaşma memorandumu və Mövlana protokolu imzalanıb.

Professor Cəfər Cəfərov və professor Mustafa Şahin iki ali təhsil müəssisəsi arasında sənədlərin imzalanmasından məmnun qaldıqlarını bildirərək, bu əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına inamlarını ifadə ediblər.

# Müəllimlərin işə qəbulu qaydalarında mühüm dəyişikliklər

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**



Müəssisədə hər hansı ixtisasdan kadr yoxdursa, həmin ixtisas üzrə tədris planına əsasən müəyyənləşdirilmiş həftəlik dərs yükü 18 saata qədərdirsə, digər müəssisələrdən əvəzçiliklə və ya saathesabı qaydasında müəllim dəvət olunması məsələsinə baxılır. Bu da mümkün olmadıqda, həmin dərs saatları vakant hesab olunur və müsabiqəyə çıxarılması üçün təqdim edilir.

### Sosial məzuniyyət yeri üzrə dərs yükü vakansiyaya çıxarılmır

Qaydalara əsasən, sosial məzuniyyət yeri üzrə dərs yükü də vakansiyaya çıxarılmır. Sosial məzuniyyətdə olan müəllimlərə hər dərs ilinin əvvəlində tarifləşmə cədvəlində həftəlik dərs yükü ayrılır və əmrləşdirilir. Onların dərs yükü ilə bağlı qərar verilərkən aşağıdakı ardıcıllıq gözlənilir: dərs yükü müəssisədə çalışan müəllimlər arasında bölüşdürülür, digər məktəblərdən əvəzçiliklə ixtisaslı müəllim dəvət edilir, mərkəzləşdirilmiş müsabiqədə iştirak edərək keçid balı toplamış namizədlə yerli təhsili idarətemə orqanı və ərazi maliyyə hesablaşma mərkəzi ilə razılaşdırılmaqla əmək müqaviləsi bağlanılır.

### Təqaüd yaşına çatanlar üçün istisnalar var

Çalışmanın yaş həddinə çatmış işçilərlə əmək müqaviləsinin müddəti Əmək Məcəlləsinin 10-1-ci maddəsi və təhsil nazirinin 15.07.2011-ci il tarixli 1404 nömrəli əmri ilə təsdiq olunmuş tələblər və meyarlar əsasında müəyyənləşdirilir. Belə ki, son 1 ildə haqqında intizam tənbehi tədbirlərinin tətbiq edilməməsi, elmi dərəcə və ya elmi adının, dövlət təltifinin olması, attestasiyadan 2 dəfə müvəffəqiyyətlə keçməsi, müəllimlər arasında keçirilən respublika səviyyəli müsabiqələrin qalibi olması pedaqoji kadrların üstünlükləridir. Bu üstünlükləri olanların səhhəti vəzifəsinin icrasına imkan verirsə, işlədiyi kollektivdə və cəmiyyətdə nüfuzu varsa və həmin fəndən ixtisaslı müəllimlərin orta dərs yükü 18 saatdan aşağı deyilsə, tədris ilinin sonuna kimi müqaviləsi uzadıla bilər. Bu zaman işçinin diaqnostik qiymətləndirilmədə göstərdiyi nəticə də nəzərə alınır.

"Təhsilverənlərin peşəkarlığının inkişafının təmin edilməsi barədə" təhsil nazirinin 10.03.2017-ci il tarixli 141 nömrəli əmrinə əsasən, Azərbaycan dili və ədəbiyyat, ibtidai sinif, riyaziyyat və xarici dil fənnini tədris edən müəllimlər çalışmanın yaş həddinə çatdıqda onlarla əmək münasibətləri xüsusi prosedur əsasında tənzimlənir. Onlarla çalışma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir. Lakin başqa bir meyar - Nazirlər Kabinetinin 31.10.2011-ci il tarixli 180 nömrəli qərarı ilə müəyyənləşdirilmiş meyarlar gözlənilməklə müqavilə müəssisə rəhbəri tərəfindən hər dəfə cari tədris ilinin sonuna kimi uzadıla bilər. Bunun üçün də müəllimin orden və medalları, fəxri adları olmalıdır. İşlədiyi sahə üzrə elmi dərəcə və ya elmi ad alması da şərtdir. Eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və ya müxbir üzvü, Dövlət mükafatı laureatı olmalıdır.

### Müəllimlərin yerdəyişməsi

Yeniliklər müəllimlərin yerdəyişməsində də var. Təhsil Nazirliyi ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsini proqram təminatı tətbiq olunmaqla, ilk peşə, orta ixtisas və ali təhsil müəssisələrindən, digər dövlət qurumlarının tabeliyindəki və özəl təhsil müəssisələrindən Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə dəyişdirilməsini mərkəzləşdirilmiş müsabiqə yoluyla həyata keçirir.

Qaydalar Azərbaycanda ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin tədris ili ərzində dəyişdirməsinə də imkan verir. Bu zaman müəllimlərin diaqnostik qiymətləndirmədə göstərdiyi nəticə, müəssisələrin yerləşdiyi rayon və şəhər, dərs yükünün həcmi və digər amillər nəzərə alınır.

Həvəsləndirmə tədbirlərinin tətbiq olunduğu müəssisədə işləyən gənc mütəxəssislərin iş yerinin nəzərdə tutulmuş müddət başa çatanadək dəyişdirilməsinə icazə verilmir. Məsələyə xüsusi hallarda təsdiqedici sənədlərin surəti təqdim olunmaqla fərdi qaydada Nazirlikdə baxıla bilər.

### Müəllimlərin işə qəbulu

Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müddətsiz müqavilə ilə ixtisaslı müəllim kadrlarının işə qəbulu Nazirlik tərəfindən mərkəzləşdirilmiş müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqənin keçirilmə vaxtı hər il Nazirlik tərəfindən müəyyənləşdirilərək elan edilir.

Müəllimlərin işə qəbulu müsabiqəsində orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom) almış, xarici ölkədə aldığı təhsil sənədi Təhsil Nazirliyində tanınmış Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər iştirak edirlər. Müəllimlərin yalnız fakültativ, fərdi və qrup, dərsdənkənar məşğələlər, məktəbə hazırlıq qrupları, eləcə də dərnək məşğələləri üçün ayrılmış saatlara işə qəbuluna icazə verilmir.

Müddətli müqavilə ilə müəllimlərin işə qəbulu tabelik üzrə təhsili idarəetmə orqanının və aidiyyəti ərazi maliyyə hesablaşma mərkəzinin razılığı ilə müəssisə rəhbəri tərəfindən həyata keçirilir. Müsabiqə başa çatdıqdan sonra tutulmayan və ya yeni yaranan vakant yerlərə müsabiqədə müvafiq keçid balını toplayan namizədlər müddətli müqavilə ilə işə qəbul oluna bilərlər.

Ümumi təhsil müəssisələrində ixtisası üzrə fasiləsiz olaraq 10 il müddətsiz müqavilə ilə müəllimlik fəaliyyəti göstərən və 3 ildən az müddətə işdən ayrılmış şəxslərin işə qəbulu isə müsahibə yolu ilədir.

### Müsabiqə qaydaları

Müsabiqə 4 mərhələdə həyata keçirilir: elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə.

İşə qəbul üzrə müsabiqədə yalnız ali və orta ixtisas təhsili müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom) almış işləməyən şəxslər, eləcə də müəssisələrdə müddətli əmək müqaviləsi ilə işləyən müəllimlər iştirak edə bilərlər. Müsabiqənin birinci mərhələsində elektron ərizələrin qəbulu həyata keçirilir. Namizədin elektron ərizədə qeyd etdiyi məlumatlar yoxlanılır.

Müsabiqənin ikinci mərhələsində (test imtahanı) hər bir namizədə onun ixtisası üzrə ümumtəhsil məktəblərinin fənn proqramlarına, tədris metodikası və təlim strategiyalarına, məntiqə aid suallar təqdim edilir. İmtahanın müddəti, sualların sayı və müvafiq keçid balı Nazirlik tərəfindən müəyyənləşdirilir.

Müsabiqənin üçüncü mərhələsində (vakant yerlərin seçimi) test imtahanlarının nəticələrinə görə keçid balını toplamış namizədlər vakant yerləri seçirlər. Namizədlər 8 yer seçə bilərlər. Yerləşdirilmə onların elektron ərizədə qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılır. Hər hansı ixtisas üzrə bir vakant yerə iki və daha artıq sayda eyni bal toplamış namizəd olduqda, namizədin elektron ərizəsindəki göstəricilər araşdırılmaqla müvafiq qərar qəbul edilir.

İşə qəbul müsabiqəsi nəticəsində namizədin topladığı bal 1 (bir) il qüvvədədir və növbəti tədris ili üçün keçirilən müsabiqə zamanı birbaşa vakansiya seçimi mərhələsində iştirak etmək hüququ verir. 2016-2017-ci tədris ili üçün keçirilmiş işə qəbul müsabiqəsində namizədlərin topladıqları bal 2017-2018-ci tədris ili üçün keçiriləcək müsabiqədə də qüvvədə saxlanılır. Müvafiq keçid balını toplamış namizədlər öz istəyi əsasında növbəti müsabiqənin birbaşa üçüncü mərhələsində iştirak edə bilərlər. Yerləşdirilmə zamanı namizədin ən son iştirak etdiyi test imtahanının nəticəsi əsas götürülür.

Müsabiqənin dördüncü mərhələsində (müsahibə) test imtahanlarının nəticələrinə əsasən vakant yer tutmaq hüququ qazanmış namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü müsahibə proqramına uyğun olaraq müvafiq komissiya tərəfindən yoxlanılır. Müsahibəyə çağırılan namizədlərə proqram təminatı tərəfindən təsadüfi seçim əsasında ixtisası üzrə bir mövzu təqdim olunur. Namizədlər həmin mövzunu müsahibə komissiyasına dərs formatında təqdim edirlər. Namizədlərin cavabları elektron qaydada qiymətləndirilir və protokollaşdırılır. Müsahibə mərhələsində namizədlərə ixtisaslarına uyğun olaraq təqdim olunacaq mövzular öncədən elan edilir və internet səhifəsində yerləşdirilir.

Müsabiqənin nəticələrinə görə hər bir ixtisas üzrə boş qalan və yeni yaranan vakant yerlər üçün əlavə yerləşdirmə keçirilir. Əlavə yerləşdirmədə yalnız keçid balı toplayaraq işə qəbul oluna bilməyən namizədlər 8 vakant yer seçərək iştirak edə bilərlər. Vakant yerlərin seçimi üçün nəzərdə tutulmuş tarix başa çatdıqdan sonra test imtahanının nəticələri nəzərə alınmaqla namizədlərin vakant yerlərə yerləşdirilməsi seçim ardıcıllığı gözlənilməklə aparılır.

### Yeni Qaydalarda yeniliklər: nə dəyişəcək?

"Azərbaycan müəllimi" qəzetinə açıqlamasında Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir əvəzi Eşqi Bağırov bildirib ki, bundan sonra müsabiqəyə qatılan müəllimlərin işə qəbul üçün iştirak etdiyi test imtahanının nəticələri bir il sonra da qüvvədə olacaq. Həmin nəticələrə görə keçid balı toplayan, lakin yerləşdirilməyən müəllimlər növbəti il müsabiqəyə imtahansız qatılacaq.

### Peşə liseylərinə müəllimləri Agentlik seçəcək

E.Bağırov deyib ki, peşə liseylərində ümumtəhsil fənləri üzrə vakant olan yerlərə müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş imtahanlarla həyata keçiriləcək. Həmin imtahanlarda iştirak edərək müvafiq keçid balı toplayanlar Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müsahibəyə dəvət olunacaq və müsahibədən keçənlər peşə təhsili müəssisələrində işə götürüləcək: "Əvvəlki illərdə peşə təhsili müəssisələrində ümumtəhsil fənlərini tədris edən müəllimlər müsabiqə yolu ilə seçilirdi. Vakansiyalar toplanır, test imtahanında iştirak edənlərin təyinatı verilirdi. Bu il burada da fərqlilik olacaq. Belə ki, peşə təhsili müəssisələrində işə qəbulu 2016-cı ildə yaradılan Peşə Təhsili üzrə Dövlət Agentliyi aparacaq. Onlar vakansiyalar üzrə müəllimləri test imtahanında keçid bal toplayan namizədlərin arasından seçəcəklər".

### 10 ümumi təhsil müəssisəsi müəllimləri özü seçəcək

Yeniliklərdən biri də müsabiqədənkənar işə qəbul etmək hüququ olan təhsili müəssisələrinin siyahısıdır. Tərtib olunan həmin siyahıda Nazirlik tabeli 10 ümumi təhsil müəssisəsi yer alıb. Onlar müsabiqədənkənar işə qəbul hüququ əldə etsələr də, namizədlərin təyinatını Təhsil Nazirliyi ilə razılaşdırmalıdırlar. Ən yüksək akademik göstəricilərə malik həmin müəssisələrin müəllimlərinin müsabiqədə iştirak etmələrinə ehtiyac olmasa da, həmin müəllimlərin namizədlikləri Təhsil Nazirliyində müvafiq Komissiyada araşdırılacaq.

### Müsabiqədənkənar qəbul və vakansiyaların gizlədilməsi faktlarının qarşısı alınacaq

Builki qaydalarda tətbiq edilən yeniliklərdən ən vacibi daxili yerdəyişmələrin də nazirlik tərəfindən aparılması olacaq. E.Bağırovun sözlərinə görə, əvvəlki illərdə bu səlahiyyət yerli təhsili idarəetmə orqanlarına aid idi. Bu il proses bilavasitə Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək. Burada da proqram təminatı tətbiq ediləcək. Bu zərurət 2015-2016-cı illərdə rayonlarda həyata keçirilən araşdırmalardan sonra ortaya çıxıb. Belə ki, diaqnostik qiymətləndirmə zamanı müəllimlərin sənədləri araşdırılarkən daxili yerdəyişmələrdə ciddi nöqsanlar aşkarlanıb. Faktların çoxu müəllimlərin sıxlıq müşahidə edildiyi məktəblərə yerləşdirməsi, vakansiya olmadığı halda müəllimin kənd məktəbindən şəhər məktəbinə gətirilməsi ilə bağlıdır: "Gizlədilən vakansiyaya işə götürülən müəllimlərin yerləri tərəfimizdən müəyyən olunub. Onların hamısı vakansiyaya çıxarılacaq. Bu səbəbdən düşünürük ki, bu il yerlərdə əvvəlki illərdən daha çox vakansiya olacaq".

Beləliklə, işə qəbul üzrə müsabiqənin keçirilməsi üçün müvafiq ixtisaslar üzrə test tapşırıqları hazırlanacaq, o cümlədən bu il iyunun 5-dək ümumi təhsil müəssisələrində vakant müəllim yerlərinin toplanılması və təhlili təmin ediləcək. Nazirin əmrinə görə, Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsi proqram təminatı tətbiq olunmaqla mayın 25-dən iyunun 15-dək təşkil edilməlidir.

Yerli təhsili idarəetmə orqanları vakant yerlər barədə məlumatları proqram təminatına daxil etməlidirlər. Bu proses ərazi maliyyə hesablaşma mərkəzləri ilə razılaşdırmaqla mayın 25-dək tamamlanmalıdır. Müsabiqənin nəticələrinə əsasən iş yerini dəyişən və işə qəbul olunan müəllimlərlə əmək müqavilələri sentyabrın 15-dək bağlanılmalıdır. Nazirliyin keçirdiyi müsabiqənin nəticəsi olaraq iş yerini dəyişən və işə qəbul olunan müəllimlər, həmçinin mövcud vakant yerlər haqqında müəyyənləşdirilmiş formada məlumat quruma bu il sentyabrın 20-dək təqdim edilməlidir.

# Peşə təhsili müəssisələrinin nüfuzu artır

## Bu müəssisələrə daxil olanların akademik göstəricilərində də yüksəlmə müşahidə olunur

Niyazi RƏHİMOV



"Peşə təhsili sahəsində həyata keçirilən layihələr və tədbirlər peşə təhsili müəssisələrinin nüfuzunun artmasına səbəb olub". Bu fikirləri Peşə Təhsili üzrə Dövlət Agentliyinin yeni inzibati binasının açılış mərasimində təhsil naziri Mikayıl Cabbarov səsləndirib. Nazir bildirib ki, peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, optimallaşması, birləşməsi, onların tədris proqramlarının məzmununun yenilənməsi, peşə standartlarına yenidən baxış, özəl sektorla əməkdaşlığın genişləndirilməsi və digər amillər peşə təhsili müəssisələrinin nüfuzunu artırıb. Bundan başqa, qəbul sahəsində "ASAN xidmət"lə birgə həyata keçirilən "ASAN peşə" layihəsi nəticəsində bu təhsil müəssisələrinə daxil olanların akademik göstəricilərində də kifayət qədər yüksəlmə müşahidə olunur.

Peşə Təhsili üzrə Dövlət Agentliyi haqqında da məlumat verən Mikayıl Cabbarov bildirib ki, agentlik bir il öncə Prezident İlham Əliyevin sərəncamına əsasən yaranıb. Agentliyin qarşısında duran vəzifələr bu gün ölkənin təhsil sistemində həyata keçirilən islahatlara, ölkə iqtisadiyyatının, strukturunun möhkəmlənməsinə, ildən-ilə formalaşmasına xidmət edir. Peşə təhsili sahəsinin iqtisadiyyatın inkişafında xüsusi əhəmiyyət daşıdığını qeyd edən nazir bu sahədə özəl şirkətlərlə əməkdaşlıq, bazara uyğun olaraq ixtisaslı kadrların hazırlanması məsələsinin vacib olduğunu bildirib: "Məqsədimiz ondan ibarətdir ki, peşə təhsili müəssisələrinin yetişdirdiyi kadrlar dəyişən əmək bazarının tələblərinə tam cavab versin. Əmək bazarına çıxan hər bir məzun layiqli iş yeri ilə təmin olunmaq üçün bütün zəruri bilik və kompetensiyalara malik olsun".

Peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsindən də söhbət açan nazir onu da qeyd edib ki, son vaxtlar Bakı və Gəncə şəhərlərində bir neçə peşə təhsili müəssisəsi əsaslı təmir olunub, yenidən tikilib. Bundan başqa, Qəbələdə yerləşən peşə təhsili müəssisəsinin bu yaxınlarda açılışı planlaşdırılır.

# "Ali qonaqlar, elmi maraqlar" layihəsinin növbəti qonağı

Mayın 16-da Azərbaycan Dillər Universitetində (ADU) universitetin Tələbə Gənclər Təşkilatının (TGT) nəzdində fəaliyyət göstərən Tələbə Diplomatlar Klubunun (TDK) təşkilatçılığı ilə keçirilən "Ali qonaqlar, elmi maraqlar" layihəsi çərçivəsində növbəti qonaq Azərbaycan Respublikası Təhsil Nazirliyinin Aparat rəhbəri Fariz Rzayev olub.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev qonağı tələbələrə təqdim edərək onu universitetdə görməkdən məmnun olduğunu bildirib. O, tələbələrin həyata keçirdikləri bu layihənin universitet rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini və dəstəkləndiyini vurğulayıb.

Təhsil Nazirliyinin Aparat rəhbəri Fariz Rzayev tələbələri salamlayaraq onlarla görüşməkdən məmnunluğunu ifadə edib. O, TGT və TDK-nın fəaliyyətini yüksək qiymətləndirərək belə təşəbbüslərin həyata keçirilməsinin əhəmiyyətli olduğunu söyləyib.

"Azərbaycanın inkişaf strategiyasında təhsilin rolu" mövzusunda çıxış edən Fariz Rzayev təhsil strategiyasında nəzərdə tutulan yeniliklər haqqında danışıb. O, tədrisin məktəb və universitet səviyyəsində məhdudlaşdırılmamasının vacibliyini və tələbələrin hər zaman özlərini inkişaf etdirməli olduqlarını qeyd edib. Aparat rəhbəri tələbələrə müasir metodologiyaya əsaslanan ekstra kurikulum fəaliyyəti ilə məşğul olmağı tövsiyə edib. Kitab oxumağın əhəmiyyətindən söz açan Fariz Rzayev tələbələrdə kitab oxuyan zaman bir çox vərdişlərin inkişaf etdiyini vurğulayıb.

Görüş tələbələri maraqlandıran sualların cavablandırılması ilə başa çatıb.

# Gənc nəslin milli mədəniyyətimizə və adət-ənənələrimizə marağını artıran ortaq layihələr həyata keçiriləcək

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov Qazaxıstan Respublikasının Vətəndaş cəmiyyəti və dini işlər nazirinin müavini Berık Arınla görüşüb. Rektor qonağa rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verib, Qazaxıstan universitetləri ilə əlaqələrdən danışıb.

Görüş böyük qazax şairi, yazıçısı, ictimai xadim, müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev adına mərkəzdə davam edib. Mərkəzin yaranma tarixi və fəaliyyəti haqqında məlumat verən rektor bildirib ki, burada bir çox layihələr həyata keçirilib, birgə konfrans və simpoziumlar təşkil olunub, Qazaxıstan universitetləri ilə müqavilələr imzalanıb. Eyni zamanda qazaxıstanlı rektor və professorlar, jurnalistlər, bir çox tanınmış insanlar mərkəzdə olub, tələbələrə mühazirələr oxuyublar.

Qazaxıstanın Vətəndaş cəmiyyəti və dini işlər nazirinin müavini Berık Arın mərkəzin fəaliyyətindən razılıq ifadə edib, qazax ədəbiyyatı ilə bağlı tədqiqat işlərini yüksək qiymətləndirib.

Görüş zamanı tərəflər gənc nəslin milli mədəniyyətimizə və adət-ənənələrimizə olan marağının artırılması məqsədilə ortaq layihələrin həyata keçirilməsi üzrə ilkin razılıq əldə ediblər.

# Şagirdlər "SketchUp" proqramında memarlıq incisinin üçölçülü modelini hazırlayıblar

Bakı Modern Təhsil Kompleksində (BMTK) "SketchUp qrafik redaktorunda hazırlanmış ən yaxşı üçölçülü model" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimi Bakı Modern Təhsil Kompleksinin baş direktoru Mina Əliyeva açaraq belə müsabiqələrin şagirdlərin texnologiya vərdişlərinə daha dərindən yiyələnmələrinə, onların bu tipli tətbiqi proqramlarla işləmə bacarıqlarının formalaşmasına birbaşa təkan verdiyini söyləyib.

BDU-nun professoru Ramin Mahmudzadə çıxış edərək öncə BMTK rəhbərliyinə, xüsusən, kompleksin nəzdindəki İnnovativ Təhsil Texnologiyaları Mərkəzinin əməkdaşlarına belə bir müsabiqəyə ev sahibliyi etdiyinə və yüksək təşkilatçılığa görə təşəkkür edib. O, eyni zamanda respublika məktəblilərinin 2 saat ərzində sadə olmayan modelləri hazırlamalarının sevindirici olduğunu qeyd edib.



Hər il keçirilən və sayca 5-ci olan bu müsabiqədə respublikanın müxtəlif bölgələrindən 110 şagird iştirak edib. Builki müsabiqə 9 mart 2017-ci il tarixdə Bakı Modern Təhsil Kompleksinin təşkilatçılığı ilə Bakı şəhərində həmin kompleksdə və Gəncə, Şirvan, Lənkəran, İsmayıllı, Balakən, Ağdaş, Sabirabad, Qusar şəhərlərində, eləcə də Ağcabədi rayonu Hindarx qəsəbəsində yaradılmış mərkəzlərdə təşkil olunmuşdu. Yarışlara 7-9-cu sinif şagirdləri qatılıblar.

Münsiflər heyəti tərəfindən müsabiqə üçün Azərbaycanın bir neçə tarixi memarlıq abidəsi təklif edilib. Püşkatma nəticəsində bu obyektlər arasından Azərbaycan Milli Kitabxanası seçilib. Şagirdlər tərəfindən bu memarlıq incisinin 2 saat ərzində üçölçülü modelinin hazırlanması onlardan təkcə "SketchUp" proqramında işləmək bacarığı tələb etmirdi. Belə ki, məktəblilər həm də fəza təsəvvürlərini nümayiş etdirməli, fotoşəkillər əsasında binanın bütün tərəflərdən görünüşlərini yaratmalı idilər.

Qeyd edək ki, "SketchUp" proqramı obyektlərin üçölçülü modellərini yaratmaq üçün nəzərdə tutulan müasir proqramlardandır. Autodesk Maya, 3D Max, AutoCAD kimi mükəmməl və mürəkkəb proqramlarda işləmək üçün "SketchUp" proqramı çox uğurlu başlanğıcdır. Bu proqramda iş vərdişlərinin formalaşdırılması informatikanın riyaziyyat, təsviri incəsənət, texnologiya fənləri ilə inteqrasiyasını təmin edir.

Müsabiqədə işlər üç meyar əsasında qiymətləndirilib: işin tamamlanması, orijinal obyektə uyğunluq və səliqəli yerinə yetirilməsi. Münsiflər heyətinin qərarına görə, iştirakçılardan 2 nəfər I, 3 nəfər II, 4 nəfər III, 10 nəfər IV (həvəsləndirici) yerlərə layiq görülüblər.

Sonda müsabiqə qaliblərinə medal, diplom və hədiyyələr təqdim olunub, bütün iştirakçılara sertifikatlar verilib.

# Niderland Krallığının təhsil inspektorları ilə birgə sistemin qurulması müzakirə olunub

Niderland Krallığının Utrext şəhərinə təhsil səfəri təşkil edilib. Səfərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, idarənin sektor müdirləri Anar Qədiməliyev və Lamiyə Şərəfxanova iştirak edib.

Səfər BŞTİ-nin İnkişaf layihələri sektorunun təşəbbüsü ilə Avropa Komissiyasının TAIEX proqramı çərçivəsində məktəb inspeksiyaları mövzusunda təşkil olunub.

Səfərin əsas məqsədi Niderland Krallığının Təhsil Nazirliyinin tərkibində Təhsil İnspeksiyaları Departamenti ilə əməkdaşlıq, onların bu sahədə təcrübələrini öyrənmək və təhsil müəssisələrinin inspeksiyasında iştirak etməkdən ibarətdir.

Səfərin ilk günü Utrext şəhərində yerləşən Təhsil İnspektorluğu Departamentində görüş keçirilib. Görüşdə Təhsil İnspektorluğunun funksiyası və iş prinsipi haqqında ətraflı məlumat verilib. Növbəti günlərdə təhsil müəssisələrinə inspeksiya təşkil olunub. Məktəblərlə tanışlıq zamanı müəllim, şagird və məktəb direktorları ilə müsahibədə iştirak edilib. Həmçinin, inspeksiyanın yekununda alınan məlumatlar təhlil edilib, müvafiq müzakirələr aparılıb və qərarların çıxarılması mərhələsində iştirak olunub.

Səfər çərçivəsində bir qrup inspektorla da görüş keçirilib və Azərbaycanın təhsil sistemi haqqında məlumat verilib. Görüşdə Niderland Krallığının təhsil inspektorları ilə birgə effektiv sistemin qurulması haqqında müzakirələr aparılıb.

# Məzunlarla işəgötürənlər arasında ilkin əlaqələr qurulur

Hər tədris ilində olduğu kimi, bu il də Gəncə Dövlət Universitetində "Məzun-2017" proqramı çərçivəsində "Məzun günü" keçirilib. Tədbirdə məqsəd tələbə-məzunlara aldıqları ixtisaslar üzrə əmək bazarında olan tələbat haqqında məlumat vermək, işəgötürənlərlə onların bilavasitə qarşılıqlı ünsiyyətini təşkil etmək və bununla da işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verən ixtisaslı kadrların seçiminin aparılmasına imkan yaratmaq, eyni zamanda işaxtaran vətəndaşların da layiqli işlə təmin olunmalarına köməklik göstərməkdir.

Tədbirdə 150-dən çox təşkilat və müəssisənin nümayəndələri iştirak edib. Gəncə Məşğulluq Mərkəzi tərəfindən 1000, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Samux, Daşkəsən, Goranboy və Kəlbəcər rayonları tərəfindən isə 300 boş (vakant) iş yerləri təklif olunub.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov tədbiri açaraq, Gəncə şəhərində gənclərin hərtərəfli inkişafı üçün hər şəraitin olduğunu qeyd edib. Bildirib ki, universitetdə tədrisin maddi-texniki bazası gücləndirilərək müasir tələblərə cavab verən mühit yaradılıb, mütəmadi məqsədyönlü tədbirlər həyata keçirilir. 2016/2017-ci tədris ilində Gəncə Dövlət Universitetində 1511 bakalavr və 150 magistratura tələbəsi məzun olur. Rektor məzunlara gələcək işlərində uğurlar arzulayıb, onlara öz tövsiyələrini verib.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Sevda Qurbanəliyeva çıxış edərək, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin mühüm tərkib hissəsi olan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, universitetdə belə bir tədbirin təşkilinə, yuxarı kurslarda təhsil alan, xüsusən ali təhsil ocaqlarını bitirərək əmək fəaliyyətinə başlamaq ərəfəsində olan məzunlarla işəgötürənlər arasında ilkin əlaqələrin qurulmasına, onlarda müasir əmək bazarı barədə dolğun təsəvvür yaratdıqlarına görə öz təşəkkürünü bildirib.

Gəncə Dövlət Universitetinin məzunları - 4 nömrəli tam orta məktəbin direktoru Əliağa Səfərəliyev, 39 nömrəli tam orta baza məktəbinin direktoru Nizami Rzayev, 30 nömrəli tam orta məktəbin direktoru İlham Həsənov çıxış edərək gəncləri təbrik edib, universitetlə bağlı xatirələrini bölüşüblər.

"Məzun günü"ndə kitab və tələbələrin rəsm əsərlərindən ibarət sərgi nümayiş olunub.

Yüksək mütəşəkkilliklə keçən tədbirdə universitetin fəal tələbələrinə Fəxri fərman təqdim edilib.

Tədbir musiqi fənləri kafedrasının tələbələrinin hazırladıqları "Musiqi çələngi" adlı konsert proqramı ilə davam edib.

# "Yeniyetmə və gənclərin həyati bacarıqlarının artırılması" üzrə təlim

"Yeniyetmə və gənclərin həyati bacarıqlarının artırılması" mövzusunda məktəbdənkənar təhsil müəssisələrinin pedaqoji heyətinə təlimçi bacarıqlarının aşılanması üçün təlim keçirilir.

Təlim proqramına "Özünüdərk", "Hüquqlarım və öhdəliklərim", "Gender və sosial inklüzivlik", "Faydalı vərdişlərin formalaşması", "Qidalanma", "İlk tibbi yardım", "Fəlakət riskinin azaldılması - iqlim dəyişikliyi və fəlakət zamanı adaptasiya təminatı","Yaşam şərtləri - peşələr, peşə təhsili, planlama və büdcənin qurulması, sahibkarlıq", "Reproduktiv sağlamlıq", "Gender mənşəli zorakılıq - erkən nikah, məişət zorakılığı, insan alveri" kimi mövzular daxil edilib.

Bakı şəhəri üzrə məktəbdənkənar təhsil müəssisələrinin pedaqoji heyəti üçün təşkil edilmiş təlimlər başa çatdıqdan sonra müəllimlərin Bərdə, Mingəçevir, Masallı, Quba, Qazax, İsmayıllı, Şirvan, Qax şəhərlərinə ezamiyyələri baş tutacaq. Bu zaman hazırlanmış proqram üzrə 1500-dək VI və IX sinif şagirdinin maarifləndirilməsi həyata keçiriləcək.

Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və UNİSEF arasında 2016-2017-ci illəri əhatə edən "Azərbaycan Respublikasında Həssas Uşaqların və İcmaların Fəlakət Riskinə Davamlılığının Artırılması" layihəsi üzrə Fəaliyyət Planının müvafiq bəndi çərçivəsində keçirilən təlimlər mayın 21-dək davam edəcək.

# Məktəbli tələbələr

## Tədris ili bitmədən qəbul imtahanlarının keçirilməsi birmənalı qarşılanmır

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

### DİM dəyişiklik təklifini çoxsaylı müraciətlər əsasında edib

Dövlət İmtahan Mərkəzinin Mətbuatla iş və elektron kommunikasiya sektorunun müdiri Xanlar Xanlarzadə "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında bildirib ki, qəbul qaydalarında edilən dəyişikliyin bir çox müsbət tərəfi var: "Dəyişiklik abituriyentlərə daha çox şans tanımaq və onların imtahanla bağlı psixoloji gərginliyini aradan qaldırmaq baxımından əhəmiyyətlidir. Abituriyentlər, xüsusən builki məzunlar, bir sözlə, özünü imtahana hazır hiss etməyənlər üçün ilk imtahanda iştirak şərt deyil. Lakin imtahanda iştirak edib minimal müsabiqə şərtlərini ödəyənlər həmin nəticə ilə müsabiqəyə qatıla bilər. Nəticələrindən razı qalmayanların ikinci imtahanda iştirak hüququ qalır. Hər iki imtahanın nəticəsi hüquqi qüvvəyə malikdir. Yəni, abituriyent sonda istədiyi imtahanın nəticəsi ilə müsabiqəyə qatılır. Sadəcə, ikinci imtahanda iştirak ödənişlidir".

X.Xanlarzadə Azərbaycanda qəbul imtahanlarının 2 dəfə keçirilməsi təcrübəsinə də diqqət çəkib: "Ötən illərdək ölkəmizdə qəbul imtahanları 2 dəfə keçirilirdi. Yəni, əvvəlki illərin məzunları daha öncə may ayında imtahan verirdilər. Lakin Dövlət İmtahan Mərkəzinə daxil olan çoxsaylı müraciətdə həmin abituriyentlər iyulda cari ilin məzunları üçün keçirilən imtahanlarda da iştirak etməyi arzulayırdılar. Həmçinin əksinə də olurdu - cari ilin məzunları mayda keçirilən imtahana da qatılmaq istədiklərini bildirirdilər. Bir sözlə, Nazirlər Kabinetinin etdiyi dəyişiklik məhz çoxsaylı müraciət əsasında edilib".

### Yeni qayda, tanış problem

Bəs, qəbul imtahanlarının buraxılış imtahanlarından öncə, hələ tədris ili tam yekunlaşmadan keçirilməsi məktəblərdə davamiyyətin azalmasına, qəbul imtahanlarında yüksək bal toplayanların məktəbin tələbinə biganə yanaşmasına gətirib çıxarmayacaqmı?

X.Xanlarzadə hesab edir ki, yeni qaydanın nə tədris prosesinin əhəmiyyətliliyinə, nə davamiyyətə, nə də buraxılış imtahanlarının mütəşəkkilliyinə heç bir təsiri olmayacaq: "Qəbul imtahanlarından nə qədər bal toplamasından asılı olmayaraq, şagird məktəbi bitirməlidir və attestat almalıdır. Əks halda, abituriyent müsabiqəyə buraxılmır. Buraxılış imtahanında iştirak etməyən buraxılış sinif şagirdlərinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılmırsa, onlara attestat verilmir".

"Təhsil xidmətləri" Araşdırma Mərkəzinin rəhbəri, təhsil üzrə ekspert Kamran Əsədov isə hesab edir ki, məhz bu məqam sayəsində indiyədək magistratura pilləsində müşahidə edilən problem bundan sonra bakalavr pilləsində də ortaya çıxacaq: "Bildiyiniz kimi, magistraturaya qəbul imtahanlarının aprel ayında I, may ayında II mərhələsi keçirilir. 2014, 2015 və 2016-cı ilin imtahanlarında iştirak edən və uğur qazanan 1000-ə yaxın tələbə sonradan magistratura pilləsində təhsilini davam etdirə bilməyib. Çünki tələbələrin adətən 40 faizindən çoxu kəsirlə növbəti ilə qalırlar. Tələbələr imtahana buraxılanda bunlar nəzərə alınmalı idi. İndi isə oxşar qayda ali təhsil müəssisələrinə qəbul qaydalarına şamil olunub və bu dəyişikliyin həmin problemə yol açacağı gözləniləndir".



### Repetitorların proqramına uyğun imtahan?

Hələ orta məktəb proqramı yekunlaşmadığı halda imtahanların keçirilməsini düzgün hesab etməyən ekspertin müşahidəsinə görə, imtahanlarda bütün fənlərdən, xüsusən, Azərbaycan dili, tarix, coğrafiyadan hələ keçilməmiş mövzulara dair suallar olub. Onun sözlərinə görə, həmin mövzular orta təhsil müəssisələrinin təhsil proqramlarına uyğun olaraq hələ mayın 15-dən sonra keçiriləcək.

Elə isə 700 bal toplayanların olması nə ilə izah olunmalıdır? Axı, imtahanda builki məzunlardan 10 nəfər - I ixtisas qrupu üzrə 5 abituriyent, II ixtisas qrupu üzrə 2 abituriyent, III ixtisas qrupu üzrə 1 abituriyent və IV ixtisas qrupu üzrə isə 2 abituriyent onlara təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verib və maksimum nəticə - 700 bal toplayıb.

Ekspertin fikrincə, bu ona dəlalət edir ki, Dövlət İmtahan Mərkəzi repetitorların proqramına uyğun imtahan keçirir: "İmtahanların nəinki vaxtı müəyyənləşdirilərkən, elə sualları seçilərkən də məktəb proqramı nəzərə alınmayıb. 2008-2009-cu ildən ölkədə yeni təhsil proqramları həyata keçirilir. Qəbul imtahanında abituriyentlərin hansı bacarıqları yoxlanıldı? Həmin imtahanlarda nəinki yeni təhsil proqramı ilə təhsilalanların bacarıqlarının yoxlanılmasına yönəlik suallar vardı, əksinə, istifadə edilən suallar tamamilə təkrar idi. Belə ki, builki qəbul imtahanlarına salınan suallar 2014, 2015 və 2016-cı illərdə keçirilən imtahanlara salınmış sualların demək olar ki, eyni idi. Variantları belə dəyişdirilmədən təkrar istifadə edildi. Bu, ikinci imtahanda da belə olacaqsa, abituriyentlərdə arxayınçılıq yaradacaq".

Təhsildə yenilik də, görüləcək iş də çoxdur. Builki məzunları isə qarşıda hələ çox imtahan gözləyir.

## ADU-da İctimai Nəzarət Şurasının üzvləri tələbələrlə görüşüb



Azərbaycan Dillər Universitetinin (ADU) İctimai Nəzarət Şurasının üzvləri bütün fakültələr üzrə I-III kurslarda təhsil alan tələbələrlə görüşlərə başlayıb. Görüşlərdə imtahan hazırlığı, Bolonya sisteminin tətbiqi, tələbələrin sosial həyatı, təhsil islahatları, IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən könüllülər, universitetdaxili nizam-intizam və s. mövzular ətrafında müzakirələr aparılıb.

İnteraktiv şəkildə keçirilən görüşlərdə tələbələri maraqlandıran suallar cavablandırılıb, ətraflı izahat verilib.

Qeyd edək ki, ADU-nun Elmi şurasının 28 dekabr 2016-cı il tarixli qərarına əsasən yaradılan 14 nəfərlik İctimai Nəzarət Şurasının sədri "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əlimməmməd Nuriyev, sədr müavini, təhsil eksperti Nadir İsrafilov, katibi isə *modern.az* saytının rəhbəri Elşad Eyvazlıdır.

## 700 bal toplamış abituriyentlər Bakı Mühəndislik Universitetində tədris sistemi ilə tanış olub

Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanında 700 bal toplamış abituriyentlər Xalidə Əliyeva, Elmir Əhmədov, Mahirə Əsədzadə, Eldar Əfəndiyev, Nemət Yusifov, Səbinə İsmayılova, Cavad Əliyev və Arzu Məmmədzadə Bakı Mühəndislik Universitetində olublar. Universitetin rektoru, professor Havar Məmmədov həmin abituriyentlər və onların valideynləri ilə görüş keçirib. Rektor ümummilli liderimiz Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına və savadlı gənclərin yüksək səviyyədə təhsil almalarına olan diqqət və qayğısından danışıb. "Bu gün ölkəmizdə təhsilin bütün pillələrində və eləcə də qəbul imtahanlarında şəffaflıq, obyektiv qiymətləndirmə mövcuddur. Bunun bariz nümunəsi sizlərsiniz. 21-ci əsr texnologiyalar əsri olması, ölkəmizdə yeni sənaye sahələrinin açılmasını nəzərə alsaq mühəndislik ixtisaslarına olan ehtiyacı və onun önəmini anlayarıq". Rektor Havar Məmmədov BMU-da olan mühəndislik və iqtisadiyyat üzrə ixtisaslar və bu ixtisaslar üzrə yüksək səviyyəli kadr hazırlığı üçün universitetin maddi-texniki bazası və akademik heyəti haqqında məlumat verib. Qeyd edib ki, universitetdə tələbələrə yüksək səviyyəli təhsil verməklə yanaşı onlar müasir dizaynda yaradılmış yataqxana ilə təmin olunub və asudə vaxtlarının səmərəli keçirmələri üçün şərait yaradılıb. Tələbələrə yaradılmış şəraitin nəticəsidir ki, onlar olimpiadalarda, bədii özfəaliyyət festivallarında fəxri kürsünün ən yüksək pillələrinə qalxırlar. Rektor BMU-nun orta məktəblərlə olan əlaqələrindən, xüsusən akademik Zərifə Əliyeva adına liseylə bağlanmış müqaviləyə əsasən görülən işlərdən danışıb.



BMU-nun prorektorları Həmzağa Orucov, Bayram Hüseynzadə və Azər İmanquliyev abituriyentlərə və onların valideynlərinə ixtisas seçimində diqqət etməli olduqları məsələlərlə bağlı tövsiyələrini veriblər.

Valideynlərdən Məhəbbət Əsədzadə bir övladının BMU-da təhsil aldığını, universitetin onun formalaşmasındakı rolunu yüksək qiymətləndirib və minnətdarlığını bildirib.

Sonda qonaqlar universitetin kitabxanası, laboratoriyaları və yataqxanası ilə tanış olublar. Gördükləri şəraitə heyran olduqlarını və dəvət üçün universitetin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

## 412 nəfər eksternat imtahanı verib

Yusif ƏLİYEV

Bakı Şəhəri üzrə Təhsil İdarəsi əvvəlki illərdə tam orta təhsilini başa vura bilməyən şəxslər üçün 11-13 may tarixlərində eksternat imtahanları keçirib. Paytaxtdakı 45 nömrəli tam orta məktəbdə təşkil olunan imtahanlarda 412 nəfər iştirak edib. Eksternlər 3 gün ərzində ana dili, ədəbiyyat, xarici dil, insan və cəmiyyət, Azərbaycan tarixi, ümumi tarix, iqtisadiyyatın əsasları, riyaziyyat, biologiya, astronomiya, kimya, fizika, coğrafiya fənlərindən imtahan veriblər. Onlara 13 fənnin hər birindən 10 sual təqdim olunub.

Rus bölməsi üzrə təhsil almış şəxslər əlavə olaraq daha bir fəndən - Azərbaycan dilindən də sınaqdan keçiblər. İmtahanlarda məqbul qiymət almış şəxslərin siyahısı mayın 23-dək idarənin rəsmi saytında yerləşdiriləcək.

Qeyd edək ki, eksternat imtahanları tam orta təhsil haqqında sənəd almaq üçün ilkin mərhələdir. Bu mərhələdə uğur qazanan şəxslər attestat almaq üçün Dövlət İmtahan Mərkəzinin tam orta təhsil səviyyəsi üzrə keçirəcəyi buraxılış imtahanlarında da iştirak etməlidirlər.

## ADMİU-da "Sonsuz dəhliz" filmi nümayiş olunub

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Təhsil Nazirliyinin təşəbbüsü ilə "Sonsuz dəhliz" filmi nümayiş olunub. Bununla bağlı keçirilən tədbiri universitetin beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, professor Gülşən Əliyeva açaraq Xocalı faciəsinin yalnız Azərbaycana deyil, bütün bəşəriyyətə qarşı törədilmiş vəhşilik olduğunu və bu soyqırımın gənclərin yaddaşına həkk edilərək hər zaman anılmasının vacibliyini vurğulayıb.

Qeyd edək ki, litvalı rejissor Aleksandras Brokasın Xocalı soyqırımından söz açan "Sonsuz dəhliz" sənədli filmi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində hazırlanıb. Litvalı jurnalist Riçardas Lapaytis 23 il əvvəl Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini və Xocalı soyqırımını işıqlandırıb, Xocalıda kütləvi qətliamdan sağ çıxmış insanlarla görüşüb və ermənilərin atəşi altındakı "sonsuz dəhliz"də yaxınlarını itirən insanların hekayələrini dinləyib. Filmin süjeti real hadisələr və kütləvi qırğını öz gözü ilə görmüş insanların xatirələri əsasında qurulub.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyanın məqsədi Xocalı soyqırımı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və nəticələri ilə bağlı beynəlxalq maarifləndirmənin artırılmasından ibarətdir. Kampaniya çərçivəsində Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması, ona hüquqi və siyasi qiymətin verilməsi istiqamətində, eləcə də soyqırım qurbanlarının xatirəsinin yad edilməsinə həsr edilmiş çoxsaylı beynəlxalq və ölkə səviyyəli tədbirlər keçirilir.

"Sonsuz dəhliz" filmi professor-müəllim və tələbə heyəti tərəfindən maraqla qarşılanıb. Tədbirdə "Xocalıya ədalət!" kampaniyasının həyata keçirilməsi yüksək dəyərləndirilərək bu kimi işlərin reallaşdırılmasının Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm addımlardan biri olduğu vurğulanıb.

## Universitetin 50 illiyinə həsr olunmuş konfrans

Nərmin CABBAROVA

Naxçıvan Dövlət Universitetinin memarlıq və mühəndislik fakültəsində bu ali təhsil müəssisəsinin 50 illik yubileyi ilə əlaqədar elmi-praktik konfrans keçirilib.

Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri açaraq 50 illik tarixə malik NDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı işinin yüksək təşkilindən danışıb. Kollektivi yubiley münasibətilə təbrik edən rektor tələbələrə gələcəyin peşəkar memarı və mühəndisi adını qazanmaq üçün ixtisaslarını yaxşı öyrənməyi, universitetdə yaradılan şəraitdən düzgün və səmərəli şəkildə istifadə etməyi tövsiyə edib.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov "Naxçıvan Dövlət Universitetində təhsilin formalaşmasında informasiya-kommunikasiya texnologiyalarının rolu" adlı məruzə, nəqliyyat mühəndisliyi kafedrasının laborantı Tərxan Orucov isə "Müasir yol hərəkətinin intellektual idarə olunması" mövzusunda təqdimatla çıxış ediblər.

İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisası üzrə III kurs tələbəsi Murad Əliyev "Dünyada İKT və Azərbaycan" adlı məruzəsində dünyanın yarandığı gündən müasir dövrümüzə qədərki inkişafı və məruz qaldığı dəyişikliklərdən, insanların İKT-nin imkanları ilə imza atdığı uğur və ixtiralardan, günümüzdə İKT-nin rolu barədə danışıb.

Konfransdan sonra ixtisaslararası viktorina keçirilib. Viktorinanın nəticələrinə görə Elektroenergetika mühəndisliyi komandası I, Yerüstü nəqliyyat vasitələri mühəndisliyi komandası II, İnformasiya texnologiyaları komandası isə III yerə layiq görülüb.

Sonda universitet rəhbərliyinin iştirakı ilə rabitə və informasiya texnologiyaları kafedrasının təşkil etdiyi sərgiyə baxış olub. Burada tələbələr hazırladığı cihaz və qurğular, layihə və eskizlər barədə ətraflı məlumat veriblər.

# İKT ixtisaslarına gedənlərin sayı ildən-ilə artır

## Xaricdə təhsil Dövlət Proqramı çərçivəsində informasiya-kommunikasiya ixtisasları üzrə 360 təqaüd yeri olub




⇦ Əvvəli səh.1

**Yusif ƏLİYEV**

Məruzədə İKT-nin təhsildə tətbiqi və informatika fənninin tədrisi, proqram təminatı üzrə kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, orta və ali təhsil müəssisələrində İKT-dən istifadə vərdişlərinin formalaşdırılması ilə bağlı ölkədə son illər həyata keçirilən tədbirlər və əldə olunan nailiyyətlərdən də geniş söz açılıb.

F.Qurbanov çıxışında bildirib ki, son illər respublika ali təhsil müəssisələrinə İKT ixtisasları üzrə qəbul olmaq istəyən gənclərin sayının artması müşahidə olunur. Belə ki, son 2 ildə ali təhsil müəssisələrinə İKT ixtisaslarına qəbul olunanların sayı 2545 nəfərdən 2681 nəfərə qədər artıb və bu kəmiyyət artımı eyni zamanda keyfiyyət artımı ilə müşayiət olunub.

Nazir müavininin fikrincə, belə olduğu halda gələcək yüksəkixtisaslı kadr hazırlığının təmin olunması üçün İKT ixtisası üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarına informatika fənninin daxil edilməsi müzakirə məsələsi ola bilər.

Nazir müavini diqqətə çatdırıb ki, 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nda informatika-kommunikasiya sahəsində yüksəkixtisaslı kadrların hazırlanması prioritet istiqamət hesab olunub. Dövlət Proqramı çərçivəsində bu günədək ümumilikdə 3500-dən çox təqaüd yeri ayrılıb ki, bunlardan da 360-ı, yəni 10 faizi informasiya-kommunikasiya ixtisasları üzrə olub.

Firudin Qurbanov çıxışında proqram mühəndisliyinin müasir aktual problemlərinə də toxunub, onların həlli yollarını dünya təcrübəsindən istifadə etməklə İKT sahəsi üzrə yüksəkixtisaslı kadrların hazırlanması, elmi-texniki potensialın gücləndirilməsi, bu sahə ilə elmi-tədqiqatlar arasında əlaqənin möhkəmləndirilməsində gördüyünü bildirib.

### Proqram mühəndisliyi ixtisası üzrə kadrlar hazırlanmalıdır

AMEA İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev "Azərbaycanda proqramlaşdırmanın yaranması və təşəkkülü" mövzusunda məruzə edib. Akademik Azərbaycanda kibernetika elmi və proqramlaşdırmanın 60-cı illərdən formalaşmağa başladığını diqqətə çatdırıb. Qeyd edib ki, 1969-cu ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi zaman Azərbaycanda elmtutumlu iqtisadi sahələr yox dərəcəsində idi. Telekommunikasiyanın, radioelektronikanın, hesablama texnikasının strateji əhəmiyyətini düzgün qiymətləndirən ulu öndər bu sahənin inkişafına xüsusi diqqət yetirməyə başladı. Bunun da nəticəsində respublikamızda proqramlaşdırma, avtomatika, tətbiqi riyaziyyat, kibernetika və digər sahələrdə böyük alimlər, mütəxəssislər yetişməyə başladı.

AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev "Proqram mühəndisliyinin formalaşmasının bəzi aktual problemləri və perspektivləri" mövzusundakı məruzəsində proqram mühəndisliyinin vəzifələri və hədəfləri, iqtisadi perspektivləri, bu sahədə beynəlxalq standartlar, kadr hazırlığı, elmi, informasiya təhlükəsizliyi və hüquqi-etik problemlərinə dair ətraflı məlumat verib.

R.Əliquliyev ölkədə proqram mühəndisliyinin inkişafına dair bir sıra təklif və tövsiyələrini də səsləndirib. Qeyd edib ki, müvafiq ali təhsil müəssisələrində proqram mühəndisliyi ixtisası üzrə kadrların hazırlanması və onların riyazi biliklərinin artırılması, proqram mühəndisliyi sahəsində mövcud beynəlxalq standartların milliləşdirilməsi, onların tətbiqi və tədrisinin həyata keçirilməsi, müvafiq qurumlar tərəfindən bu sahədə aparılan elmi araşdırmalara və irəli sürüləcək təşəbbüslərə dəstək verilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi zəruridir.

Sonra Beynəlxalq Atom Enerjisi Agentliyinin (IAEA) kompüter proqramları təminatı şöbəsinin rəhbəri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Bəxtiyar Siracovun "Proqram mühəndisliyi sahəsində dünya təcrübəsi və tendensiyalar" mövzusunda məruzəsi dinlənilib. O, təşkilatın fəaliyyət istiqamətləri, məqsədləri, təşkilat tərəfindən yaradılmış informasiya sistemləri, treninq strategiyaları və s. barədə ətraflı məlumat verib.

B.Siracov təmsil etdiyi təşkilata 160-dan çox ölkənin üzv olduğunu qeyd edərək bu qurumun nüvə enerjisi texnologiyalarının müxtəlif sahələrdə tətbiqi və bu texnologiyaların qeyri-qanuni yolla yayılmasının qarşısının alınması istiqamətlərində fəaliyyət göstərdiyini bildirib. Həmçinin təşkilatın proqram təminatı üzrə əməkdaşlıq etdiyi şirkətlər, o cümlədən 10 əsas strateji texnologiya trendi barədə məlumat verib.

Tədbirdə, həmçinin Bakı Dövlət Universitetinin dosenti Ramin Mahmudzadə "Ölkəmizdə proqramlaşdırmanın tədrisi haqqında" və "Microsoft" şirkətinin MDB ölkələri üzrə strateji həllər eksperti Qaçay Mirzəyev "Proqram mühəndisliyi sahəsində "Microsoft" şirkətinin prioritetləri" mövzusunda məruzələri də konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Konfrans öz işini "Proqram mühəndisliyinin elmi-nəzəri problemləri", "Proqram mühəndisliyinin tədrisi problemləri" və "Proqram mühəndisliyinin tətbiqi problemləri" mövzularında təşkil olunmuş seksiya iclasları ilə davam etdirib. Konfransda ümumilikdə 80-dən çox məruzə dinlənilib.

# Əziz Əliyevin anadan olmasının 120 illiyinə həsr olunan I Respublika elmi-praktik konfrans

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) görkəmli dövlət və elm xadimi, əməkdar həkim, professor Əziz Əliyevin anadan olmasının 120 illiyinə həsr olunan "Respublikada qida və tekstil sənayesinin inkişaf perspektivləri" mövzusunda I Respublika elmi-praktik konfransı keçirilib.

UNEC-in Elm və innovasiyalar mərkəzinin direktoru, professor Sakit Yaqubov Prezident İlham Əliyevin "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" sərəncamını alimin respublikada səhiyyə sisteminin inkişafı istiqamətindəki fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirib. Belə bir mövzuda keçirilən konfransın əhəmiyyətindən danışan S.Yaqubov ölkə Prezidenti İlham Əliyevin qida və tekstil sənayesinin inkişafına xüsusi önəm verdiyini vurğulayıb.

Sonra konfrans işini plenar iclas və bölmələrdə davam etdirib. İclaslarda texnologiya və dizayn fakültəsinin dekanı, professor Vəkil Hüseynov, Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun direktoru, texnika elmləri doktoru Tariyel Pənahov, Mikrobiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Pənah Muradov, Müdafiə Sənayesi Nazirliyi Cihaz İstehsalat Birliyi "Peyk" zavodunun direktoru Səyavuş Əliyev, Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Mərkəzinin baş direktoru, professor Rəsul Balayev, Azərbaycan Milli Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov və başqaları məruzələrlə çıxış ediblər.

Çıxışlar ətrafında müzakirələr keçirilib, təkliflər səsləndirilib. Qida təhlükəsizliyi və toxuculuq sənaye məhsullarının keyfiyyəti ilə bağlı elmi-tədqiqat işlərinin gələcəkdə istehsalatla əlaqəli aparılmasının təkmilləşdirilməsi tövsiyə edilib. UNEC-lə istehsalat arasında elmi praktiki əməkdaşlığın möhkəmləndirilməsi üçün belə tədbirlərin ənənəvi olaraq hər il keçirilməsi təklif olunub.

# ADNSU-da müasir standartlara əsasən yeni proqramlar qurulacaq

Mayın 15-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı "Holcim (Azərbaycan)" ASC-nin baş direktoru Rossen Papazovla görüşüb.

İkitərəfli əməkdaşlıq məsələlərinin müzakirə olunduğu görüşdə gələcək layihələr və qarşıda duran planlardan danışılıb. Universitet haqqında qonaqlara məlumat verən ADNSU-nun rektoru, professor Mustafa Babanlı "Holcim (Azərbaycan)" ASC-də istehsal olunan məhsulların Azərbaycan üçün mühüm əhəmiyyətə malik olduğunu bildirib. "Holcim (Azərbaycan)"la bir çox işlər görmək niyyətində olduqlarını deyən rektor şirkətin təkcə yüksək keyfiyyətli məhsul deyil, eyni zamanda yüksək mədəni xidmət göstərdiyini və Azərbaycan sənayesində xüsusi mövqeyə malik olduğunu söyləyib. Qeyd edilib ki, belə bir şirkətdə təcrübə keçmək universitet tələbələri üçün çox önəmlidir.

Universitetlə şirkət arasında əlaqə yaratmaq və ali təhsil ocağının həm də biznes mühitinə çevrilməsinə nail olmaq üçün bir sıra işlər aparıldığını bildirən rektor, həmçinin daha da irəli getmək və yeni standartlara əsasən yeni proqramlar qurmaq niyyətində olduğunu vurğulayıb.

ADNSU ilə əlaqələrin onlar üçün də mühüm əhəmiyyət kəsb etdiyini bildirən "Holcim (Azərbaycan)"ın baş direktoru Rossen Papazov universitetin məzunlarının şirkətdə yüksək vəzifələrdə çalışdıqlarını və işlərinin öhdəsindən uğurla gəldiklərini qeyd edib. Direktor biznes və universitet əməkdaşlığının çox önəmli olduğunu və bu əlaqələrin hər iki tərəfin inkişafına xidmət etdiyini diqqətə çatdırıb.

Sonda tərəflər arasında əməkdaşlığa dair saziş imzalanıb.

# Kembricdə çalışan azərbaycanlı alimlə görüş

**Almaz HƏSRƏT,**
*əməkdar müəllim*

Böyük Britaniyanın Kembric şəhərində yerləşən Molekulyar Biologiya Laboratoriyası (MBL) Tədqiqat İnstitutunun Hesablama Kristalloqrafiyası qrupunun rəhbəri Qərib Mürşüdov Təhsil İnstitutunun qonağı olub. Görüşdə İnstitutun Elmi Pedaqoji Mərkəzinin rəhbəri Faiq Şahbazlı, institutun direktor müavini Rəfiq Qəndilov, elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri Humeyir Əhmədov, beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Almaz Həsrət və beynəlxalq əməkdaşlıq şöbəsinin baş mütəxəssisi Aslan Huseynov iştirak ediblər.

Öncə Faiq Şahbazlı Təhsil İnstitutu və onun tarixi, məqsədi və görüləcək işlər barədə geniş məlumat verib. Qərib Mürşüdov dəvətə görə institut rəhbərliyinə xüsusi təşəkkürünü bildirib. Sonra həmyerlimiz hazırda yaşadığı və çalışdığı Böyük Britaniyanın təhsili və qazandığı elmi nəticələri barədə maraqlı məlumatlar verib. Söhbət zamanı elmi qrupun əsas işinin riyaziyyat və hesablama üsullarının bir neçə bioloji eksperimentlərini analiz etmək üçün software inkişafından ibarət olduğunu, nəticələrindən dünyanın struktur biologiya ilə məşğul olan elmi işçiləri tərəfindən müsbət qarşılanaraq daim istifadə etdiklərini xüsusi qeyd etdi. Q.Mürşüdovun elmi işlərinə çox istinadlar olur. Məsələn, google scholar-a görə, onun işlərinə indiyədək 20.000-dən çox istinad olduğunu görə bilərik.

Onun rəhbərlik etdiyi qrup dünyanın müxtəlif ölkələrində elmi kurslar hazırlayır və bir həftəlik elmi kurslar, əsasən, gənc alimlər və doktorantlar üçün nəzərdə tutulur. Bu kurslar Böyük Britaniyada, ABŞ-da, Yaponiyada və Cənubi Amerikada təşkil olunur. Qrupun planına əsasən müvafiq kursların Hindistanda və Çində də həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa, qrupun üzvləri elmi işlərin nəticələrinin müzakirəsi üçün hər il bir neçə konfransa gedir. Qərib Mürşüdov özü bu kurslar və konfranslar üçün 25-dən çox ölkədə səfərdə olub. Gələcəkdə bizim institutumuzun da gənc alim və doktorantları üçün bu kursların təşkil olunması təklifi irəli sürülüb. Növbəti görüş zamanı Təhsil İnstitutunda həmin kurslar və məzmunu ilə bağlı geniş auditoriyanı əhatə edəcək seminarın keçirilməsinin planlaşdırılması məsələsindən də danışılıb.

Həmyerlimizlə görüş müzakirə şəraitində davam edib.

# NİZAMİ layihəsi üzrə müzakirələr aparılır

"Azərbaycanda doktorantura təhsilinin təkmilləşdirilməsi və Vahid Avropa Ali Təhsil Məkanının tələblərinə uyğun strukturlaşdırılması" layihəsi üzrə (NİZAMİ layihəsi) növbəti görüş keçirilir.

Naxçıvan Dövlət Universitetində keçirilən görüşün əsas məqsədi layihə üzrə görülmüş işlərin təhlili və yekunlaşdırılmasına dair müzakirələrin aparılmasıdır.

Mayın 20-dək keçiriləcək görüşlərdə Azərbaycanda doktorantura təhsilinin gələcək modelinin yaradılması, bu təhsil üzrə Milli İdarəetmə Portalının hazırlanması, ali təhsil standartlarının müəyyənləşdirilməsi, professional biliklərin inkişafı, beynəlxalq əməkdaşlığın qurulması, şəbəkələşmə və keyfiyyət məsələləri müzakirə olunacaq.

Layihə 2014-cü ildə Azərbaycanın bir sıra ali təhsil müəssisələri, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası, Fransanın Monpelye Universitetinin rəhbərliyi, İsveç, Çexiya, Almaniya və İspaniyanın bir sıra ali təhsil müəssisələrinin əməkdaşlığı ilə Avropa İttifaqının Təhsil, Audiovizual və Mədəniyyət üzrə İcraçı Agentliyinin Erasmus+ proqramı çərçivəsində həyata keçirilir. Layihənin icrasına 2015-ci ildə başlanılıb, 2018-ci ildə isə yekunlaşdırılması nəzərdə tutulub. Layihənin ölkə üzrə koordinatoru Təhsil Nazirliyidir.

Layihənin əsas məqsədi Azərbaycanda doktorantura təhsilinin mövcud vəziyyəti və Avropanın doktorantura təhsili ilə müqayisəli təhlilinin müəyyənləşdirilməsi, Azərbaycanda doktorantura təhsilinin təşkili qaydalarının yenidən hazırlanması, ixtisas təsnifatının Avropada mövcud olan təsnifata uyğunlaşdırılmasıdır. Bu təhsil səviyyəsində keyfiyyətin təminatı və beynəlmiləlləşməyə nail olunması, doktorantura təhsil standartlarının müəyyənləşdirilməsi və ölkə üzrə doktorantura təhsili aparan təhsil müəssisələrini birləşdirən portalın yaradılması da layihənin əsas məqsədlərinə aiddir.



# İnternat məktəbində "Beynəlxalq ailə günü"

Mayın 18-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə 11 nömrəli İnteqrasiya təlimli internat məktəbində "Beynəlxalq ailə günü" ilə bağlı tədbir keçirilib.

Mərasimdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin könüllü tələbələri uşaqlarla birlikdə "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş rəsmlər çəkiblər. 10 nömrəli Sanatoriya tipli, 11 nömrəli İnteqrasiya təlimli və Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1 nömrəli internat məktəblərinin şagird kollektivi həyətyanı sahədə tələbələrlə birgə güllər əkiblər.

Tədbirdə, həmçinin hər üç müəssisə üzrə may ayında anadan olmuş şagirdlərin doğum günləri qeyd olunub.

Daha sonra media nümayəndələri 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi ilə tanış olub. Qonaqlara məlumat verilib ki, məktəb 2016-cı ildə Təhsil Nazirliyi tərəfindən əsaslı təmir olunub. Hazırda internat məktəbində 1108 nəfər şagird təlim-tərbiyə alır. Ümumtəhsil siniflərində 796, xüsusi siniflərdə isə 163 nəfər şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 142 nəfər pedaqoji işçi məşğul olur.

2015-2016-cı tədris ilində internat məktəbini bitirən 39 nəfər məzundan 10 nəfəri sağlamlıq imkanları məhdud şagirddir. Ümumtəhsil siniflərindən məzun olan 29 nəfər şagirddən 9-u ali təhsil müəssisələrinə, 1 nəfəri isə kollecə qəbul olunub.

# ATU MDB Beynəlxalq Universitetlər Şəbəkəsinə qoşulub

Azərbaycan Texnologiya Universiteti (ATU) iki beynəlxalq universitetlər şəbəkəsinə qoşulub. Bunlardan biri Qafqaz Universitetlər Birliyidir. Mərkəzi İstanbul şəhərində yerləşən təşkilat 2009-cu ildə Ardahanda Azərbaycan, Türkiyə və Gürcüstanın 7 universitetinin birgə imzaladığı protokol əsasında yaradılıb. Hazırda 10 ölkədən 112 universitetin daxil olduğu birliyin əsas məqsədi Qafqaz regionundakı universitetlər vasitəsilə üzv ölkələrin mədəni və tarixi dəyərlərinin təbliği, iqtisadi problemlərin həlli istiqamətində birgə elmi araşdırmalar aparmaqdır. ATU tərəfindən üzvlük məqsədilə Qafqaz Universitetlər Birliyinə ünvanlanan rəsmi müraciətə artıq cavab verilib. Birliyin sədri, professor Ramazan Korkmazın imzaladığı üzvlük sənədi ATU-ya təqdim olunub.

ATU bununla yanaşı MDB Ölkələrinin Universitetlər Şəbəkəsinə də üzvlüklə bağlı müraciət edib. Müraciət müsbət qiymətləndirilib və ATU-nun rəhbərliyi müzakirə üçün Moskva şəhərinə dəvət olunub. MDB ölkələrindən 19 universitetin qoşulduğu şəbəkənin Azərbaycandan tək üzvü hələ ki, Bakı Slavyan Universitetidir. ATU ölkəmizi qurumda təmsil edəcək ikinci ali təhsil müəssisəsi olacaq.

ATU-nun başqa bir mühüm yeniliyi elmi nəşrlə bağlıdır. Belə ki, universitetin "Elmi xəbərlər" məcmuəsi Ədliyyə Nazirliyində qeydiyyata alınıb və Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısına salınıb. Jurnal eyni zamanda beynəlxalq elmi nəşrlər sistemində 5 indeksə əlavə edilib.

# Bakı Ali Neft Məktəbi alimlərinin məqaləsi beynəlxalq elmi jurnalda

Bakı Ali Neft Məktəbinin (BANM) prorektoru Oktay Rzayevin və neft-qaz mühəndisliyi kafedrasının müəllimi Rauf Nadirovun həmmüəllif olduqları "Ermənistanın aktiv tektonik zonasında yerləşən Metsamor atom elektrik stansiyası - Qafqazın potensial Fukusimasıdır"adlı məqaləsi "Yer Elmləri və Ətraf Mühitin Mühafizəsi" adlı yüksək reytinqli elmi-resenziyalı jurnalda dərc olunub. ("Journal of Geoscience and Environmental Protection" (2017,cild 5, № 4, s. 46-55)).

Məqalədə Ermənistanın Metsamor atom elektrik stansiyasının (MAES) yerləşdiyi aktiv tektonik zonanın mürəkkəb geoloji quruluşu təsvir olunub. Cənubi Qafqazın bu regionu yüksək vulkanik aktivlik, tektonik gərginlik və yüksək seysmik tektonik blokların toqquşan sərhədləri boyunca aktiv hərəkətliliyi ilə xarakterizə olunur. Bu stansiya, demək olar ki, aktiv tektonik yarığın üzərindədir.

Stansiyada tikinti işlərinə başlananda seysmik risklər olduqca aşağı salınmışdır. Bu, 25 min nəfərdən artıq insanın ölümünə səbəb olmuş Spitak zəlzələsinin dağıntıları faktları ilə təsdiqlənmişdir. Məqalədə MAES yerləşdiyi ərazidə zəlzələlərin intensivliyi, onların fokal mexanizmi və aktiv tektonik yarıqlarda hərəkət risklərini göstərən analizlər əks etdirilmişdir.

Ermənistan, Rusiya və Avropa tədqiqatçılarının MAES ərazisində apardıqları araşdırmalarda seysmik təhlükələr və risklərin öyrənilib və cəmləşdirilməsi əsasında belə nəticəyə gəlmək olur ki, Metsamor AES-ın işini tamamilə dayandırmaq, stansiyanın özünü isə bağlamaq lazımdır.

# "Şəbəkə texnologiyalarının müasir inkişaf tendensiyaları" mövzusunda konfrans

**Nuray ƏSGƏROVA**

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin və "Naxçıvan" Universitetinin riyaziyyat və informatika kafedrasının birgə təşkilatçılığı ilə elmi-praktik konfrans keçirilib. Ali təhsil ocağının tədris korpusunda keçirilən tədbiri giriş sözü ilə universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açıb.

Tədbirdə riyaziyyat və informatika kafedrasının müdiri Məftun Əliyevin "İnternet şəbəkəsinin müasir cəmiyyətdə yaratdığı yeni reallıqlar", həmin kafedranın müəllimi Şamil Hümbətovun "İnformasiya texnologiyalarının telekommunikasiya şəbəkələrinə konvengensiyası", Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Hüseyn Əsgərovun "Peyk rabitəsinin imkanları" və "Naxçıvan" Universitetinin riyaziyyat və informatika müəllimliyi ixtisasının III kurs tələbəsi Turqanə Nuriyevanın "İnternetin günümüzdə fayda və ziyanları" mövzularında çıxışları dinlənilib. Bildirilib ki, müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmiş, İKT dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, elm və təhsili, mədəniyyəti, bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya-kommunikasiya texnologiyalarının yaratdığı üstünlüklərdən lazımi səviyyədə faydalanır və iqtisadi sahədə böyük uğurlara imza atırlar.

Çıxışlarda o da vurğulanıb ki, İKT-nin inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir və bu prosesin zəruriliyi indiki qloballaşma dövründə daha çox hiss olunur. Bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin tərəqqisi üçün geniş imkanlar yaradır. Olkəmizdə də informasiya cəmiyyətinin qurulması və kompüterləşmə sahəsində uğurlu addımlar atılıb. Məhz bu səbəbdən də son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqində dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən biri olub.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.



# Bilik var, bəs bacarıq?

## Gələcəyin müəllimlərinin praktik hazırlığı qənaətbəxş səviyyədə deyil

⇦ Əvvəli səh.1

**Niyazi RƏHİMOV**

Universitetin səlahiyyətli nümayəndələrinin təşkilatçılığı nəticəsində Xətai rayonunda yerləşən 194 nömrəli tam orta məktəbdə həmin tələbələrin "açıq dərs"lərini izlədik.

Nəzərə çatdıraq ki, dərslərdə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun təcrübəli mütəxəssisləri də iştirak edirdi. Dinlənilən dərslər mütəxəssislər tərəfindən müzakirə olunduqdan sonra rəylər bildirildi. Mütəxəssislər tələbələrin nəzəri biliklərini yüksək qiymətləndirsələr də, praktik baxımdan müəllimliyə tam hazır olmadıqlarını diqqətə çatdırdılar. Qeyd etdilər ki, pedaqoji təcrübənin azlığı özünü müxtəlif məqamlarda göstərirdi. Məsələn, sinfin idarə edilməsi, şagirdlərə psixoloji yanaşma, onlarla fəal işin təşkili zəif qurulmuşdu. Tələbələr yalnız fəal şagirdlərlə işləyir, digərləri isə kənarda qalırdı.

Müşahidələrimiz və mütəxəssislərin rəyi göstərdi ki, tələbələr təcrübə baxımından dərs deməyə tam hazır deyillər. Nəzərə alaq ki, bu tələbələr bir daha pedaqoji təcrübədə olmayacaqlar və təxminən, 2-3 aydan sonra müəllimlik ixtisası alacaqlar. Bəs, belə olan halda təcrübəni harda qazanacaqlar? Təbii ki, pedaqoji fəaliyyətə başladıqları məktəbdə. Lakin burada daha bir sual ortaya çıxır. Bəs, onlar təcrübə qazanana qədərki müddətdə şagirdlərə hansı səviyyədə dərs keçəcəklər, həmin şagirdlərin aqibəti necə olacaq?

Müəllim hazırlığı ilə bağlı dünya təcrübəsinə baxdıqda görürük ki, inkişaf etmiş ölkələrdə tələbələr vaxtlarını auditoriyalardan çox məktəblərdə, liseylərdə keçirirlər. Onlar pedaqoji mühitdə formalaşırlar. Hətta bəzi ölkələrdə müəllim peşəsinə yiyələnənlər bir müddət müəllim köməkçisi çalışırlar. Nəticədə bütün bu proseslərdən keçib peşəkar, səriştəli müəllim kimi yetişəndən sonra ilk rəsmi dərsə girirlər.

### Məktəblərdə tələbələrə ögey münasibət

ADPU-nun istehsalat və pedaqoji təcrübə rəhbəri Solmaz Məmmədova qeyd edir ki, universitetdə pedaqoji təcrübəyə xüsusi diqqət yetirilsə də, hələ də müxtəlif problemlər mövcuddur. Belə ki, pedaqoji təcrübəyə ayrılan vaxt azdır: "Pedaqoji kadrın hazırlanması üçün müəyyən edilmiş bir ay vaxt qənaətbəxş deyil. Nəzərə alaq ki, həkimlər müəllimlərdən fərqli olaraq bir il internaturada olur və həmin müddətdə xeyli təcrübə toplayırlar. Düzdür, Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında internatura sisteminin müəllim hazırlığına tətbiq edilməsi nəzərdə tutulub, lakin bu sistemə hələ keçilməyib. Məncə, təcrübələrin 2-ci kursdan başlaması və 3-4-cü kurslarda müddətinin uzadılması məqsədəuyğun olardı. Hazırda universitetin Elmi Şurasında bu məsələ ilə bağlı müzakirələr aparılır və növbəti tədris ilindən təcrübələrin müddətinin xeyli uzadılması nəzərdə tutulur".



Solmaz MƏMMƏDOVA



Sənan ƏLİYEV



Buludxan XƏLİLOV

S.Məmmədovanın fikrincə, problemlərdən biri də orta ümumtəhsil məktəblərində təcrübədə olan tələbələrə lazımi şəraitin yaradılmamasıdır: "Məktəblərdə tələbələrimizə qarşı olan ögey münasibət ümumi işin keyfiyyətini azaldır. Belə ki, tələbələrə maddi-texniki bazadan, müasir təlim texnologiyalarından, İKT avadanlıqlarından istifadə etməyə imkan yaradılmır. Hətta bəzi məktəb rəhbərləri dərslərin müzakirəsi üçün belə yer ayırmırlar. Məcburiyyət qarşısında qalıb, dərsin müzakirəsini məktəb bufetində və yaxud dəhlizlərdə aparmalı oluruq".

Digər bir məsələ isə tələbələrin məktəblərdə təhkim olunduğu ixtisas müəllimlərinin bir çoxunun qeyri-peşəkar olmasıdır. Həmin müəllimlərin özləri belə yeni təlim metodlarından, texnologiyalardan istifadə edə bilmirlər. Belə olduğu təqdirdə tələbələrin də dərsləri keyfiyyətli olmur. S.Məmmədovanın fikrincə, təcrübədə olan tələbələr ən yaxşı, fəal, səriştəli müəllimlərin dərslərində iştirak etməli, onlarda olan yüksək keyfiyyətləri mənimsəməlidirlər. Bu işdə universitetin metodist müəllimlərinin də üzərinə böyük yük düşür.

### Orta məktəblərdə elə müəllimlər var ki...

ADPU-nun tədrisin idarə olunması və tədris texnologiyaları mərkəzinin direktoru Sənan Əliyev bildirir ki, pedaqoji təcrübə mahiyyət etibarı ilə tələbədə bacarıq formalaşdıran bir prosesdir: "Çox təəssüf ki, bu gün bizim ali təhsil sistemimizdə bütün güc, enerji biliklərin öyrənilməsinə sərf olunur, bacarıqları formalaşdırmaq isə tamamilə arxa plana keçir. Düşünürəm ki, ali məktəbi bitirən məzunun əlində iki çanta - biri bilik, digəri isə bacarıq olmalıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ali məktəblərdə tələbələrə nəzəri biliklərlə yanaşı, praktik kompetensiyalar öyrədilir. Yəni, hər ikisinə eyni vaxt sərf olunur. Bu da həmin universiteti bitirən məzunların peşəkar bir mütəxəssis olmasına zəmin yaradır".

S.Əliyev bildirir ki, hazırda universitetdə Qərbi, Şərqi Avropa və Baltikyanı ölkələrin pedaqoji təhsilin təşkili və pedaqoji təcrübə ilə bağlı təcrübələrinin öyrənilməsi məqsədilə xüsusi qrup yaradılıb. Həmin qrup öz işini yekunlaşdırdıqdan sonra sözügedən ölkələrin təcrübəsinin yerli şəraitə uyğunlaşdırılaraq tətbiqi nəzərdə tutulur. Burada pedaqoji təcrübəyə də xüsusi diqqət yetiriləcək: "Hazırda universitetimizin qarşıya qoyduğu məqsədlərdən biri də orta ümumtəhsil müəssisələri ilə əlaqələri genişləndirməkdir. Artıq bu istiqamətdə ciddi addımlar atılır. Belə ki, orta məktəb müəllimləri, şagirdləri üçün qapılarımız artıq açıqdır. Bu əlaqələr bir neçə məsələni də aşkara çıxarır. Məsələn, orta məktəblərdə elə müəllimlər var ki, Pedaqoji Universitetdə o bacarıqda, o səriştədə mütəxəssisə az rast gəlmək olar. Halbuki, bizim mütəxəssislərin həmin müəllimlərdən aşağı səviyyədə olması arzuolunan deyil. Çünki biz pedaqoji kadr hazırlayırıq. Həmin müəllimlər istər yeni təlim metodlarından, istərsə də texnologiyalardan istifadə bacarığına görə bizim müəllimləri arxada qoyur. Belə müəllimlər özlərini daha çox təkmilləşdiriblər. Düşünürəm ki, bizim hazırladığımız kadrlar məktəbə gedəndə orada çalışan müəllim üçün potensial rəqib olmalıdır və onlar hiss etməlidirlər ki, bu gənc müəllim daha yeni bilik və bacarığa sahibdir. Təəssüf ki, bu belə deyil".

S.Əliyev qeyd edir ki, hədəflərdən biri də tələbələrə nəzəri biliklərlə yanaşı, müəllimlik bacarıqları, vərdişləri aşılamaqdır: "Lakin biz bunu təkcə sonuncu kursa saxlamaqla və 8 semestr ərzində cəmi iki dəfə bir ay müddətində təşkil etməklə hədəfə nail ola bilməyəcəyik. Bu nöqteyi-nəzərdən bizim yeni model işləyib hazırlamağımıza ehtiyac var ki, tələbələrimiz 1-ci kursdan başlayaraq birbaşa məktəblə əlaqədə olsun".

### Universitet üçün bir baza məktəbi kifayət etmir

ADPU-nun filologiya fakültəsinin dekanı Buludxan Xəlilov bildirir ki, tədris planına əsasən, pedaqoji təcrübənin keyfiyyətini yüksəltmək üçün tələbələr artıq sonuncu kursda, fevral ayından başlayaraq dövlət imtahanına qədər pedaqoji təcrübədə olacaqlar. Belə olan təqdirdə tələbələr məktəbə sıx bağlanacaq, tədris prosesi ilə daha yaxından tanış ola biləcəklər. Bundan başqa, sinif rəhbərinin, direktor müavinlərinin və müəllimin vəzifəsinin nədən ibarət olduğunu praktiki olaraq görəcəklər: "Etiraf edək ki, son dövrlərə qədər ali məktəblə orta məktəb arasında rabitə və əlaqələr yox idi. Biz orta məktəb üçün kadr hazırlamağımıza baxmayaraq, nəzərə almırdıq ki, orada dərsliyin, resursların və pedaqoji mühitin vəziyyəti necədir".

B.Xəlilov pedaqoji təcrübələrin daha səmərəli təşkilinə mane olan problem kimi istər ali məktəbdə, istərsə də orta məktəblərdəki şəraiti göstərir: "Əgər biz bu gün yeni təlim metodlarının, müasir texnologiyaların tətbiqindən danışırıqsa, tələbə bu kimi resurslarla ya universitetdə, ya da məktəbdə tanış olmalıdır. Əfsuslar olsun ki, universitetin maddi-texniki imkanları buna cavab vermir. Məktəblərdə isə bu resurslardan istifadəyə məhdudiyyət qoyulur".

Digər bir məsələ ali məktəblə orta məktəb dərsliyinin arasında rabitənin olmamasıdır. B.Xəlilovun fikrincə, orta məktəblərin proqramları ilə ali məktəb proqramları arasında bir əlaqə olmalıdır: "Bundan başqa, bildiyiniz kimi, 7 nömrəli məktəb universitetin baza məktəbidir. Lakin böyük bir tələbə ordusu olan Pedaqoji Universitet üçün bir baza məktəbi kifayət etmir. Buna görə baza məktəblərinin artırılmasının tərəfdarıyam. Xarici təcrübədə olduğu kimi universitetin tərkibində bağça və məktəbin olmasını da arzulayıram. Belə olan təqdirdə metodika kafedralarımızın bir qismi həmin məktəblərdə yerləşməli, orada həm tələbələrlə, həm də şagirdlərlə iş aparılmalıdır. Baza məktəbimizin az olması və çatışmazlığı nəticəsində metodist müəllimlərimiz işin içinə girib tədqiqat apara bilmir. Onlar yalnız kabinetlərdə oturub orta məktəb haqqında rəylər söyləyirlər".

B.Xəlilov qeyd edir ki, universitetdə son vaxtlar aparılan işlərin tərkib hissəsi olaraq orta məktəb müəllimləri və şagirdlər üçün "açıq qapı" günləri keçirilib. "Açıq qapı" günlərində fənn müəllimləri fakültəyə dəvət olunub, onlarla orta məktəblərdəki mövcud problemlərlə bağlı söhbət aparılıb. İlkin görüşdən və aparılan müzakirələrdən sonra qərara gəlinib ki, tələbələr pedaqoji təcrübədən əlavə, həmin məktəblərə dərs deməyə göndərilsin: "Bundan başqa, bu müəllimlər universitetdə də tələbələrə seminarlar keçəcək. Sadaladığım tədbirlər pedaqoji təcrübənin inkişafına, səmərəliliyinə təkan verəcək".

# Şagirdlərdə ilkin tədqiqatçılıq vərdişləri



**Gülnarə QULİYEVA,**
*Bakı şəhəri, T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin ibtidai sinif müəllimi*

Ümumtəhsil məktəblərinin İKT ilə təmin olunduğu və texniki vasitələrdən istifadə müəllimin peşəkarlığının əsas göstəricilərindən biri hesab edildiyi bir zamanda müəllim bu bacarıqlara xüsusi əhəmiyyət verməlidir.

Yeni fənn kurikulumları İKT-dən istifadəyə geniş imkanlar yaradır. Ana dili, riyaziyyat, həyat bilgisi, texnologiya, musiqi, hətta fiziki tərbiyə dərslərində də İKT-dən istifadə etmək mümkündür.

Təcrübə göstərir ki, kurikulumlarda əksini tapan nəticələrə İKT-dən istifadə etməklə daha asanlıqla nail olmaq mümkündür. Belə təlim İKT-dən istifadə imkanlarını genişləndirir, şagirdlərin nailiyyət səviyyəsi yüksəlir. Bu da təhsilin inkişafına ciddi şəkildə təsir edir.

Fikrimi IV sinifdə sınaqdan keçirdiyim kiçik bir təcrübə ilə əsaslandırmaq istəyirəm.

Həyat bilgisi dərsində şagirdlərə belə bir sualla müraciət etdim:

- *Uşaqlar, sizi hansı mövzular daha çox maraqlandırır?*

Şagirdlər müxtəlif mövzular söylədilər: “Çörək”, “Vətən”, “Təbiət”, “Dağlar”, “Xəzər”, “Şəhərlər”, “Azərbaycan”, “Vətənpərvərlik”, “Bakı” və s. Mövzular müzakirə olunduqdan sonra şagirdlər “Azərbaycan” mövzusunun üzərində dayandılar. Şagirdləri 3 qrupa bölərək qruplara aşağıdakı kimi tapşırıqlar verdim:

I qrup

Azərbaycanın tarixi haqqında məlumat toplayın.

II qrup

Azərbaycanın təbii sərvətləri haqqında məlumat toplayın.

III qrup

Azərbaycanın iqlimi haqqında məlumat toplayın.

Uşaqlara verilən suallar ətrafında işləyərkən ilk növbədə İKT-dən istifadə bacarıqlarını nümayiş etdirdilər. Onlar nəinki zəruri materialları seçib, toplayır, həm də onun əhəmiyyətini əsaslandırır və onları ardıcıllıqla düzürdülər. İşin belə təşkili həm şagirdləri fəallaşdırır, həm də onların idrakını, təfəkkürünü daha da inkişaf etdirir.

Belə tapşırıqlar eyni zamanda şagirdləri müstəqil axtarışlar aparmağa sövq edir, onlarda ilkin tədqiqatçılıq vərdişləri formalaşdırır.

Seçilmiş mövzu həm də şagirdlərə ölkəmiz haqqında daha çox məlumat əldə etməyə, onun tarixi, təbiəti, yeraltı və yerüstü sərvətləri ilə daha dərindən tanış olmasına imkan yaradır. Bu, həm də onlarda vətənpərvərlik hissini gücləndirir, şagirdlər ölkəmizi daha yaxından tanımağa başlayırlar. Yaşadığı ölkəni, vətəni tanımaq isə vətənpərvərlik hissinin əsasını təşkil edir. Ona görə də dərslərimdə bu istiqamətdə işə xüsusi diqqət yetirirəm.

# 9 yaşlı Aysu məktəbə necə alışdı?

## Sağlamlıq imkanları məhdud uşaqlarla təlimin səmərəli yolları

**Hicran RƏSULOVA,**
*Ağdaş şəhər 2 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

Hər bir gənc böyük arzularla yaşayır; xoşbəxt ailəyə, sağlam övlada sahib olmağın xəyallarını qurur, gələcək planlarını hazırlayır. Amma, bəzən, həyat insana gözləmədiyi problemli günlər qismət edir. Dünyaya sağlam gəlib sonradan məhdudiyyətlər qazanan, bəzənsə anadan məhdudiyyətli doğulan körpələrlə sınağa çəkilir insan. Bu sınaqlara ya səbr edilib dözülür, ya da arzulanmayan uşaqdırsa məsuliyyətdən qaçılıb küçələrə atılır, hər yükü dövlətin, həkimlərin, müəllimlərin çiyinlərinə qoymağa çalışılır. Sağ olsun dövlətimiz, dövlət başçımız, xeyirxah insanlar ki, bəzi düşüncəsiz insanların səhvləri üzündən atılan belə köməksiz körpələrə sahib çıxır. O insanlar ki, valideyn hissindən məhrum olur, ömür boyu vicdan əzabı yaşayır, təbii ki, vicdan hissinin olduğunu bilirsə...

### Gəlin lap əvvəldən başlayaq

Ailədə tam sağlam, fiziki və əqli cəhətdən normal uşaq doğulub (oğlan, yaxud qız). Elə ilk problem də burdan başlanır. Ailədə qız arzulanıb oğlan doğulubsa, ya da oğlan arzulanıb qız doğulubsa, ona münasibət qüsursuz, sağlam doğulmasına görə deyil, cinsinə görə başlanır. Arzulanan övladdırsa ilk günlərdən diqqət, qayğı, sevgi əsirgənmir, hələ uşaq tam sağlamdırsa hər şey ən yüksək səviyyədə düşünülür. Hamı bu günlə yaşayır. Lakin heç kim bilmir ki, sabah onu hansı sürprizlər, çətinliklər, qayğılar gözləyir. Dərd gəlirəm demir. Problemlər yarananda isə sevgi də, qayğı da azalır çox hallarda...

Mən ibtidai siniflərdə dərs dediyim üçün bu sahədə qarşılaşdığım problemlərdən və onların həlli yollarından danışmaq istərdim. Daha konkret desəm, təlimə cəlb etdiyim əqli məhdudiyyətli bir qızın cəmiyyətə necə uyğunlaşmasından...

Onunla ilk dəfə məktəbdə rastlaşdıq. Hər il olduğu kimi, yenə yay tətili idi və məktəbin yeni tədris ilinə başlanması ilə əlaqədar hazırlıq işləri ilə məşğul idim. Dəhlizdə 9-10 yaşlarında gözəl bir qız ürkək-ürkək ətrafa boylanır, elə bil nədənsə qorxur, kimi isə axtarırdı. Halbuki atası yanında idi və onun əlindən bərk-bərk tutmuşdu.Yanından keçəndə mənə baxıb gülümsədi, atasının əlini buraxıb mənə yaxınlaşdı, əlimi tutdu. Adını soruşdum. Aysu - “Bəs sənin adın nədi?”, -deyə mənimlə dialoqa başladı. Bir az söhbət etdik. Beləcə tanış olduq. Amma mən onda heç bir qüsur görmürdüm.

Ayrılıb sənədləri götürüb sinif otağına gəldim. 5-10 dəqiqə keçməmiş direktor məni çağırtdırdı. Gəldim. Aysu, atası və direktor otaqda söhbət edirdi. Direktor “Bu Aysudur. Bu gündən bu gözəl qızın müəllimi sizsiniz”, - deyəndə Aysu sevincək yanıma gəldi, yenə əlimdən tutub gülümsəyərək - “gedək, müəllim”, -dedi. Otağa tam sükut çökdü, atanın gözləri dolmuşdu. Yenə heç nə anlamadım. Direktor bildirdi ki, Aysu ilə sinif otağına gedim, bir az söhbət edim, sonra söhbətin nəticəsini ona bildirim.

Aysu ilə mənim dərs otağıma gəldik. Otağa girən kimi hər tərəfi nəzərdən keçirdi. Gözəl sözlərlə xoşuna gəldiyini dedi, hətta oturacağı partanı da göstərdi. Mən ona mehriban cavab verdikcə, xoş davrandıqca elə çox sevinirdi ki...

Bir az söhbət etdik, atası Aysunu apardı. Gedəndə dönüb “Yenə gələcəm”, -dedi və mənim üzümdən öpdü. Yenə heç nə hiss etmirdim.

Direktor Aysunun sənədlərini mənə təqdim edəndə onun haqqında bəzi məlumatlar da verdi. Məlum oldu ki, qızın sağlamlığında ciddi problemlər var. Aysu tam sağlam doğulub. 2-3 yaşlarında keçirdiyi xəstəliklə bağlı müalicənin düzgün aparılmamasının nəticəsində epilepsiyaya tutulub, uzunmüddətli müalicənin sonunda əsəb pozğunluğu yaranıb, çox səbrsiz olub, istədiyini etməyə qoymayanda və ya verməyəndə əşyaları vurub dağıdır, yanındakılara ziyan vurur, bir yerdə qərar tuta bilmir. Evdə də ana səbrsiz davranıb onu sakitləşdirmək üçün fiziki təzyiq göstərir. Ona görə də məktəb yaşı çatanda başqa uşaqlar kimi birgə yox, ayrı, fərdi təlim keçməyə cəlb edilib. Əvvəlki müəllimi Aysu ilə düzgün ünsiyyət qura bilməmiş, ona görə də o müəllimi istəmədiyi üçün həm məktəbi, həm də müəllimini dəyişmək qərarına gələn valideynlər bizim məktəbi seçmişlər. Dəhlizdəki qısa söhbətdən sonra isə Aysu məhz mənim onun müəllimi olmamı istəmiş. Bir məsəldə deyildiyi kimi, uşaq məhəbbət görən tərəfə gedər.

### Çətin və məsuliyyətli tapşırıq

Direktoru dinlədikcə gözlərim doldu. Bu, çox çətin, çox ağır, çox məsuliyyətli bir tapşırıq idi. Digər tərəfdən də sevinirdim ki, həm direktor, həm də Aysu mənə güvənmişlər. Özümə inamım artmışdı, lakin məni irəlidə nələrin gözlədiyini bilmirdim. “Allah yardımçımız olsun”, -deyib razılaşdım.

Çətin yükün altına girmişdim. 27 il ancaq sağlam şagirdlərlə işləmişdim. İndi nəyi necə edəcəyimi düşünürdüm. Təhsil aldığım illərdə oxuduğum psixologiya kitablarındakı mövzuları, cəmiyyətdə rast gəldiyimiz sağlamlığında qüsur olan insanlarla ünsiyyəti xatırladım və özümə təsəlli verdim: yəqin ki bacaracam.

Səhəri - ilk təlimə başladığım günü isə heç vaxt xatirəmdən silə bilməyəcəyimə əminəm. Bu böyük dərd idi valideynlər üçün..

O günü keçirdiyim həyəcan yaddaşımda silinməz iz buraxıb: Aysunun söhbət etdiyimiz vaxt birdən qışqırması, sakitləşdirmək istədikdə qəfil yerə yıxılıb çapalaması, mənə fiziki zərbələr vurması. “İlahi, bu uşağa kömək ol!”, -deyib atasına zəng vurdum. Ata gəlincə beləcə qışqırmalar, çapalamalar davam etdi, göstərdiyim cəhdlər nəticəsiz qaldı. Ata gəldi, qızını o vəziyyətdə görüb gözləri dolmuş halda Aysunu qucaqladı. “Belə hallar tez-tez olur, qorxmayın”, -deyib həm qızını sakitləşdirir, həm də mənə sanki təskinlik verirdi.

Bütün bunları görəndən sonra istədim imtina edim, amma sonra fikrimdən daşındım. O gözəl üzün, məsum baxışın mənə ehtiyacı olduğunu hiss etdim. “Mən bacaracam!”, -deyib, ilk öncə Aysunun ürəyinə necə yol tapacağımı, özümü necə sevdirəcəyimi düşündüm. Əvvəl asan gəldi. Sağlam uşaqlarla keçdiyim metodları bu uşağa tətbiq edə bilməzdim. Odur ki, işi axarına buraxdım. Aysunun nələrdən xoşlana biləcəyini düşündüm və işə başladım.

Tətil olduğu üçün hər gün məktəbə gəlməsini təklif etdim. Düşünürdüm ki, əgər məktəbə öyrəşsə, məni sevsə, onda təlimə maraq və həvəs yaranacaq, sadəcə böyük səbr və təmkinlə davranmalıyam.

### İşin mərhələləri

*I mərhələ.* Birinci gün otaqdakı şəkillərə baxdı, suallar verdi, bilmədiyi əşyaların adlarını soruşdu. Sakit və səbrlə dinləyir, izahlar verirdim. Stolun üstündə aldığım müxtəlif şəkilli stikerləri gördü, istədi, dedim ki, bu şəkilləri gözəl yazı yazanda uşaqların dəftərinə yapışdıracam. Bunu eşitcək dəftərini açdı, tapşırıq verməyimi istədi. Qırmızı qələmlə bir neçə söz başladım və davam etməsini tapşırdım. Razılaşdı. Bir əlində stikeri tutub, digər əli ilə yazmağa başladı. İlk uğur. Artıq yazmağa həvəs və maraq yaranmışdı.

2-3 gün bu formada davam etdik. Hər gün bir az da davam etmək istəyirdi. Yazdıqca söhbət edir, öz ailəsindən danışırdı. Səbrlə dinləyir, bəzi hallarda etiraz edirdim. Amma sevinirdim ki, mənim etirazıma aqressiv yox, sakit cavab verir.

*II mərhələ.* Bu dəfə müxtəlif şəkilli kitablar hazırladım. Aysu kitabdakı şəkillərə baxdı, şəklin yanındakı, altındakı mətndə nələr yazıldığını məndən soruşdu, lakin başa saldım ki, bunun üçün oxumağı öyrənmək lazımdır. Hərf-hərf oxumağa cəhd etdi. Marağını görüb ona dərs kitabı verdim. Kitabı çox sevinclə götürdü. Bu ikinci uğur idi -oxumaq həvəsi yaranmışdı.

*III mərhələ.* Məktəbli uşaqların çəkdiyi şəkilləri divardan asmışdım. Şəkilləri görüb kimin çəkdiyi ilə maraqlandı. Uşaqların çəkdiyini eşidəndə isə məndən karandaş və vərəq istədi. Nə çəkmək istədiyini soruşdum. Cavab vermədi, gül və ağac şəkli çəkdi. Bu artıq cavab idi; həyat və gözəllik rəmzi. Deməli, irəliləyiş var.

Hər keçən gün təlim vaxtı bir az da uzanır, əlavə qalmaq istəyirdi.



### “Şərtsiz sevgi bizim uşağa verə biləcəyimiz ən yaxşı hissdir”

“Uşağı əməlinə görə sevərlər” fikrindən uzaq olmaq lazımdır. Uşağın yaddaşında, “uşağı yaxşı əmələ, nümunəvi davranışa və əla oxumağa görə sevərlər” fikrinin həkk olunmasına imkan verməmək lazımdır. Çünki şərtsiz sevgi bizim uşağa verə biləcəyimiz ən yaxşı hissdir.

Çox vaxt valideynlər uşaqlarına olan sevgini gizli saxlayır, onlara az vaxt ayırırlar, lakin daxilən çox sevir, sevgilərini açıq desələr uşağın arxayınlaşacağından ehtiyat edirlər. Bəzən də elə bilirlər ki, belə davransalar uşaqları daha da yaxşı öyrənməyə can atacaq. Halbuki, gözlədiklərinin tam əksini görürlər.

Hər bir valideyn elə ilk gündən öz sevgisini açıqca nümayiş etdirməli, uşağı nə elədiyinə görə yox, varlığına görə sevməli, onlara çox vaxt ayırmalı, suallarına tam, ətraflı, dürüst cavab verməlidirlər. Bu, məktəbyaşlı uşaqların inkişafının vacib addımıdır.

Uşağın qəzəbini qəbul etmək və onun narazı qalmaq hüququnun olduğunu, buna görə ondan üz çevirməyəcəyinizi bilməsi vacibdir. Qəzəb hissini hərəkətlərlə yox, sözlərlə ifadə etməsinə kömək edilməlidir. Qəzəbə qəzəblə cavab vermək uşaqda aqressivlik yaradır və ətrafa ziyanlıq dəyir, nəticədə uşağın valideyndən uzaqlaşmasına səbəb olur.

Məktəbə gələn uşaq çox şeydən qorxur, çünki hələ məktəbə gəlməmiş onu qorxudan sözlər eşidir. Məsələn, dərs oxumasan müəllim səni cəzalandıracaq və s. kimi ifadələrlə isə sanki yaxşı olmalarına kömək edirlər. Ona görə də uşaq sinif yoldaşlarının, dostlarının onunla ünsiyyət etməmələrindən, başqalarının onun sözünə, hərəkətinə gülmələrindən, müəllimin, onun verdiyi səhv cavaba görə danlayacağından qorxub çəkinir. Onun bu qorxuya qalib gəlməsinə kömək etmək üçün uşağın səhv etmək qorxusuna diqqətlə yanaşmaq lazımdır.

İstər kiçik, istər böyük, istər sağlam, istər xəstə, istər qoca, istərsə cavan, hər kim olursa-olsun, xoş sözə, münasibətə, ünsiyyətə, diqqətə, qayğıya, nəvazişə ehtiyac duyur. Bunlar isə ən çox kiçikyaşlı, xəstə uşaqlara lazımdır. Çünki onlar köməksiz, məsum varlıqlardır.

Aysu ilə də bu fikirlə ünsiyyət qururdum. İlk günlər çətinliklər olsa da sonradan onunla təkcə müəllim-şagird yox, həm də yaxın dost olduq.

Artıq məktəbin başlanmasına bir neçə gün qalmışdı. Baxmayaraq ki, Aysu III sinifdə oxumalı idi, amma o indiyədək heç “Bilik günü” bayramında iştirak etməmişdi. İlk olaraq bu sevinci onun da yaşamasını istədim.Valideynlərindən Aysunu məktəbə gətirmələrini xahiş etdim. Həmin gün gəlmədilər, məlum oldu ki, yenə epilepsiyası tutubmuş. Lakin sonrakı günlər onun üçün ayrılmış saatlarda təlimə başladıq.

### İlk dərs

2 ay keçdi. Bir gün Aysuya məktəbə gəlmək, uşaqlarla görüşüb-görüşməmək istədiyini sual etdim. Düzdür, bu hərəkətim çox riskli idi. Amma hər şeyi gözə alıb təklifimin cavabını gözlədim. Heç nə demədi, ancaq məsum baxışlarla gülümsədi. Bəlkə qorxurdu, bəlkə sevinirdi, bəlkə də məndən belə sual gözləmirdi. Ürəyimdə doğru addım atdığımı hiss etdim. Səbirsizliklə səhərin açılmasını gözlədim.Və, nəhayət, o an.

Səhər dərsdə idim, qapı döyüldü. Gələn Aysu idi. Anası ilə məktəbə gəlmişdi. İçəri keçib mənə salam verdi. Uşaqlar ayağa qalxdı və salam verdilər. Aysunun o andakı sevincini göstərmək olsaydı...

Anası dedi ki, Aysu səhərəcən məktəbə gələcəyini gözləyib. Sinfə baxdı, ön sıralarda boş yer görməyib keçib sonuncu partada əyləşdi. Qəribə idi ki, hər gün 1-ci partada əyləşən Aysu heç bir təzyiq, təsir göstərmədən arxada əyləşdi. Məktəbli forması geyinmiş, ağ bantlı, sinələrində üçrəngli bayraq nişanı taxmış uşaqlara sanki həsədlə baxır, susurdu.

Dərsə davam etdim. Yeni dərsi izah etməyə başlamışdım ki, səsimin ucadan gəlməsi Aysunu narahat etdi deyəsən, mənə aqressiv halda “Qışqırma, səsin başıma düşür, gəl mənə dərs öyrət”, -dedi. Donub qaldım. Uşaqlar dönüb ona baxanda o da heç nə olmamış kimi onların üzünə baxıb gülümsəyirdi (uşaqlar onun xəstə olduğunu bilmirdi, mən sonralar hər şeyi uşaqlara danışdım).

Ana pərt olmuşdu. Acı mənzərə ona pis təsir etmişdi. Mən dərsi saxlayıb Aysunun yanına gəldim, ipək kimi saçlarına sığal çəkib bir neçə söz yazıb tamamlamasını söylədim və dərsə davam etdim. Lakin bu dəfə səs tonu onu narahat etmirdi. Bu mənzərədə həm sevinc, həm də acı həqiqət vardı. Sevinc tək o idi ki, artıq təlimə, məktəbə maraq, həvəs yaranıb. Acı o idi ki, xəstəliyi ilə əlaqədar fərdi məşğələ keçildiyindən, cəmiyyətdən uzaqda qalmış, yaşıdları ilə ünsiyyət etməmiş, tək qalmış, ancaq sakit olmasına çalışılmışdı.

Mən Aysuya xoş davranıb tapşırıq verəndə o sakitləşib yazılarını yazmağa başlayırdı. Sonrakı dərsdə isə o artıq uşaqlara baxır, onların hərəkətlərini izləyir və onlar kimi davranırdı, hətta bəzi uşaqlarla ünsiyyət də qurur, bəzən də bütün diqqəti öz üzərinə çəkmək üçün icazəsiz müraciətlər edirdi.

Bir ay da keçdi. Aysu yenə anasından onu məktəbə aparmasını istəyib. Bu dəfə tamam fərqli halda. Bir möcüzə kimi.

Aysu atasından ona məktəbli forması, bant, nişan, çanta, məktəbli kitabçası və başqa dərs ləvazimatları almasını istəyib. Valideynlər də böyük sevinc hissi ilə hər şey alıblar.

### Nəticə

Düşünə bilirsinizmi, bu, əqli cəhətdən qüsurlu uşağın valideynləri üçün nə böyük xoşbəxtlikdir?

Səhəri qapı açılanda qarşımda sanki heç bir xəstəliyi olmayan bir məktəbli qız dayanmışdı. Məktəbli paltarı ona çox yaraşırdı, ağ köynək, qoşa ağ bantlar gözəl üzünə işıq salırdı sanki. Sevincdən gözlərinin içi parıldayırdı. Uşaqlar onu görən kimi - “Aysu, xoş gəldin!” - dedilər. Hər kəs öz yanında ona yer göstərdi. Elə sevinirdi ki... Ana göz yaşlarını gizlətməyə çalışırdı, bu sevinc göz yaşları idi. Mən də kövrəldim. Bu sevincdə mənim də payım vardı çünki..

İndi Aysu hər gün məktəbə gəlmək, oxumaq, yazmaq istəyir. Davranışı tamam dəyişib. Xoş rəftar, anlayış göstərmək sanki onun sağalmasına böyük təsir edib.

El arasında belə bir söz də vardır ki, həkimin ən effektli müalicəsi onun xoş sözü, mehriban münasibəti və gülərüz simasından çox asılıdır.

Müəllim də təlimdə uğur qazanmaq üçün davranış tərzinə diqqət etməli, xəstə, sağlam, fərq etməz, hər şagirdə doğma övladı kimi yanaşmalıdır.

# Pedaqoji təhsilin hədəfləri



**Vidadi BƏŞİROV,**
*ADU–nun pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*

Müasir pedaqoji təhsilin yeni mündəricədə, yeni məzmun ideyaları ilə təkmilləşdirilməsi ali məktəb qarşısında dayanan ən ümdə vəzifələrdən biridir. Hazırkı şəraitdə təhsilin yeni, qabaqcıl texnologiyalara istinadən qurulmasını zəruri edən amilləri ali və orta ixtisas təhsili müəssisələrində nəzərə almaq çevik və işgüzar fəaliyyətin əsasını qoyur. Bu cəhətdən pedaqoji-peşə təhsili verən tədris-tərbiyə ocaqlarının strateji məqsədlərinin müəyyənləşdirilməsi, təlim keyfiyyətinin yüksəldilməsi pedaqoji fəaliyyətin rəhnidir. Elmi-pedaqoji ədəbiyyatda pedaqoji təhsil məfhumuna belə bir münasibət bildirilir: “pedaqoji-təhsil - tədris müəssisəsində pedaqoji fəaliyyəti tələbələrin (gələcək müəllimlərin) uğurla həyata keçirəcəklərinə imkan verən və məqsədyönlü, planlı və mütəşəkkil surətdə onlara aşılanan milli və ümumbəşəri dəyərlərin məcmusudur”.

Ali və orta ixtisas təhsili sahəsində gələcək fənn müəllimlərinin ixtisas hazırlığını təkmilləşdirmək, yaradıcılıq qabiliyyətini yüksəltmək, peşə təhsili və sənəti üzrə zəruri vərdişləri qazanması imkanlarını genişləndirmək işi bu günün tələbəsi, sabahın müəllimi olacaq kadrların hazırlıq fəaliyyətindən də çox asılıdır.

Bu gün pedaqoji təhsil alanların ali məktəb həyatında qazandığı nəzəri və praktik biliklər məcmuyu həm tədris-auditoriya məşğələləri, həm də pedaqoji təcrübə dövrünü əhatə edən sınaq-yoxlama mərhələlərini özündə ehtiva edir. Bu məqsədlə ilkin olaraq pedaqoji təhsilin hədəflərini müəyyənləşdirərkən bu yönümlü sahələr üzrə formalaşan tələbələrin novator ideyalarla, pedaqoji yeniliklərlə tanış edilməsi ən önəmli vəzifə kimi qarşıda dayanır. Mövcud təhsilalma prosesində bu qəbildən olan, yaradıcı düşünən, mühakiməli, demokratik dünyagörüşlü şəxsiyyətlər formalaşdırmaq pedaqoji təhsilin əsas məğzini təşkil edir. Hazırkı şəraitdə pedaqoji təhsil istiqaməti ilə püxtələşən hər bir tələbə birmənalı olaraq reproduktiv təlimdən fəaliyyətə əsaslanan təlimə keçid prosesini öz əməli fəaliyyətində tətbiq etməyi bacarmalıdır. Onlar müasir təlim üsullarından xəbərdar olmalı, yeni məzmun dəyərlərinə xidmət edən bacarıqlara yiyələnməlidirlər. Ali və orta ixtisas məktəblər şəbəkəsinin bütün sferalarında pedaqoji təhsil istiqamətində iş aparmaq, maarifləndirici zəmində tövsiyələr vermək də günün vacib tələbidir.

Xüsusən, pedaqoji təmayüllü ali tədris müəssisələrinin məktəblərlə əlaqəsi genişləndirilməlidir. Ali təhsil müəssisələri ilə orta məktəblərin birgə layihələr həyata keçirməsi, tələbələrin orta məktəblərə cəlb olunması universitet - məktəb əlaqələrində tədris-pedaqoji fəaliyyət istiqamətləri qarşılıqlı ünsiyyət zəminində qurulmasını da zəruri edir. Bu zaman tələbələrin yeni pedaqoji təfəkkür imkanlarından bərabər səviyyədə istifadə etməsini reallaşdıran informasiya-kommunikasiya texnologiyalarının təlim-tərbiyə, tədris prosesinə tətbiqi məsələlərindən hali olmasından da çox mətləblər asılıdır. Ali pedaqoji təhsil ocaqları ilə orta məktəblər arasında əməkdaşlıq əlaqələrinin intensiv inkişaf etdirilməsi, bu işin metodika və metodologiyasının təkmilləşdirilməsi, bütövlükdə, təhsilin, xüsusən, pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsinə rəvac verir.

Pedaqoji təhsilin aktual məsələlərindən biri də tələbələrin yeni paradiqmalı təhsil dəyərlərinə bələdlilik səviyyəsidir. Orta məktəblərdə tətbiq olunan beyin həmləsi, morfoloji təhlil, lokal obyekt üsulu, qrup məşğələləri, informasiyanın sıxlaşdırılması, öyrənməyi öyrənmək tərzinin təşkili və s. haqqında tələbələrin zəngin pedaqoji düşüncəyə malik olması, güman edirik ki, onların uğurlu fəaliyyətinin rəhni olub, gələcək ustad müəllim nüfuzuna xeyli üstünlük gətirər.

Pedaqoji təhsilin əsas mahiyyətini dərk etməyin metodoloji sistemini, qanun və qanunauyğunluqlarını bilməyin də bu istiqamətlənmə üzrə maarifləndirmə işində mühüm əhəmiyyət kəsb etdiyini unutmaq olmaz. Yəni, tələbə pedaqoji proses təcrübəsində nəzəri hazırlıq məsələlərinin qoyuluşunu həm fəlsəfi, həm də pedaqoji aspektdən dəyərləndirməyi bacarmalıdır. Bu barədə pedaqoji elmlər doktoru, professor Akif Abbasov haqlı olaraq göstərir ki, “… nəzəriyyə idrak obyektinin mahiyyətini, məqsəd və vəzifələrini, daxili, zəruri əlaqələrini, qanun və qanunauyğunluqlarını ehtiva edən anlayışlar və ideyalar sistemidir. Pedaqoji mənada isə nəzəriyyə pedaqoji gerçəkliyə aid olan hadisələri təsvir və izah edən pedaqogikanın qanunauyğunluqlarını vahid məcraya gətirən biliklər sistemidir”.

Məhz pedaqoji təmayüllü ali və orta ixtisas təhsili müəssisələrinin orta məktəb həyatı ilə inteqrasiyasını gücləndirmək baxımından müasir pedaqoji təhsil paradiqmalarını (nümunələrini) nəzərə almağın üstün cəhətlərindən biri də tələbələrin ustad müəllim statusuna sövq olunması problematikası ilə bağlıdır.

Universitet və orta məktəb əlaqələrinin ən bariz nümunəsi olaraq alim-tədqiqatçıların məktəbə üz tutması və eləcə də orta məktəb müəllimlərinin tədqiqatçı laboratoriyasına təşrif gətirməsi ümumxalq və ümumdövlət səviyyəsindən dəyərləndirilən bir prosesdir. Bu işin sosial-mədəni əhəmiyyətliliyi həm də pedaqoji ictimaiyyət üçün çox böyükdür.

Ali və orta məktəb həyatında cərəyan edən prosesdə əməkdaşlıq pedaqogikasının təsir imkanlarından hər iki cəbhə qoşa qanad kimi maarifləndirici istiqamət göstərməlidir. Bu yönümdən müasir pedaqoji ustalıq sorağında olan şəxs pedaqoji təhsilin problemlərində təzahür edən çatışmazlıqları, iradlı tərəfləri də görməli, onun islahına çalışmağı özü üçün vətəndaşlıq borcu bilməlidir. Pedaqoji təhsilin həyat və cəmiyyət prinsiplərinə uyğun reallaşdırılması imkanlarını gələcək fəaliyyətlərində fəal vətəndaşlıq şüuru ilə əldə etməyin xarakter xüsusiyyətlərini onlara necə, hansı yollarla aşılamağın metodologiyasını professsor Nurəddin Kazımov öz tədqiqatlarında belə əsaslandırmışdır: “Təhsilin strateji məqsədi barədə deyilənlərə yaradıcı münasibət göstərmək lazımdır ki, tələbədə inam yaransın: yəqin etsin ki, təhsilin strateji məqsədinə dair ideya və onun təklif edilən məzmunda ifadəsi göydəndüşmə deyil, bir-birini tamamlayan iki ciddi amil onu zərurətə çevirmişdir. Bunun biri ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideologiyasıdır; digəri isə Azərbaycan Respublikasının keçmişi, bu günü və gələcəyi barədə bizim hər birimizin düşüncələrimizdir”. Həmin keyfiyyətləri özündə formalaşdıran tələbənin sahib olacağı bacarıqlar pedaqoji təhsilin inkişaf dinamikasını, sənət və ixtisas keyfiyyətini yüksəltməyə yardım edəcək zəmində təkmilləşdirməyi də zəruri edir.

Bu məqsədlə ali və orta ixtisas təhsili verən pedaqoji yönümlü tədris-tərbiyə şəbəkələrində tələbədə formalaşan keyfiyyətlər ənənə və müasirlik mahiyyətində, varislik prinsipi əsasında dəyərləndirilməlidir.

Ali məktəb tələbələrinin gələcək peşə fəaliyyətində “tədris etdiyi fənlərə dair yenilikləri öyrənməyə can atması; öz peşəsinə, iş üslubuna yaradıcı, tənqidi münasibət göstərməyə meyilli olması; tədrisin keyfiyyətini yüksəltməyə yardım edəcək əyani vasitələr düzəltməyə çalışması; sinifdə azacıq olsa narazılıqları vaxtında duymaq və aradan qaldırmaq üçün düzgün tədbirlər görməsi; uşaqları kiçicik də olsa nailiyyətlərinə görə xoş sözlərlə həvəsləndirməsi; sinif kollektivinin saat kimi ritmik işləməsinə rəhbərliyi yüksək səviyyədə saxlamağı bacarması; uşaqları dərsdənkənar və məktəbdənkənar dərnəklərdə iştirak etməyə həvəsləndirməsi; uşaqlarda təlimə, yoldaşlara münasibətdə məsuliyyət hissi oyatması” kimi dəruni pedaqoji hazırlıq taktının canlandırılması birmənalı olaraq ali məktəb və orta məktəb arasında monolit birliyin hərtərəfli vəhdətini də təmin edir.

Bu gün pedaqoji təhsil müəssisələrində formalaşan tələbələrin pedaqoji fəaliyyət dinamikası sevib-seçdiyi müəllim statusu ilə, bu peşəyə həssas münasibət tərzi ilə bağlıdır.

Universitet və məktəb vəhdətinə aparan yolda demokratik mühit, işlək psixologiya hökm sürməlidir. Pedaqoji təhsil sahəsində qazanılan nailiyyətlər orta məktəb həyatında özünü doğrultmalıdır.

Cəmiyyətin yeniləşməsində, şəxsiyyətin inkişafında ali məktəbin müstəsna rolu var. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında, istehsalatın, elmin, mədəniyyətin, sosial həyatın irəliləməsində bu tədris şəbəkələri (universitetlər, institutlar, akademiyalar, konservatoriyalar) geniş imkanlara malikdir.

Xüsusən, pedaqoji təhsilə meyil, maraq orta məktəbdən, ümumi təhsildən başlamalıdır.

Təhsil pillələri sırasında orta pedaqoji və ali pedaqoji ixtisas hazırlığı verən tədris-tərbiyə ocaqları ilə təkmil ümumi təhsil verən müəssisələr arasında eyni profil üzrə yaxınlaşma təcrübəsi hüquqi-demokratik prinsiplər əsasında tənzimlənməlidir. Aparılan müşahidələr onu deməyə əsas verir ki, bu gün orta məktəbin qarşısında duran məqsəd heç də ali məktəb üçün nəzərdə tutulan “nə qədər məzun tələbə statusu” qazandı qənaəti ilə deyil, “cəmiyyət üçün, həyat üçün nə səviyyədə “yaxşı insan”, ləyaqətli vətəndaş hazırlığından xəbər verməlidir.

Açığını deyək ki, universitetlərlə orta məktəblərin qarşılıqlı əlaqəsini reallaşdırmağın mövcud nəticələri bir o qədər də ürəkaçan deyil. Bəzi hallarda məktəbə üz tutan alim-tədqiqatçının, yaxud ali pedaqoji tədris müəssisəsinə metodik məsləhətə, məşvərətə gələn müəllimin heç bir zəruri səbəb olmadan “canlı senzuradan” keçirilməsi bu zəmindən olan əməkdaşlığa ciddi xələl gətirir.

Buradan belə bir nəticə çıxarmaq düzgün olmaz ki, guya pedaqoji təhsil prosesində universitetlərdə orta məktəb vəhdətinin təkcə nəzəri parametrləri daha çox diqqət çəkməlidir. Bu işdə təcrübə, qarşılıqlı əməkdaşlıq motivi də əsas amil kimi səciyyələndirilməlidir. Fənn müəllimi kimi fəaliyyətə hazırlanan tələbə pedaqoji proses işində özünəinam qüvvəsinin müstəsna əhəmiyyətə malik güclü bir həmlə, təkanverici qüvvə olduğunu da anlamalı, tələbəlik illərində öz iradi-ənənəvi keyfiyyətlərini də konkret bacarıqlar əsasında təkmilləşdirməyə qadir olmalıdır. Onlar ali məktəb mühitində topladıqları təcrübə - istehsalat vərdişlərinə uyğun peşə-sənət vərdişlərini inkişaf etdirməli və gələcəkdə fənn müəllimi kimi işləyərkən şagirdlərində də bu iradi səriştəliliyin cazibəsini yaradan fütühatla dərk edib öz işində nəzərə almalıdır. Bunu isə bizdən real vəziyyət, həyatın özü tələb edir.

Ali məktəblərlə orta məktəb əlaqəliliyinin gücləndirilməsi bu gün pedaqoji təhsil fəaliyyətində ən aktual problemlərdən biridir. Burada ailə, məktəb, cəmiyyət birliyi ilə yanaşı pedaqoji jurnalistikanın da maarifləndirici səy və qayğısı olmalı, pedaqoji təhsilə ziyan gətirən “təfəkkür iflici”nə yol açan repetitorluq kimi ənənələr islah olunmalıdır.

Pedaqoji təhsil - ümumxalq və ümumdövlət səviyyəli bir işdir. Onun milli və ümumbəşəri siqlətini, mənəvi gücünü hər zaman duyub, qiymətləndirməliyik.

# “Mütaliə - gələcəyə aparan yol”



**Rəşad ZİYADOV**

Mayın 13-də Bakı şəhər R.Pirnəzərov adına 299 nömrəli məktəb-liseyin təşkilatçılığı ilə “Mütaliə - gələcəyə aparan yol” mövzusunda şagird konfransı keçirilib. Əvvəlcə qonaqlar məktəbin həyətində təşkil edilmiş gənc rəssamların mütaliə etdikləri əsərlər əsasında çəkdikləri şəkillərdən ibarət sərgisi, foyedə isə “Mən oxudum, sən də oxu” devizi ilə fəaliyyət göstərən açıq kitabxananın işi ilə tanış olublar. Kitabxananın qarşısında şagirdlərin nümayiş etdirdikləri fləşmob müasirlik və milliliyin sintezi ilə diqqət çəkib.

Məktəb-liseyin akt zalında təşkil olunmuş tədbir dahi bəstəkar Üzeyir Hacıbəylinin “Koroğlu” operasının uvertürasının sədaları altında əsgər paltarı geyinmiş şagirdlərin səhnədə yer alması ilə başlayıb. Sonra şagirdlərin ifasında Dövlət himni ifa olunub. Konfrans Biləcəri qəsəbəsinin 7 məktəbini əhatə edib.

Tədbiri giriş sözü ilə məktəb-liseyin direktoru Solmaz Kazımova açaraq əvvəlcə rəhbərlik etdiyi təhsil ocağı barədə ətraflı məlumat verib. Məktəb-liseyin son illər əldə etdiyi uğurlarından danışan direktor bildirib ki, Təhsil Nazirliyinin “Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması” ilə bağlı əmrinin icrası istiqamətində son vaxtlar məktəb-liseydə də bir sıra tədbirlər həyata keçirilib və bu tədbir də həmin silsilədəndir. Direktor qeyd edib ki, şagirdlərin dünyagörüşünün artırılmasında mütaliənin böyük əhəmiyyəti nəzərə alınaraq müxtəlif iş formaları ilə onlar bədii əsərlərin mütaliəsinə həvəsləndirilir, təşviq edilir.

Söz məktəb-liseyin istedadlı şagirdlərinə verilib. Onlar hazırladıqları maraqlı səhnəciklər və tamaşalarla kitaba olan sevgilərini nümayiş etdiriblər. Konfransın plenar iclasında müxtəlif məktəblərdən olan şagirdlərin “Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu”, “Xəyal güçü - gələcəyə aparan silahımız”, “Bədii ədəbiyyat elmi tərəqqinin önündə”, “Mütaliə - mənəvi təkamülə gedən yol” mövzularında çıxışları dinlənilib.

Konfrans öz işini bölmə iclaslarında “Şəxsiyyətlər tarix yaradır”, “Ədəbiyyatımızda Qarabağ dərdləri”, “Azərbaycanın qəhrəman qadınları ədəbiyyatımızda” mövzularında çıxışlarla davam etdirib. Burada şagirdlərin oxuduqları əsərlərlə bağlı təqdimatları da keçirilib. Şagirdlər oxuduqları əsərlərdəki qəhrəmanları düşüncələrindəki kimi canlandırıblar. Burada ədəbiyyatın müxtəlif janrlarına aid əsərlər sərgilənib.

Tədbirdə 299 nömrəli məktəb-liseyin “Debat klubu” komandalarının “İsmayıl Şıxlının “Dəli Kür” əsərinin baş qəhrəmanı Cahandar ağa müsbət planda yaradılmış obrazdır” mövzusunda yarışması xüsusi maraq doğurub.

Konfransın bədii təqdimatlar hissəsi ədəbiyyatın incəsənətin digər sahələrinə təsirini ifadə etmək məqsədi daşıyıb. Burada müxtəlif dillərdə (Azərbaycan, türk, ingilis, rus, yapon) söylənilən şeirlər, mahnılar, S.Vurğunun “Fərhad və Şirin”, H.Cavidin “İblis” pyeslərindən səhnələşdirilən parçalar konfransın işinə xüsusi rəng qatıb. II “b” sinif şagirdləri müxtəlif nağıl qəhrəmanlarının obrazını canlandıraraq tamaşaçıları sehirli nağıllar aləminə aparıblar.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov bildirib ki, mütaliə təfəkkürün inkişafına yönəlmiş mənəvi fəaliyyət formasıdır. O, bu tədbirdə nümayiş olunan kompozisiyanın tərbiyəvi əhəmiyyətindən ətraflı danışıb, şagirdlərin mütaliəyə istiqamətləndirilməsi, onlarda mütaliə mədəniyyətinin formalaşdırılmasına yönələn tədbirlərin məktəblərdə keçirilməsinin vacibliyini vurğulayıb. Şagirdlərin mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında mütaliənin müstəsna rolu olduğunu qeyd edib.

Tədbirdə çıxış edən Bakıdakı 284, 297, 298, 300, 314 nömrəli tam orta məktəblərin direktorları şagirdlərin çıxışlarının yüksək səviyyədə olduğunu və gözəl təqdimat etdiklərini, çox yaxşı nitq qabiliyyətinə malik olduqlarını söyləyib, məktəb-liseyin müəllimlərini bu münasibətlə təbrik ediblər.

# Kiçik məktəblilər böyük səhnədə

## Birincilər sənət məkanına Odlar yurdu Azərbaycanı tərənnüm etməyə gəlmişdilər

**Yusif ƏLİYEV**

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı mayın 16-da öz səhnəsini kiçikyaşlı məktəblilərin ixtiyarına vermişdi. Bakı şəhəri 6 nömrəli məktəb-liseyin 1 “b” sinfinin şagirdləri həmişə opera sənətimizin korifeylərini görməyə alışdığımız səhnədə müəllimləri Xuraman Şabaninin köməyi ilə hazırladıqları “Azərbaycan - Odlar yurdu” kompozisiyasını nümayiş etdirəcəkdilər. Zal tamaşaçılarla dolu idi. Onlar arasında məktəb-liseyin müəllimləri, valideynlər əksəriyyət təşkil etsə də, məxsusi dəvət olunmuş qonaqlar da az deyildi.

Doğrusu, teatra gələndə sıradan bir məktəb tədbiri izləyəcəyimizi güman edirdik. Amma elə ilk dəqiqələrdə yanıldığımızı başa düşdük. Elə birinci nömrədən aydın oldu ki, böyük səhnədə ilk dəfə çıxış edən balacaların nümayiş etdirdikləri sadəcə ədəbi-bədii kompozisiya deyil, əsl tamaşadır. Azərbaycanın bir neçə min illik tarixinin ən mühüm hadisələrinə, sərkərdələrinə, qəhrəmanlarına, elm, sənət adamlarının fəaliyyətinə, mübarizəsinə ayna tutan, böyük bir tarixi vahid süjet ətrafında məharətlə birləşdirən təsirli bir tamaşa. Başdan-başa vətənimizə məhəbbətlə, güclü vətənpərvərlik hissi ilə dolu olan kompozisiya Azərbaycan haqqında mahnı, “Qarabağ şikəstəsi”, “Sarı gəlin” mahnısı, bu fonda qızların rəqsi, nağaraçalanların cəngisi ilə başladı və elə ilk dəqiqələrdən tamaşaçıları ovsunladı. Balacaların ifasında böyük şairlərimiz Səməd Vurğunun, Şəhriyarın, Məmməd Arazın Azərbaycana həsr olunmuş şeirlərindən parçalar isə böyüklü-kiçikli hamının qəlbini Azərbaycan sevgisi, qüruru ilə doldurdu.



Balaca fidanlar tarixi bilməyin və öyrənməyin əhəmiyyətindən söz açdılar, “Azərbaycan” sözünün açmasını söylədilər, ölkəmizin ərazisində tarixən mövcud olmuş dövlətlər, onları quranlar, qoruyanlar, yaşadanlar, qədim dövrlərdə, orta və son əsrlərdə Azərbaycan mədəniyyəti, onun nümayəndələri haqqında məlumatlar verdilər. Azərbaycan ərazisində yaşayışın qədimliyini sübut edən faktlar sadalandılar.

İki saat yarım davam edən tədbirdə Azərbaycan tarixində iz qoymuş kimlərin adı çəkilmədi, səhnədə kimlər görünmədi? Cavanşir, Dədə Qorqud, Babək, Məhəmməd Cahan Pəhləvan, Sara Xatun, Bəhmənyar, Qətran Təbrizi, Xaqani, Nizami, Şah İsmayıl Xətai, Füzuli və b. Şagird-“aktyorlar” bir səhnədə Xaqani və Nizaminin, digərində Nəsimi ilə Teymur Ləngin görüşlərini, başqa bir nömrədə Nəsirəddin Tusi ilə Marağa rəsədxanasının tikintisinə pul vermək istəməyən sultanın söhbətini canlandırdılar. XVIII əsrin ikinci yarısında xanlıqlara parçalanmış Azərbaycanı birləşdirmək cəhdləri, bu məqsədlə xanların görüşü də şagirdlərin ifasında məharətlə təqdim olundu.

Azərbaycanın ikiyə bölünməsi, ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi, onların məkrli siyasəti, Azərbaycan xalqına qarşı törətdikləri soyqırımlar, 1918-ci il hadisələri, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, Azərbaycan xalqı qarşısında böyük xidmətləri olmuş milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin fəaliyyətini əks etdirən səhnələr də kompozisiyanın baxımlı, təsirli nömrələri kimi yadda qaldı.

Azərbaycanın müstəqilliyini bərpa etməsi, Qarabağın və onun ətrafındakı rayonlarımızın Ermənistan tərəfindən işğalı, Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəlişi və müstəqil dövlətimizi möhkəmləndirmək üçün atdığı addımlarla əlaqədar şagirdlərin çatdırdıqları məlumatlar, təqdim etdikləri səhnələr tədbirin son akkordları oldu və o, Üzeyir Hacıbəylinin “Koroğlu” operasının uvertürasının, “Çırpınırdı Qara dəniz” mahnısının ifası, əsgər paltarı geymiş bütün birincilərin Vətən torpaqlarını qorumağa hazır olmaları barədə çıxışları ilə başa çatdı.

Hamıda güclü təəssürat yaradan tamaşa-kompozisiyaya, şübhəsiz, yaxşı hazırlıq işləri aparılmışdı. Ssenarinin məzmunu, səhnənin tərtibatı, şagirdlər üçün bütün dövrlərə və personajlara uyğun hazırlanmış geyimlər, onların çıxışları da bunu sübut edirdi. Bütün bunlar həm də birincilərin müəllimi Xuraman Şabaninin tariximizi yaxşı bilməsindən, güclü vətənpərvərlik hissinə sahib olmasından və bu hissi şagirdlərinə də aşılaya bilmək məharətindən xəbər verirdi.

# "Mən daha çox uşaq ürək cərrahiyyəsi ilə maraqlanıram"

*Kamran Əhmədov, İsveçrənin Cenevrə Universitetinin tələbəsi:*

"Avropada öyrəndiklərimi öz ölkəmizdə tətbiq etmək istəyirəm"



Kamran Əhmədov 1988-ci il sentyabrın 28-də Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub. 2005-ci ildə Tovuz şəhər N.Tusi adına orta məktəbi əla qiymətlərlə, 2011-ci ildə isə Azərbaycan Tibb Universitetinin 1-ci müalicə-profilaktika fakültəsini bitirib. 2012-ci ildə İsveçrənin Cenevrə Universitet xəstəxanasında (Geneva University Hospital) ürək-damar cərrahı ixtisası üzrə rezidenturaya qəbul olub. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsilini davam etdirir, rezidenturanın sonuncu kursunda təhsil alır.

**Oruc MUSTAFAYEV**

### "Məktəb vaxtlarından tibb sahəsinə çox maraq göstərirdim"

Orta məktəb illərində bütün fənlərə diqqət etməyə çalışırdım. Ancaq kimya, biologiya və coğrafiya ilə daha çox maraqlanırdım. Məktəb vaxtlarından tibb sahəsinə çox maraq göstərirdim. Gələcəkdə həkim olub insanlara kömək etməyi arzulayırdım. Ali məktəbi bitirdikdən sonra məndə xaricə gedib, orada təhsilimi davam etdirmək istəyi yaranmışdı. Dünyanın nüfuzli tibb ali məktəblərində təhsilimi davam etdirməyi, tibdəki son yenilikləri, nailiyyətləri öyrənərək əldə etdiyim bilikləri Azərbaycanda tətbiq etməyi düşünürdüm. Və bu arzularımın həyata keçməsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"-nın böyük köməyi oldu. Dövlət Proqramı sayəsində mən və mənim kimi minlərlə gənc xarici ölkələrə gedib, orada təhsillərini davam etdirə bildi.

### "Günümüzün böyük hissəsi cərrahiyyə otaqlarında keçir"

Cenevrə Universiteti Avropanın ən qədim ali təhsil müəssisələrindən biridir. Əsası 1559-cu ildə qoyulmuş ali məktəbin məzunlarından 10 nəfəri Nobel mükafatına layiq görülüb ki, onlardan 4 nəfəri yüksək elmi mükafatı tibb sahəsində qazanıb. Bu isə Cenevrə Universitetinin tibb sahəsində yüksək elmi nailiyyətlər əldə etdiyini göstərir.

Rezidentura təhsilinin hər ölkədə öz xüsusiyyətləri var. Və həmçinin bu, ixtisasdan da çox asılıdır. Mənim ixtisasım cərrahiyyə ixtisası olduğu üçün günümüzün böyük bir hissəsi cərrahiyyə otaqlarında keçir. Səhər saat 07:30-da iş başlayır. İlk öncə növbətci həkimin hesabatını dinləyir, sonra xəstəxanada yatan xəstələrimizə baş çəkir və daha sonra əməliyyat blokuna enirik. Rezidentura təhsilinin ilk illərində biz daha çox əməliyyatlarda assistentlik edir, əməliyyatları öyrənirik. Rezidentura təhsilinin sonlarına doğru artıq biz özümüz sərbəst əməliyyat edirik, daha gənc rezidentləri öyrədirik. Əməliyyatlar bitdikdən sonra ambulator xəstələrin konsultasiyası, stasionarda yatan xəstələrə baxış olur. Hər gün sabahkı gün əməliyyat olunacaq xəstələrin, daha sonra kardioloqlarla birlikdə həmin gün xəstəxanaya daxil olmuş bütün xəstələrin vəziyyətini müzakirə edirik. Bundan əlavə, həftədə 2 dəfə olmaq üzrə hamımız mühazirə keçirik. Təcrübəmin böyük bir hissəsini Cenevrə Universitetinin xəstəxanasında keçirirəm. Qeyd edim ki, Lozanna Universitetinin xəstəxanasında da (CHUV) bir ilə yaxın çalışmışam.

### "Elmi tədqiqatlara da xüsusi yer ayırıram"

Ürək-damar cərrahiyyəsi nisbətən cavan bir sahədir. 100 ildən bir az artıq yaşı var. Lakin elmin və tibbin tərəqqisi ilə bu sahə son 100 ildə çox sürətlə inkişaf edib. Dünyada ürək-damar xəstəliklərindən əziyyət çəkən milyonlarla insan yaşayır. Bu xəstəliklər arasında sonradan qazanılmış xəstəliklər və anadangəlmə qüsurlar üstünlük təşkil edir. Ürək-damar xəstəliklərinin belə geniş yayılmasının bir çox səbəbi var. Bu səbəblər arasında irsi səbəblər, hərəkətsizlik, artıq piylənmə və siqaret çəkmə ən önəmliləridir.

Mən daha çox uşaq ürək cərrahiyyəsi ilə maraqlanıram. Buraya əsasən konjenital (yəni, anadangəlmə) ürək qüsurları aiddir. Dünyada, o cümlədən Azərbaycanda ürəyində problemi olan bir çox uşaq var. Hər il dünya üzrə 300000-ə yaxın anadangəlmə ürək qüsuru olan insan dünyasını dəyişir. Ancaq bunların əksəriyyəti vaxtında müayinə olunub, cərrahi yolla həll oluna biləcək problemlərdir. Belə xəstələrin vaxtında aşkar olunub müalicə olunmaları çox vacibdir. Rezidentura təhsili daha çox praktik mahiyyət daşıyır. Tibb təhsilində təcrübənin rolu çox böyükdür. Bu məqsədlə də universitetdən sonrakı təhsilin böyük mərkəzlərdə həyata keçirilməsi gənc bir həkim üçün çox vacibdir. Rezidentura təhsilimdə elmi tədqiqatlara da xüsusi yer ayırıram. Məlumdur ki, tibbin inkişafında tədqiqatların aparılması çox vacibdir. Son illərdə yeni nəsil süni ürək aparatlarının (Ventricular assist device) tətbiqi, anadangəlmə ürək qüsuru olan xəstələrin cərrahi müalicəsinin yaxşılaşdırılması, zehni əməliyyat texnikalarının öyrənilməsi və minimal invaziv cərrahiyyə üsullarının inkişafı kimi istiqamətlərlə daha çox maraqlanıram.

### "Həkimliyi insanlara kömək etmək üçün seçmişəm"

Azərbaycanda son illərdə elm və təhsil, o cümlədən də tibb sahəsində çox böyük islahatlar aparılır. Gənclərimiz xarici ölkələrdə təhsil alır, çalışır, təcrübə toplayır. Bütün bünların gələcəkdə Azərbaycanda elmin və təhsilin, o cümlədən tibbin daha sürətlə inkişafına gətirəcəyinə inanıram.

Asudə vaxtlarıma gəldikdə isə, demək istəyirəm ki, xəstəxanadakı iş qrafikimiz sıx olduğu üçün klinikadan kənar vaxtımız çox olmur. Boş olan vaxtlarda kitab oxuyuram (bədii ədəbiyyat), musiqiyə qulaq asıram, tennis oynayıram. Bəzən xaricdə yaşayan və təhsil alan digər azərbaycanlılarla görüşürük.

Yerli professor-həkim kollektivi ilə münasibətim də çox yaxşıdır. Həm xəstəxanadaxili, həm də klinikadanxaric onlarla yaxşı əlaqəmiz var.

Həkimliyi insanlara kömək etmək üçün seçmişəm. Xəstə insanlara kömək etmək, onları sağaltmaq və insanların sevincini görmək çox gözəl bir hissdir. Bunun üçün həkim olmağı seçmişəm. Məncə, karyerada uğur qazanmaq üçün mütləq çoxlu çalışmaq, öz idealların və məqsədlərinə doğru durmadan irəliləmək lazımdır.

Gələcək planlarıma gəlincə, deyim ki, təhsilimi bitirdikdən sonra Azərbaycana qayıdıb, Avropada öyrəndiklərimi öz ölkəmizdə tətbiq etmək, ölkəmizdə ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara yardım etmək və biliklərimi digərlərinə də çatdırmaq istəyirəm.

# Karyerada ali təhsilin rolu şişirdilib

Tanınmış investor ali təhsil haqqında

**Oruc MUSTAFAYEV**

Müasir dövrün ən uğurlu investorlarından hesab olunan Uorren Baffet bəyan edib ki, karyerada ali təhsilin rolu güclü surətdə şişirdilib. U.Baffet ali təhsil diplomunun yerini belə bilmədiyini deyir, onun 3 uşağı da karyerada uğur qazanmış insanlardır və onlar da ali təhsil almayıblar. Tələbələrlə görüşündə U.Baffet onlara tövsiyələrini çatdırıb: "Ala biləcəyiniz ən yaxşı təhsil özünüzə qoyduğunuz investisiyalardır. Ancaq söhbət kollec və ya universitetdən getmir. Mənim iki diplomum var, amma onlar mənim evimin divarından asılmayıb, əslində, mən hətta bilmirəm, onlar harada yerləşir. Mən bu barədə açıq çıxış etməkdən qorxurdum və lakin anladım ki, bu barədə nəsə demək məcburiyyətindəyəm. Mənim bir diplomum var, hansı ki, onu hamıya göstərirəm. Bu, Deyl Karneqinin mühazirələrində iştirak etdiyimə görə aldığım diplomdur və o, mənə cəmi 100 dollara başa gəlib. Beləliklə, mən düşünmürəm ki, kollec hamıya lazımlıdır. Onun verdiyi tək üstünlük, döş nişanıdır. Əslində mənim 3 uşağımdan heç biri kollec qurtarmayıb. Analitik Con Mellor layihə üçün tələbələr qrupunu tədqiq edib. Onlardan bir hissəsini çimərliyə göndəriblər, digər qismi isə universitetdə məşğələlərdə olub. Onların nəticələri təxminən eyni olub. Ona görə də əsas məsələ sizin qabiliyyətlərinizin ardıcıl yaxşılaşmasından ibarətdir. Siz həmişə özünüzdən soruşmalısınız: "Bu mənim üçün hansısa bir dəyərə malikdirmi?" Şəxsən mən, valideynlərimin gözləntilərini doğrultmaq üçün universitetdə oxuyurdum".

Uğurun açarı emosional stabillikdir. Varlanmaq üçün yüksək İQ lazım deyil. Öz istedadınızı inkişaf etdirin və zəif tərəfləriniz üzərində işləyin.

# Ukraynanın tibb diplomları tanınmır

Ölkənin Təhsil və Elm Nazirliyi narahatdır

Suriya, Livan, İraq və Fələstin müvəqqəti və ya daimi olaraq Ukraynanın tibb diplomlarını tanımaqdan imtina edib. Ukraynanın Təhsil və Elm Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, bu barədə nazir Liliya Qrineviç bildirib. Nazirliyin rəsmi *mon.gov.ua* saytının məlumatına əsasən, Liliya Qrineviç bildirib: "Bu gün bəzi ölkələr bizim tibb diplomlarımızın tanınmasını qismən və ya tamamilə dayandırıb. Bu, xüsusən Suriya, Livan, İraq, Fələstin və başqa ölkələrdir. Bu ölkələrdən bizim tibb universitetlərinə ənənəvi olaraq çox sayda tələbə oxumağa gəlir". Nazir qeyd edib ki, belə bir qərarın səbəbini adıçəkilən ölkələr tibb ali məktəblərinə qəbul ballarının kifayət qədər aşağı olması və internaturanın yoxluğudur. "Biz bu problemi aradan qaldırmaq üçün hansı dəyişiklikləri həyata keçirməyimizi müəyyən etməli və tibb ali məktəblərində təqdim olunan təhsil xidmətlərinin səviyyəsini yaxşılaşdırmalıyıq",-deyən nazir əlavə edib ki, Ukraynada tibb təhsili xarici tələbələr üçün təhsil xidmətləri bazarında yüksək reytinqə malikdir. Ukraynada təhsil alan 64 min əcnəbi tələbənin 40 faizi məhz tibb ixtisasları üzrə təhsil alır. Qeyd edək ki, Ukraynanın tibb universitetlərində təhsil haqları Avropa ölkələri ilə müqayisədə çox aşağıdır. Məsələn, A.Boqomolts adına Milli Tibb Universitetində əcnəbi tələbələr üçün təhsil haqqı illik 3-4 min ABŞ dolları təşkil edir.

# "Ali məktəblər innovasiyaların yaradılması məkanı kimi"



Rusiya təhsilində yeni layihə

Bu ildən başlayaraq Rusiya ali məktəblərində inkişaf etmiş biznes-inkubator, texnoparklar və mühəndislik sahələri olan onlarca innovasiya, texnologiya və sosial inkişaf üzrə universitet mərkəzləri yaradılacaq. Plana əsasən, 2017-ci ildə 40, 2018-ci ildə daha 15 mərkəz yaradılmalıdır. 2025-ci ildə onların sayı 100 olmalıdır. "Ali məktəblər innovasiyaların yaradılması məkanı kimi" prioritet layihə çərçivəsində ölkənin ali məktəbləri qarşısında məhz bu vəzifələr qoyulub. Layihə hökumət tərəfindən təsdiq edilib. Tələbə mərkəzləri müəssisələrdən sifarişlər alacaq və onları, eləcə də sosial layihələri yerinə yetirəcək.

Layihənin reallaşmasında Rusiya Elmlər Akademiyasının alimləri də iştirak edəcək, onlar ümumtəhsil şəbəkə proqramları hazırlayacaqlar. Akademiyanın institutları da bu proqramların hazırlanmasına cəlb ediləcəklər. Universitetlərdə büdcə yerləri qalacaq, ancaq magistratura texnologiya sahibkarlığına hədəflənməlidir. Ən azı 400 yeni proqram hazırlanmalıdır. Belə bir plan da var ki, 2 ildən sonra ölkənin aparıcı universitetləri elmi dərəcələr təsis etmək hüququ qazanacaqlar.

Qeyd edək ki, hazırda belə bir hüquq yalnız M.V.Lomonosov adına Moskva Dövlət və Sankt-Peterburq Dövlət universitetlərinə verilib. Belə bir vəziyyətin aradan qaldırılması nəzərdə tutulub. Yaxın illər ərzində özlərinin dissertasiya şuraları olan universitetlərin sayının 30-40-a çatdırılması gözlənilir.

# Dərslər saat 9-da başlayacaq

Belarus Prezidenti növbəti təşəbbüslə çıxış edib

Belarus prezidenti Aleksandr Lukaşenko növbəti tədris ilindən ümumtəhsil müəssisələrində birinci dərsin başlanması vaxtının dəyişdirilməsini tövsiyə edib. O hesab edir ki, uşaqların sağlamlığı və onların dərs materiallarını necə mənimsəməsi barədə düşünmək lazımdır. Bu səbəbdən ümumtəhsil məktəblərində iş qrafikini təkrar gözdən keçirmək və dərslərə səhər saat 9-dan tez olmayaraq başlamaq lazımdır. "Buna görə bizə vəziyyəti dəyişdirmək lazımdır, xüsusilə də kənd yerlərində. Hətta avtobusla uşaqları 5 -7 kilometr məsafədə yerləşən məktəbə aparırlar. Onlara səhər saat 6-da oyanmaq lazımdır. Bu, məgər normaldır? Saat 6-da yaşlı insan belə yuxudan oyana bilmir. Buna görə də bizdə təhsil üzrə ciddi irəliləyişlər olmalıdır", - deyə prezident bildirib. Ölkə başçısının təşəbbüsü Belarus cəmiyyətində birmənalı reaksiya doğurmayıb. Valideynlərin bir çoxu, xüsusən də işləyənlər bu təşəbbüsü dəstəkləmir. Onlar uşaqların saat 9-a qədər məktəbə çatdırılmasını problem hesab edirlər. Prezident isə qeyd edir ki, ilk növbədə, uşaqların sağlamlığı barədə düşünmək lazımdır.



*Xarici mətbuat materialları əsasında*

## Əcnəbi tələbələr Azərbaycan dilində şeir söyləyiblər

Abşeron rayonu Xırdalan şəhər 8 nömrəli tam orta məktəbdə xarici tələbələrin iştirakı ilə ingilis dilində tədbir keçirilib. Tədbirdə Bakı Mühəndislik Universitetinin əməkdaşları, məktəbin pedaqoji kollektivi və şagirdlər iştirak ediblər.

Tədbirin keçirilməsində məqsəd şagirdlərin ingilis dilində bacarıqlarını nümayiş etdirmək, onlarda xarici dillərə qarşı maraq yaratmaqdır.

Öncə məktəbin direktoru Roza Məmmədova qonaqları salamlayaraq, şagirdlərin dünyagörüşlərinin artmasında, dərslərə maraqla yanaşmalarında bu cür tədbirlərin böyük əhəmiyyəti olduğunu vurğulayıb.

Təhsil şöbəsinin ingilis dili fənni üzrə metodisti Yaydagül Rəhimova məktəb rəhbərliyinin xarici dillərin tədrisinə göstərdiyi diqqətin təqdirəlayiq olduğunu söyləyərək, tədbir təşkilatçılarına təşəkkürünü bildirib.

Sonra tədbir bədii hissə ilə davam edib. Şagirdlər ingilis dilində hazırladıqları səhnəcikləri nümayiş edib, şeirlər söyləyib və mahnı oxuyublar.

Sonda Azərbaycanda təhsil alan xarici tələbələr Azərbaycan dilində şeirlər söyləyib və şagirdlərlə birlikdə milli rəqslər ediblər.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## Ədəbi-bədii qiraət müsabiqəsi keçirilib

Ağstafa şəhər 1 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ədəbi-bədii qiraət müsabiqəsi keçirilib.

Müsabiqənin keçirilməsinin əsas məqsədi şagirdlərin mütaliəyə marağının artırılması, yeniyetmə və gənclərin oxu vərdişlərinin inkişaf etdirilməsi və mütaliə, nitq mədəniyyətinin formalaşdırılmasından ibarətdir.

Dövlət himninin sədaları altında başlanan qiraət müsabiqəsini məktəbin əməkdar müəllimi İndira Səmədova açıq elan edərək Heydər Əliyevin həyat və fəaliyyətindən, elm, təhsil, mədəniyyət sahələrinin inkişafında göstərdiyi əvəzolunmaz xidmətlərindən, onun rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq işlərindən danışıb.

Qiraət müsabiqəsində müxtəlif yaş qruplarından olan 40 şagird ulu öndər haqqında şeir söyləyib.

Müsabiqədə müvəffəqiyyət qazanmış şagirdlərə I, II, III dərəcəli diplomlar, digər iştirakçılara isə həvəsləndirici mükafatlar təqdim olunub.

Sonda ümummilli lider Heydər Əliyev haqqında videoçarx göstərilib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "İslam Həmrəyliyi İli" çərçivəsində "dəyirmi masa"

Şabran rayonu Ş.Nuriyev adına Zeyvə kənd tam orta məktəbində "İslam Həmrəyliyi İli" çərçivəsində rayon təhsil şöbəsi tərəfindən hazırlanan tədbirlər planına müvafiq olaraq "dəyirmi masa" keçirilib.

"Dəyirmi masa"da rayon təhsil və polis şöbələrinin əməkdaşları, məktəb direktorları, müəllimlər və yuxarı sinif şagirdləri iştirak ediblər.

Təhsil şöbəsinin metodisti Ağaşirin Bağırzadə milli-mənəvi dəyərlərimizin ölkə həyatında əvəzsiz rolundan danışıb. O, əsrlər boyu xalqımızın formalaşmasında, inkişafında böyük təsiri olan milli-mənəvi dəyərlərimizin qorunmasının və gələcək nəsillərə çatdırılmasının vacibliyini, həmçinin dini maarifləndirmə sahəsində görülən tədbirlərin və şagirdlərlə bu istiqamətdə mütəmadi görüşlərin əhəmiyyətini qeyd edib.

Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qrupunun baş inspektoru Eldar Ömərov dini radikalizm və ekstremizmə qarşı mübarizə metodları ilə bağlı məruzə edib. O, 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının regional və beynəlxalq müstəvidə sabitliyin qorunmasındakı əhəmiyyətindən, gənclərin etnik və dini sabitliyin qorunmasında mühüm rol oynamasından danışıb və gənclərə radikal dini cərəyanların təsirinə düşməmək üçün müvafiq tövsiyələr verib.

Tədbirdə müəllimlərin mövzu ilə əlaqədar məruzələri dinlənilib.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Müəllim pedaqoq olmaqla yanaşı, həm də psixoloq olmalıdır"

*Tərlan Muxtarova:* "Çətin tərbiyə olunan uşaqları həvəsləndirici və maraqlı məktəb işlərinə qoşuruq"

Növbəti müsahibimiz Gənc Müəllimlər Birliyinin üzvü, Şəmkir rayon Xanallar kənd Faiq Ələkbərov adına tam orta məktəbin psixoloqu Tərlan Muxtarovadır. O, dəfələrlə Bakıda keçirilən beynəlxalq konfranslarda iştirak edib. Məktəblilər üçün müxtəlif mövzularda seminarlar təşkil edən gənc müəllimlə iş başında görüşəndə o, çox sevindi. Bildirdi ki, peşəsinin vurğunudur, arzuları da böyük... Onunla söhbətimizə belə başladıq.



*- Tərlan xanım, psixoloqla məktəb psixoloqu arasındakı fərq nədən ibarətdir?*

- Məktəb psixoloqu digərlərindən fərqli olaraq, həm də təhsil işçisi hesab olunur. Məktəb psixoloqunun işinin əsas qayəsi fərdi yanaşma əsasında problemin həllinə nail olmaq üçün psixoloji üsul və vasitələri sərbəst həyata keçirməyi bacarmaqdır.

*- Məktəblilərlə işləməyin yaxşı və çətin tərəfləri hansılardır?*

- Yaxşı tərəfi odur ki, biz yeni gələn uşaqlara Bankovun testini tətbiq edir, rəy yazaraq onlarla fərdi və ya qrup şəklində məşğul oluruq. Məktəblilərə peşəyönümdə istiqamət verir, çətin tərbiyə olunan uşaqlarla fərdi iş aparırıq. Şagirdlərin adaptasiyası məqsədi ilə korreksiya işi görüb, xüsusi qabiliyyəti olan şagirdləri aşkar edirik. Bütün bunlar məktəblilərin gələcəkdə şəxsiyyət kimi formalaşması üçün biz psixoloqların gördüyü işlərin yaxşı tərəfidir.

Çətin tərəfi isə kənardan gələn və üzərində işlənilməyən şagirdin psixi inkişafında baş verən bu və ya digər qüsuru aradan qaldırmaq, əvvəlcədən həmin qüsurun baş verməsinin qarşısını almaqdan qat-qat çətin olur.

*- Müəllim şagirdi ələ almaq üçün nələrə daha çox diqqət etməlidir?*

- Müəllim pedaqoq olmaqla yanaşı, həm də müəyyən mənada bir psixoloqdur. Belə ki, müəllimlər dərs dediyi şagirdlərin psixologiyasına ən azı valideynlər qədər bələd olurlar. Hər gün öz şagirdləri ilə ünsiyyətdə olan müəllim artıq hər bir şagirdinin ayrı-ayrılıqda nəyə qadir, hansı psixologiyaya, hansı düşüncəyə malik olduğunu, müxtəlif hadisələrə necə yanaşdığını, reaksiya verdiyini və həmin hadisəni necə analiz etdiyini bilməlidir. Bəzən müəllimin qarşısına elə şagird də çıxır ki, belə uşaqlara çətin tərbiyə olunan şagirdlər kimi yanaşırlar. Bəzi müəllimlər məsələnin həllini həmin şagirdin şəxsiyyətini alçaltmaqda, təhqir etməkdə, qiymətini kəsməkdə görürlər ki, bu da şagirdin psixologiyasına birbaşa mənfi təsir göstərir. Belələri şagirddə özlərinə qarşı nifrət hissi yaradırlar. Buna görə də müəllim bu cür məsələlərə diqqət etməli, hər bir şagirdin fərdi xüsusiyyətinə bələd olmalı və şagirdlərlə davranışda onların psixoloji vəziyyətlərinə uyğun olaraq hərəkət etməyi bacarmalıdır.

*- Müəllim-şagird münasibətləri ilə bağlı sizin şəxsi fikriniz necədir?*

- Əksər müəllim dərsini keçməklə öz missiyasının tamamlanmış olduğunu düşünür. Müəllim şagirdləri ilə, hər şeydən öncə, bir dost, bir sirdaş kimi münasibət qurmalıdır. Yeri gələndə həll edə bilmədiyi hər hansısa bir durumu psixoloqla məsləhətləşərək həll etməli və bu, şagirdin xeyrinə həll olunmalıdır. Əgər məktəblərdə şagird-psixoloq münasibəti normal səviyyədə qurulsa, bu, istər-istəməz şagirdlərdə sağlam psixologiyanın yaranmasına səbəb olacaqdır. Nəticədə, şagirdlər mükəmməl bilik və savada yiyələnəcəklər. Müəllim ünsiyyəti tənzim etməli, davranış və yanaşma tərzini düzgün qurmalı, şagirdin şəxsiyyətinə toxunmamalıdır.

*- Çətin tərbiyə olunan uşaqlarla davranışda hansı metodlardan istifadə edirsiniz?*

- İlk növbədə, şagirdlə fərdi söhbət aparırıq. Sonra valideyni məktəbə dəvət edərək onlarla valideyn-uşaq münasibətləri haqqında danışırıq. Daim nəzarətdə saxlamaq şərti ilə çətin tərbiyə olunan uşaqları həvəsləndirici və maraqlı məktəb işlərinə qoşuruq. Müəllimlərə həmin şagirdlərlə düzgün münasibət qurub, onların gördükləri işin qarşılığı olaraq mükafatlandırmağı məsləhət bilirik.

**Kənan İBRAHİMOV,**
*Şəmkir Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Məktəblərdə psixoloji xidmət gücləndirilir

İmişlidə ümumtəhsil məktəblərinin təşkilatçı müavinləri və psixoloqlarının iştirakı ilə məktəblərdə tərbiyə işinin səmərəli təşkili və psixoloji xidmətin gücləndirilməsi ilə bağlı tədbir keçirilib.

Tədbirin keçirilməsində məqsəd sosial şəbəkələr vasitəsilə təbliğ edilən oyunların zərərli mahiyyəti haqqında pedaqoji kollektivlərin, şagird və valideynlərin məlumatlandırılması və məktəblərdə psixoloji xidmətin gücləndirilməsi üçün zəruri təşkilati-pedaqoji işlərin görülməsi olub.

Rayon təhsil şöbəsinin müdiri Ramiz Əmirov təhsilin və tərbiyənin inkişafı üçün hər kəsin öz vəzifə funksiyalarını məsuliyyətlə yerinə yetirməsinin vacibliyini və bugünkü tədbirin tərbiyəvi əhəmiyyətini qeyd edib.

Təhsil şöbəsinin müdir müavini Vahid Tağıyev sosial şəbəkələrdə uşaq və gənclərin mənəviyyatına, sağlamlığına, psixologiyasına ciddi mənfi təsir göstərən oyunların, eləcə də reklamın zərərli təsirindən danışıb. Özünəqəsd, qəddarlıq və zorakılıq kimi qeyri-humanist hərəkətləri təbliğ edən halların yeniyetmələrin psixoloji durumunu gərginləşdirməsi, sağlam həyat tərzi ilə bir araya sığmayan hərəkətlərə yol açmasına aydınlıq gətirib. Bu sahədə pedaqoji kollektivlərin, şagird və valideynlərin məlumatlandırılması, məktəbdə psixoloji xidmətin gücləndirilməsi üçün zəruri məsələlərin həyata keçirilməsi, məktəb-valideyn əməkdaşlığının möhkəmləndirilməsinin zəruriliyindən və bu işdə fəaliyyətin genişləndirilməsindən söz açıb.

Tədbir diskussiya şəklində başa çatıb.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Vergilər uşaqların gözü ilə"

Mayın 15-də Zaqatala şəhərində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 1 iyun-"Uşaqların Beynəlxalq Müdafiəsi Günü"nə həsr olunan "Vergilər uşaqların gözü ilə" rəsm və inşa müsabiqəsinin zona turu keçirilib. İki yaş qrupu üzrə keçirilən bu tədbirdə rayonumuzu təmsil edən şagirdlərdən üç nəfəri - Elvin Muradlı birinci, Türkan Abbasova və Sevinc Raziyeva ikinci yerə layiq görülüb.

Müsabiqə qalibləri diplom və qiymətli hədiyyələrlə təltif olunub.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## İsmayıllı təhsil işçiləri beynəlxalq konfransda iştirak edib

Bu yaxınlarda Niğde Ömer Halisdemir Universitetində IV Uluslararası Türk Dünyası Araşdırmaları Simpoziumu (TÜDAS) keçirilib. Niğde Ömer Halisdemir Universiteti, Qazax Dövlət Qızlar Pedaqoji Universiteti (Almatı, Qazaxıstan), Bakı Avrasiya Universiteti iş birliyi ilə reallaşan simpoziumda Azərbaycandan olan təmsilçilər arasında İsmayıllı təhsil işçiləri də iştirak edib.

Qeyd edək ki, ilk olaraq 2014-cü ildə Niğde Universitetinin ev sahibliyi ilə gerçəkləşdirilən simpoziumdan sonra növbəti elmi məclislər 2015-ci ildə Qazaxıstanın Almatı şəhərində yerləşən Qazax Dövlət Qızlar Pedaqoji Universitetində və 2016-cı ildə Bakı Avrasiya Universitetində keçirilmişdi.

Simpozium çərçivəsində TÜRKSOY Rəssamlar Buluşmalarında ortaya çıxan əsərlərin yer aldığı TÜRKSOY Rəsm Sərgisi sənətsevərləri görüşdürdü.

Simpoziumda Türk Dünyasını maraqlandıran dil, ədəbiyyat, tarix, təhsil, mədəniyyət, sənət, beynəlxalq əlaqələr, bölgə problemləri, iqtisadiyyat, din, fəlsəfə, sosiologiya, turizm, qadın çalışmaları və s. kimi istiqamətlərdə işlənmiş elmi məqalələr təqdim olundu.

Azərbaycandan 60-dan çox araşdırmaçının, o cümlədən İsmayıllının müxtəlif təhsil müəssisələrinin təmsilçilərindən Rövşən Şirəliyevin "Babadağ ziyarəti və əski türk qam-şaman adət-ənənələri", Rəqibə Qasımovanın "Azərbaycan və Türkiyə ailə - nikah hüququnda bənzərliklər və fərqliliklər", Sevda Qasımovanın "Türk toplumlarında ər-arvadın bir-birinə xitab mədəniyyəti", Könül Baxışovanın isə "Azərbaycanda islamaqədərki dövrə aid dəfn və yas mərasimlərinin izləri" mövzularında elmi məqalələrinin təqdimatı iştirakçı elm adamlarının və universitet tələbələrinin marağına səbəb oldu.

Simpozium türk xalqlarının, o cümlədən bilim adamlarının bir araya gələrək bir-birinin dilini, mədəniyyətini paylaşması, ümumtürk birliyinin daha da möhkəmlənməsi, milli kimlik qavramının gənc nəslə aşılanması istiqamətində mühüm addım idi. Konfrans günlərində universitetin kampus həyatında və eləcə də bütövlükdə şəhərdə milli birlikdən doğan bir qürur yaşandı.

V Uluslararası Türk Dünyası Araşdırmaları Simpoziumu 2018-ci ilin mayında Qazax Dövlət Qızlar Pedaqoji Universitetinin ev sahibliyi ilə Qazaxıstanın Almatı şəhərində keçiriləcək.

**Sevda QASIMOVA,**
*İsmayıllı şəhər E.Məmmədov adına 3 nömrəli məktəb-liseyin tədris işləri üzrə direktor müavini*

## "Səni tərənnüm edirəm, Azərbaycan!"

Sabirabad şəhər 5 nömrəli tam orta məktəbdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 99-cu ildönümü münasibətilə "Səni tərənnüm edirəm, Azərbaycan!" mövzusunda ədəbi-musiqili tədbir keçirilib. Tədbirdə təhsil şöbəsinin nümayəndələri, valideynlər, müəllim və şagirdlər iştirak ediblər. Tədbir Dövlət himninin ifası ilə başlayıb.

Təhsil şöbəsinin metodisti Əmirhüseyn Əsgərov çıxış edərək 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk dünyəvi dövlət olduğunu vurğulayıb. Qeyd edilib ki, cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlaya bilməyib. Nəhayət, XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevrilib.

Sonra şagirdlərin ifasında Vətəni tərənnüm edən mahnılar, şeirlər səslənib və kiçik səhnəciklər göstərilib.

**Xalid NƏCİYEV,**
*Sabirabad Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Əcnəbi tələbələrin ən çox təhsil aldığı dünya universitetləri

Oruc MUSTAFAYEV

Böyük Britaniyanın Times Higher Education (THE) dərgisi əcnəbi tələbələrin sayına görə dünyanın ən yaxşı 200 universitetinin reytinq cədvəlini açıqlayıb. Bu sıralama THE-nin hər il tərtib etdiyi universitetlərin dünya reytinqinin tərkib hissəsidir. Reytinqin ilk 5 sırasında yer almış üç ali məktəbin əsası 30 il əvvəl qoyulub. Bu isə deməyə əsas verir ki, gənc universitetlər xarici tələbələr üçün daha böyük maraq kəsb edir. Tələbələr dünya ali təhsil məkanına inteqrasiya etmək və innovativ yeniliklərlə daha yaxından tanış olmaq üçün xaricdə təhsil almağa üstünlük verirlər. Sıralamada Rusiyanın üç universiteti - Moskva Xalqlar Dostluğu (53-cü), M.V.Lomonosov adına Moskva Dövlət (191-ci) və Tomsk Politexnik universitetləri (194-cü) yer alıblar. Londonda yerləşən 16 universitet top-200-lüyə daxil olub ki, bu da onu reytinqdə ən çox təmsil olunmuş şəhərlərdən biri edib. Həqiqətən Böyük Britaniya toplam olaraq top-200-lükdə 72 ali məktəblə təmsil olunub. Müqayisə üçün deyək ki, 200 ali məktəb sırasına ABŞ-dan 27, Avstraliyadan isə 22 universitet daxil olub. Daha ətraflı *www.timeshighereducation.com/student/best-universities/international-student-table-2017-top-200-universities* səhifəsindən tanış olmaq olar.

| Tutduğu yer | Ali məktəbin adı | Ölkə | Əcnəbi tələbə sayı, faizlə |
|---|---|---|---|
| 1. | American University of Sharjah | Birləşmiş Ərəb Əmirlikləri | 83.7% |
| 2. | Central European University | Macarıstan | 77.4% |
| 3. | London School of Economics and Political Science | Böyük Britaniya | 70.0% |
| 4. | Royal College of Surgeons in Ireland | İrlandiya | 62.3% |
| 5. | University of Luxembourg | Lüksemburq | 54.8% |
| 6. | Soas, University of London | Böyük Britaniya | 54.3% |
| 7. | École Polytechnique Fédérale de Lausanne | İsveçrə | 54.2% |
| 8. | Imperial College London | Böyük Britaniya | 52.2% |
| 9. | City, University of London | Böyük Britaniya | 49.2% |
| 10. | University College London | Böyük Britaniya | 46.9% |
| 11. | Maastricht University | Niderland | 46.8% |
| 12. | University of St Andrews | Böyük Britaniya | 46.4% |
| 13. | University of Westminster | Böyük Britaniya | 44.7% |
| 14. | Murdoch University | Avstraliya | 44.5% |
| =15. | University of Essex | Böyük Britaniya | 44.3% |
| =15. | Middlesex University | Böyük Britaniya | 44.3% |
| 17. | École des Ponts ParisTech | Fransa | 43.8% |
| 18. | Qatar University | Qətər | 42.6% |
| 19. | Heriot-Watt University | Böyük Britaniya | 42.0% |
| 20. | Queen Mary University of London | Böyük Britaniya | 41.5% |
| 21. | Coventry University | Böyük Britaniya | 40.6% |
| 22. | University of Geneva | İsveçrə | 39.8% |
| 23. | Auckland University of Technology | Yeni Zelandiya | 38.9% |
| 24. | Brunel University London | Böyük Britaniya | 38.7% |
| 25. | University of Hong Kong | Honkonq | 38.6% |
| 26. | University of Innsbruck | Avstriya | 38.2% |
| 27. | Hong Kong University of Science and Technology | Honkonq | 38.1% |
| =28. | Birkbeck, University of London | Böyük Britaniya | 37.9% |
| =28. | King's College London | Böyük Britaniya | 37.9% |
| =28. | Royal Holloway, University of London | Böyük Britaniya | 37.9% |
| =31. | Carnegie Mellon University | Böyük Britaniya | 37.8% |
| =31. | University of Surrey | Böyük Britaniya | 37.8% |
| =31. | University of Warwick | Böyük Britaniya | 37.8% |
| 34. | Goldsmiths, University of London | Böyük Britaniya | 37.5% |
| 35. | ETH Zurich – Swiss Federal Institute of Technology Zurich | İsveçrə | 37.3% |
| 36. | University of Edinburgh | Böyük Britaniya | 37.2% |
| 37. | University of Melbourne | Avstraliya | 36.8% |
| =38. | Curtin University | Avstraliya | 36.1% |
| =38. | London Metropolitan University | Böyük Britaniya | 36.1% |
| 40. | University of Manchester | Böyük Britaniya | 35.8% |
| 41. | University of Leicester | Böyük Britaniya | 35.7% |
| 42. | Bond University | Avstaliya | 35.4% |
| 43. | Kingston University | Böyük Britaniya | 35.3% |
| =44. | Australian National University | Avstraliya | 35.2% |
| =44. | Lancaster University | Böyük Britaniya | 35.2% |
| 46. | University of Technology Sydney | Avstraliya | 35.1% |
| 47. | University of Oxford | Böyük Britaniya | 35.0% |
| 48. | University of Sussex | Böyük Britaniya | 34.8% |
| 49. | University of Cambridge | Böyük Britaniya | 34.6% |
| =50. | Eastern Mediterranean University | Kipr | 34.4% |
| =50. | Stevens Institute of Technology | ABŞ | 34.4% |
| =50. | University of St Gallen | İsveçrə | 34.4% |
| 53. | Peoples' Friendship University of Russia | Rusiya | 34.0% |
| =54. | University of Liverpool | Böyük Britaniya | 33.7% |
| =54. | London South Bank University | Böyük Britaniya | 33.7% |
| 56. | University of Greenwich | Böyük Britaniya | 33.6% |
| 57. | Massachusetts Institute of Technology | ABŞ | 33.5% |
| 58. | University of Bedfordshire | Böyük Britaniya | 33.4% |
| 59. | University of East London | Böyük Britaniya | 33.2% |
| 60. | University of Sheffield | Böyük Britaniya | 33.1% |
| 61. | University of South Australia | Avstraliya | 33.0% |
| 62. | University of Macau | Makao | 32.9% |
| 63. | Alfaisal University | Səudiyyə Ərəbistanı | 32.7% |
| =64. | University of Aberdeen | Böyük Britaniya | 32.3% |
| =64. | University of Glasgow | Böyük Britaniya | 32.3% |
| =64. | National University of Singapore | Sinqapur | 32.3% |
| =64. | University of New South Wales | Avstraliya | 32.3% |
| =64. | Queen's University Belfast | Böyük Britaniya | 32.3% |
| 69. | CentraleSupélec | Fransa | 32.1% |
| 70. | Nanyang Technological University, Singapore | Sinqapur | 32.0% |
| 71. | Université Libre de Bruxelles | Belçika | 31.7% |
| 72. | Aston University | Böyük Britaniya | 31.6% |
| 73. | Edinburgh Napier University | Böyük Britaniya | 31.3% |
| 74. | École Polytechnique | Fransa | 30.8% |
| 75. | University of Southampton | Böyük Britaniya | 30.7% |
| 76. | University of Bath | Böyük Britaniya | 30.4% |
| 77. | Columbia University | ABŞ | 30.1% |
| 78. | Florida Institute of Technology | ABŞ | 30.0% |
| 79. | National Institute of Applied Sciences of Lyon (INSA Lyon) | Fransa | 29.8% |
| 80. | City University of Hong Kong | Honkonq | 29.5% |
| 81. | University of Reading | Böyük Britaniya | 29.3% |
| 82. | University of Bradford | Böyük Britaniya | 29.2% |
| 83. | Simon Fraser University | Kanada | 29.1% |
| 84. | University of Auckland | Yeni Zelandiya | 29.0% |
| 85. | University of Kent | Böyük Britaniya | 28.9% |
| =86. | Hong Kong Baptist University | Honkonq | 28.7% |
| =86. | University of Sydney | Avstraliya | 28.7% |
| 88. | University of British Columbia | Kanada | 28.6% |
| =89. | Massey University | Yeni Zelandiya | 28.5% |
| =89. | Newcastle University | Böyük Britaniya | 28.5% |
| 91. | Northeastern University | ABŞ | 28.4% |
| 92. | University of Canberra | Avstraliya | 28.3% |
| 93. | University of Rochester | ABŞ | 28.2% |
| 94. | University of East Anglia | Böyük Britaniya | 28.1% |
| 95. | Central Queensland University | Avstraliya | 28.0% |
| 96. | University of Nottingham | Böyük Britaniya | 27.8% |
| 97. | University of Twente | Niderland | 27.6% |
| =98. | University of Hertfordshire | Böyük Britaniya | 27.5% |
| =98. | United Arab Emirates University | Birləşmiş Ərəb Əmirlikləri | 27.5% |
| =98. | Universiti Teknologi Petronas | Malayziya | 27.5% |
| =101. | Oxford Brookes University | Böyük Britaniya | 27.4% |
| =101. | Rice University | ABŞ | 27.4% |
| 103. | University of Exeter | Böyük Britaniya | 27.2% |
| =104. | University of Adelaide | Avstraliya | 27.1% |
| =104. | Concordia University | Kanada | 27.1% |
| =106. | Swinburne University of Technology | Avstraliya | 26.9% |
| =106. | Vienna University of Technology | Avstriya | 26.9% |
| 108. | University of Western Australia | Avstraliya | 26.8% |
| 109. | California Institute of Technology | ABŞ | 26.6% |
| 110. | Chinese University of Hong Kong | Honkonq | 26.5% |
| 111. | University of York | Böyük Britaniya | 26.4% |
| 112. | Durham University | Böyük Britaniya | 26.3% |
| =113. | University of Huddersfield | Böyük Britaniya | 26.2% |
| =113. | University of Tulsa | ABŞ | 26.2% |
| 115. | Mines ParisTech | Fransa | 26.1% |
| 116. | Georgia Institute of Technology | ABŞ | 26.0% |
| 117. | University of Waikato | Yeni Zelandiya | 25.9% |
| 118. | Jinan University | Çin | 25.8% |
| 119. | RMIT University | Avstraliya | 25.6% |
| 120. | University of Vienna | Avstriya | 25.5% |
| =121. | Anglia Ruskin University | Böyük Britaniya | 25.4% |
| =121. | University of Birmingham | Böyük Britaniya | 25.4% |
| =121. | Clark University | ABŞ | 25.4% |
| =121. | University College Dublin | İrlandiya | 25.4% |
| =121. | Hong Kong Polytechnic University | Honkonq | 25.4% |
| =121. | Monash University | Avstraliya | 25.4% |
| 127. | La Trobe University | Avstraliya | 25.3% |
| =128. | University of Queensland | Avstraliya | 25.2% |
| =128. | Semmelweis University | Macarıstan | 25.2% |
| =128. | V.N. Karazin Kharkiv National University | Ukraina | 25.2% |
| =131. | Charles Darwin University | Avstraliya | 25.1% |
| =131. | New York University | ABŞ | 25.1% |
| =133. | Cardiff University | Böyük Britaniya | 25.0% |
| =133. | Delft University of Technology | Niderland | 25.0% |
| =133. | Trinity College Dublin | İrlandiya | 25.0% |
| =136. | University of Bristol | Böyük Britaniya | 24.8% |
| =136. | Harvard University | ABŞ | 24.8% |
| =136. | University of Portsmouth | Böyük Britaniya | 24.8% |
| 139. | University of Texas at Dallas | ABŞ | 24.6% |
| 140. | Dublin Institute of Technology | İrlandiya | 24.5% |
| 141. | McGill University | Kanada | 24.3% |
| 142. | University of Montreal | Kanada | 24.2% |
| 143. | University of Alberta | Kanada | 24.1% |
| =144. | University of Dundee | Böyük Britaniya | 24.0% |
| =144. | Johns Hopkins University | ABŞ | 24.0% |
| 146. | Stony Brook University | ABŞ | 23.9% |
| 147. | University of Lausanne | İsveçrə | 23.8% |
| =148. | University of Chicago | ABŞ | 23.7% |
| =148. | Macquarie University | Avstraliya | 23.7% |
| =148. | University of Wollongong | Avstraliya | 23.7% |
| 151. | University of Basel | İsveçrə | 23.6% |
| 152. | National Taiwan Normal University | Tayvan | 23.4% |
| =153. | De Montfort University | Böyük Britaniya | 23.3% |
| =153. | University of Roehampton | Böyük Britaniya | 23.3% |
| 155. | American University of Beirut | Livan | 23.2% |
| 156. | Princeton University | ABŞ | 23.1% |
| 157. | Karolinska Institute | İsveç | 23.0% |
| =158. | École Centrale de Lyon | Fransa | 22.9% |
| =158. | University of Liège | Belçika | 22.9% |
| 160. | Lincoln University | Niderland | 22.8% |
| =161. | Robert Gordon University | Böyük Britaniya | 22.7% |
| =161. | Wageningen University and Research Center | Niderland | 22.7% |
| =163. | Brandeis University | ABŞ | 22.6% |
| =163. | University of Southern California | ABŞ | 22.6% |
| 165. | Purdue University | ABŞ | 22.4% |
| 166. | University of Neuchâtel | İsveçrə | 22.3% |
| =167. | Stanford University | ABŞ | 22.1% |
| =167. | University of Strathclyde | Böyük Britaniya | 22.1% |
| =167. | York University | Kanada | 22.1% |
| 170. | Loughborough University | Böyük Britaniya | 22.0% |
| 171. | Victoria University | Avstraliya | 21.9% |
| =172. | University of Illinois at Urbana-Champaign | ABŞ | 21.8% |
| =172. | Khalifa University of Science, Technology and Research | Birləşmiş Ərəb Əmirlikləri | 21.8% |
| =172. | University of Leeds | Böyük Britaniya | 21.8% |
| =175. | Keele University | Böyük Britaniya | 21.7% |
| =175. | Technical University of Munich | Almaniya | 21.7% |
| =177. | Chung-Ang University | Cənubi Koreya | 21.6% |
| =177. | University of Salford | Böyük Britaniya | 21.6% |
| 179. | King Fahd University of Petroleum and Minerals | Səudiyyə Ərəbistanı | 21.4% |
| =180. | Bangor University | Böyük Britaniya | 21.3% |
| =180. | University of Nice Sophia Antipolis | Fransa | 21.3% |
| =182. | Copenhagen Business School | Danimarka | 21.2% |
| =182. | Norwegian University of Life Sciences | Norveç | 21.2% |
| =182. | Swansea University | Böyük Britaniya | 21.2% |
| 185. | New Jersey Institute of Technology | ABŞ | 20.9% |
| =186. | University at Buffalo | ABŞ | 20.8% |
| =186. | Victoria University of Wellington | Yeni Zelandiya | 20.8% |
| =188. | Free University of Berlin | Almaniya | 20.7% |
| =188. | King Abdulaziz University | Səudiyyə Ərəbistanı | 20.7% |
| =188. | Yale University | ABŞ | 20.7% |
| =191. | University of Brighton | Böyük Britaniya | 20.6% |
| =191. | Lomonosov Moscow State University | Rusiya | 20.6% |
| =191. | Vrije Universiteit Brussel | Belçika | 20.6% |
| 194. | Tomsk Polytechnic University | Rusiya | 20.4% |
| 195. | University of Otago | Yeni Zelandiya | 20.3% |
| =196. | University of Hull | Böyük Britaniya | 20.2% |
| =196. | Jordan University of Science and Technology | İordaniya | 20.2% |
| =196. | Yonsei University | Cənubi Koreya | 20.2% |
| 199. | University of Stirling | Böyük Britaniya | 20.1% |
| 200. | Lappeenranta University of Technology | Finlandiya | 20.0% |




*Amerika Şarjah Universiteti*



*Mərkəzi Avropa Universiteti*



*London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi*



*İrlandiya Royal Kolleci*



*Lüksemburq Universiteti*

# Xan qızının saldırdığı meşə, Sultan Süleymanın Sultanpudu və Qarabağdakı uşaqlıq...

**Jalə MÜTƏLLİMOVA**

## *Mənsum İbrahimov:* "Yaxşı övlad yetişdirmək təkcə onu ağıllı böyütmək demək deyil"

Böyüklərin uşaqlıq xatirələrini dinləmək maraqlı olur. Dediklərindən daha çox üzlərindəki cizgiləri izləyirəm həmişə. Niyəsini bilmək istəyən varsa, söyləyim. Danışdıqlarını qeydetmə cihazı yadda saxlayır. O anın üz cizgilərini isə beyinə ancaq gözlə gördüklərin qeyd edə və qarşındakı həmsöhbətin yaşantılarını göstərə bilir. Bu bir az da peşə sirrinin açılması kimi oldu. Amma hər halda maraqlı bir həqiqət yatır içində. Anında anlayırsan ki, müsahib nə qədər səmimidir, dedikləri nə qədər həqiqətdir və danışdıqların nə qədər yaşamış adamdır. Budəfəki qonaqdan da bəhs edək. O, həm təhsil adamıdır, həm ictimai-siyasi həyatda sima olaraq qəbul edilən biridir, həm də Məcnundur. Qəribə uyğunsuzluqdur, eləmi? Eyni zamanda söhbət xalq artisti, Azərbaycan muğam sənətinin layiqli təmsilçilərindən olan, Azərbaycan Milli Konservatoriyasının professoru Mənsum İbrahimovdan gedəndə ən uyğun olanı da elə budur. Yəqin belə maraqlı uyğunsuzluq mütləq həm də eyni qədər maraqlı uyğunluluq təəssüratı yaratdı çoxunda. Qaldı Məcnunluq məsələsi, düzdür, o, səhnəmizin Məcnunudur. Əslində isə Mənsum müəllim müəllif olaraq təkcə mənə görə yox, yəqin ki, çoxuna görə ən böyük məcnunlardandır. Yəni, Məcnun olmaq bir az da onun həyat tərzidir. Çünki o, sənətinin də, dövləti və millətinin də gerçəkdən Məcnunu olan biridir.

*- Mənsum müəllim, hələlik Ağdama qayıda bilmirik, amma heç olmasa xatirələrə qayıda bilərik. Həyat sizin üçün hardan başladı?*

- Hərbi xidmətə qədər mən Ağdamda yaşamışam. Daha dəqiqi, Ağdamın İnamqululu kəndində doğulmuşam. Bizim olduğuna görə demirəm, gerçəkdən maraqlı kəndimiz var idi. Mənzərəsi də qəribə idi. Üç tərəfi meşəlik idi. Soltanpud meşəsi deyirdilər adına. O meşəni xan qızı Natəvan saldırmışdı. Onun oğlu da həmin kənddə yaşayıb. Uşaq idim, amma onun kəndimizdə böyük bir evinin olduğu yadımdadır. Qırmızı kərpicli, ikimərtəbəli çox böyük bir ev idi. Düzdür, sökülüb dağılmışdı bəzi yerləri, amma adamlar o evi qoruyurdu. Sonra baxımsızlıqdan uçulub getdi.

Bir də kəndimizin yanından axan Xaçın çayı yadımdadır. Soltanpud təpəsi isə uşaq yaddaşımın ən uca zirvəsi idi. O təpə Xankəndindən görünür. Maraqlı bir rəvayəti də var Sultanpud təpəsinin. İndi ora həm də bayraq meydanıdır. Hündürlüyü 70 metr olar ən azı. O vaxt yol yox idi. İndi bayraq meydanı inşa olunduğuna görə həm də yol çəkilib təpəyə. Uşaq vaxtı biz ora zülümlə qalxırdıq. Həm yolu pis idi, həm də qorxurduq hündürlüyündən.

### Sultanın Sultanpudu...

Rəvayətə görə həmin təpəni Sultan Süleyman saldırıb. Deyirlər ki, bir dəfə Sultan Süleymanın ordusu Aran Qarabağa gəlib. Bildirib ki, Qarabağı yüksəklikdən görmək arzusu var. Üç gün ərzində sultanın əsgərləri həmin təpəni düzəldiblər və sultan oradan Qarabağı seyr eləyib. Bilmirəm nə qədər həqiqətdir, amma ağlım kəsəndən belə eşitmişəm.

### Dirədöymə

Qarabağda uşaqlıq keçirib dirədöyməni bilməmək günah kimi bir şeydir. Bizim oralarda uşaqların ən sevdiyi oğlan oyunlarından idi dirədöymə. Bir ağırlığı var idi ki, ayaqlarımız çox əzilirdi. Xaçınçayda isə balıq tuturduq. Hər vaxt axmazdı o çay. Axanda da üzməyimiz, balıq tutmağımızın bir ayrı ləzzəti olurdu.

### Sultanpudda "Qarabağ şikəstəsi"...

Quzu nobatına hərə öz uşağını yollayırdı. Mən də çox quzu otarmışam uşaqlıqda. Yorulmurduq, maraqlı olanı bu idi. O qədər maraqlı keçirdi ki, heç səhər necə açıldı, axşam necə oldu bilmirdik. Demirəm ki, kənd həyatı asan idi. Amma biz buna öyrəşmişdik. Bizə rahat idi. Sultanpud oylağımız idi. Xan qızı o meşəni saldıranda həm də çoxlu meyvə ağacı əkdirmişdi. Nar, qoz, əzgil, qarellə, armud, alma ağacları nə qədər desəniz var idi. Biz yorulan kimi birbirimizə göz eləyib hərəmiz bir ağaca dırmanırdıq. Meyvələrdən yeyə-yeyə dincəlirdik, mahnı da oxuyurduq hərdən. Onda ağlımıza gəlmirdi ki, həm o meşənin, həm o ağacların, həm də kollektiv ifaların həsrətini çəkəcəyik nə zamansa. Elə bilirdik uşaqlıq bitmir heç vaxt. Böyüklər elə böyük, uşaqlar da uşaq qalırdılar.

*- Nə oxuyurdunuz?*

- Qarabağ şikəstəsi.

*- Kim yaxşı oxuyurdu?*

- Bəlkə də bu sizə qəribə gələr, amma mən uşaq olanda elə bilirdim ki, dünyada nə qədər adam varsa hamısı yaxşı oxuya bilir, yaxşı səsi var. Gözümü açıb elə görmüşdüm. Hamı oxuyur, hamının səsi var. Bilirsinizmi bir qarabağlını səslə, oxumaq bacarığı ilə təəccübləndirmək çox çətindir. Çünki Qarabağda hər iki adamdan birinin mütləq səsi var. Bizim kənd uşaqlarında ən yaxşı alınan iki ifa vardı: biri "Qarabağ şikəstəsi", o biri də "Şuşanın dağları". Başqalarını da ifa eləyirdik, amma elə bil bu ikisi cana daha yaxşı gəlirdi. Mən hərdən evdə atamın patefonunda dinlədiklərimi də ifa edirdim. Xan əmini, Cabbarı, Seyidi mən kənddə uşaq olanda dinləmişəm. Atam çox muğam sevən biri idi. O alırdı, mən də qoşulub ona dinləyirdim. Bəzən o olmayanda da risk eləyib qoşurdum patefonu. Yavaş-yavaş həm qulaq asırdım, həm də oxuyurdum. Düzünü deyim ki, evdə oxumurdum. Qaçıb meşədə təqlid eləyirdim. Utancaq uşaq olmuşam çox. O üzdən elə bilirdim adamlar görsə, gülə bilər, ya da məndə nə isə alınmaz, biabır olaram. Bir də bizim Quzanlı sovetliyində bir Mədəniyyət sarayımız vardı. İndi də durur. Orda böyük sənətkarlar konsert verirdi. Gedib baxırdım. Düzü, hərdən istəyirdim yaxınlaşım da. Amma utanırdım deyə etmirdim. Sadəcə, həsrətlə baxırdım ki, bəlkə nə zamansa mən də onlar kimi səhnəyə çıxa, ifa eləyə bilərəm.

### Allahverdi müəllimin məktəbi...

Kəndimizdə məktəb səkkizillik idi. İndi Quzanlı rayon mərkəzi olub, o vaxt sovetlik idi. Kəndimiz də ora tabe idi. Kəndlə Quzanlı arasında bir neçə kilometr məsafə vardı. Doqquz və onuncu sinfi bizim kənd uşaqları gedib orda oxuyurdular. Kənddəki məktəbimizin direktoru Allahverdi müəllim tarix üzrə mütəxəssis idi. İndi dünyasını dəyişib. Amma əvəzolunmaz şəxsiyyət idi. O qədər zəhimli idi ki, gələndə uşaqların səsi çıxmazdı. İndi bir balaca soyuq oldumu, valideynlər uşaqları dərsə buraxmırlar, amma Allahverdi müəllim qayda qoymuşdu, hava necə olur-olsun, qar dizə çıxsın, çovğun düşsün, uşaq məktəbdə olmalı idi, dərslərin hamısını bitirib evə getməli idi. Başqa cür mümkün deyildi. Əvvəllər bu, adama xoş olmur, sonra anlayırsan ki, o qaydalar olmasaydı, sən heç zaman indiki kimi ola bilməzdin. Bizə Allahverdi müəllimin uşaqları da deyirdilər bəzən. İndi hamımız ona duaçıyıq.

> **Haşiyə:** Bu arada içəri bir nəfər daxil oldu. Ona "axtarılanda tapılmayan adamlar" silsiləsindən biri də deyirəm həmişə. Səyavuş Kərimi, Azərbaycan Milli Konservatoriyasının rektoru gerçəkdən belə adamdır. Söz aldıq ki, növbəti qonaqlarımızdan biri də o olacaq. Qaldı yanımıza gəlməsinin məqsədinə. Həmsöhbətim, xalq artisti Mənsum İbrahimov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Prezident təqaüdünə layiq görülmüşdü, rektor da onu təbrikə gəlmişdi. İki böyük sənətkarın qısa təbrik söhbətindən sonra öz adımıza mən də bu təbrikə qatıldım və söhbətimizə elə qaldığımız yerdən davam elədik...

*- Cəzalandırırdımı sizi Allahverdi müəllim?*

- O qədər...

*- Nə üstündə?*

- Dərsə gecikirdim soyuq havalarda, buna görə tez-tez küncdə dururduq. Qalan məsələlərdə sözəbaxan uşaq olmuşam. Əsasən humanitar fənləri yaxşı oxumuşam. Xüsusilə də Azərbaycan dili və tarixi. O vaxt yaxşı oxumağım indi çox dadıma çatır. İndinin özündə də dünya və Azərbaycan ədəbiyyatını, klassikləri, xüsusilə qəzəlləri çox oxuyuram. Evdə böyük bir kitabxanam da var. Dincəlmək istəyəndə ən çox oturduğum yerlərdən biridir ora. Mütaliə edəndə ən yaxşı cəhətlərdən biri də odur ki, danışanda əziyyət çəkmirsən. Yəni, kitab adama elə keyfiyyətlər verir ki, sən onu yaşaya-yaşaya anlayırsan. Bunu heç bir məktəbdə qavraya bilmirsən. O üzdən hər gün heç olmasa iki səhifə oxumaq vacibdir.

### Bir müddət səsim işləmədi...

Həyatımın ən ağır mərhələsi o bayaq sizə dediyim səhnə həsrətimin heç vaxt bitməyəcəyini anladığım məqam oldu. Artıq yeniyetməlik dövrüm idi. Bir gün anladım ki, səsim yoxdur, oxuya bilmirəm. Mən o anın dəhşətini sizə təsəvvür etməkdə acizəm. Evdə də kimsə anlamır ki, bu niyə belə oldu? Nə baş verdi axı? Çox sonralar atam həkimlə danışdı. Ona izah elədilər ki, bu, əslində, normal haldır. İnsanın keçid dövrü ilə bağlı olan məsələdir. Sonra mən hərbi xidmətə getdim. Amma yenə də ifa eləyə bilmirdim. Hərbi xidməti Moskvada keçmişəm. Yanımda çoxlu azərbaycanlı uşaqlar vardı, həm də musiqidən başları çıxırdı. Bir gün onlar ifa etməyə başlayanda mən də asta-asta özüm üçün zümzümə elədim. Nəticəyə inana bilmirdim. Səsim qayıtmışdı. Ondan sonra elə uşaqlara qoşulub konsertlər hazırlayırdıq ki, həm maraqlı olsun, həm də hərbi xidmətdə zaman keçsin.

### Mən indi də kənd uşağıyam...

*- Populyarlıq sizdə nəyi dəyişdi?*

- Heç nəyi. Mən indi də kənd uşağıyam. Bizim kənd uşağı olmağımızın böyük üstünlükləri var şəhərdəkilərdən. Zəhmətə, işləməyə, daha artığını etməyə meyilliyik. Nəticə hər zaman əla olmalıdır. Başqa yol yoxdur. Bunu mənə birinci atam, sonra müəllimlərim izah edib. Mən indi də tez-tez gedirəm kəndə. Sultanpuda mütləq qalxıram. Səsim də başqa cür olur orda. Bəlkə də bu, psixoloji bir məqamdır. Buna hərdən səsin Qarabağ pəncərəsi də deyirəm özümdə. Çünki orasız çox çətin olar adama, lap çox çətin.

*- Uşaqlığınızın nəyindən ötrü darıxırsınız? Hansı məqam bir də geri gəlsin deyirsiniz?*

- İndiki kimi normal deyildi maddi durum. Çox çətinliklər vardı. Ailədə də doqquz uşaq idik. İki bacı, yeddi qardaş. Amma o qədər iş və kasıblıqla təkcə biz yox, uşaqlı-böyüklü hər kəs xoşbəxt idi. Niyə? İnanın indi də anlaya bilmirəm. Amma elə bil adamlar, insanlıq, standartlar o qədər başqa idi ki, həmin o göstəricilər insanı xoşbəxt edə bilirdi. İndi elə bil insanlarda həmin o xoşbəxtlik çatmır. Mən onun geri gəlməsini istəyirəm. İnanın yenə də kəndə gedirəm, həmin yerləri gəzirəm, amma o hissi yaşaya bilmirəm.

*- Bəlkə deyək ki, insanlar və nəsil dəyişib?*

- Bu, tam səbəb ola bilməz. Mütləq başqa nəsə də var. Müəllimlərimdən həyatda olanı da var. Gedib onlara da baş çəkirəm, amma olmur ki, olmur. Bəlkə də mən elə özümü axtarıram o kənddə, uşaq Mənsumu. Ola bilər tapmıram deyə pis oluram.

**"Məktəb illəri"**







*- İndi siz o zirvədəsiniz ki, gənc nəslin məsləhətinizə, sözünüzə ehtiyacı var.*

- Daha çox valideynlərədir sözüm. Uşaqları ən yaxşı etməyə çalışırlar. Əla iddia və istəkdir. Amma bunu uşağı robotlaşdıraraq etmək də olmaz. Davamlı müəllim yanına getmək, oxumaq, yükləmək. Bunun bəzən yaxşı nəticəsi olmur. Biz savad veririk, amma uşaq milli kökdən uzaqlaşır, ölkəsinə yadlaşır, fərqli psixologiyada olur. Bu, çox təhlükəlidir. Yaxşı övlad yetişdirmək təkcə onu ağıllı böyütmək demək deyil. Azərbaycanda elə bir yer yoxdur ki, övladlarımı ora aparmayım. Rəhmətlik Xudu Məmmədov deyirdi ki, ölkəni sevdirmək yox, tanıtmaq lazımdır. Siz tanıdın, qoyun sevib-sevməmək qərarını o özü versin. Əmin olun, mütləq sevəcək. Çünki qərarı müstəqil verib. Çünki bu ölkədə sevilməyəcək nəsə yoxdur. Ancaq bundan sonra uşaqdan savadlı və yaxşı kimsə yetişdirməyə başlamaq olar.

Nəyin əleyhinəyəm deyim sizə. Uşaqları xarici dildə bağcaya, məktəbə qoyurlar. Uşaq dilini lazımi qədər öyrənə bilmir, sevə bilmir. Düzdür, müasirliyin bir tələbi də xarici dilləri gözəl bilməkdir. Amma bunu öz dilimizin üstündən xətt çəkməklə etmək valideynin bağışlanmaz səhvidir. Bundan mütləq çəkinmək lazımdır. Uşaq ingilis və rus dilində düşünüb, Azərbaycan dilində danışmamalıdır. Uşaq Azərbaycan dilində düşünüb danışıb, sonra onu ingiliscəyə, ya da rus dilinə çevirib ifadə etməlidir. İkinci olmasa, millilik və kök mütləq itir. Biz sadəcə insan yox, vətəndaş yetişdirməliyik. Bizə, torpağı işğalda olan adamlara yaxşı vətəndaş da lazımdır. Bunsuz qəti olmaz. Sevmədən heç nəyi, heç kimi qorumaq olmur. O üzdən dövləti də, milləti də, bayrağı da sevək və uşaqlara sevdirək ki, qoruya da bilək...

# Məktəblilərin "Sağlam həyat tərzi"

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində "Ekoloji aylıqlar" layihəsi çərçivəsində may ayı "Sağlam həyat tərzi" mövzusuna həsr olunub.

Verilmiş mövzunun reallaşdırılması baxımından təhsil müəssisələrinə sərbəstlik verilib.

Mövzunun seçilməsində əsas məqsəd şagirdlərin diqqətini sağlam həyat tərzinə yönəltmək, onları bu barədə daha geniş maarifləndirməkdir.

Bakı şəhərinin 12 inzibati rayonunun hər birində pedaqoji kollektiv və məktəblilər tərəfindən "Sağlam həyat tərzi" mövzusu üzrə elmi konfrans, müsabiqə, yarış, "açıq dərs", sərgi və ekskursiyaların keçirilməsi, müxtəlif araşdırmaların aparılması nəzərdə tutulub.

Qeyd edək ki, may ayının sonunda mövzuya uyğun olaraq "Ayın ən sağlam məktəbi" nominasiyası üzrə qalib məktəb seçiləcək.

Qalib məktəb orijinallıq, mövzunun əhatəliliyi, fəaliyyətin müxtəlifliyi, şagirdlərin bacarıqlarının formalaşdırılmasına xidmət edən fəaliyyət zənginliyi, layihədə müxtəlif yaş qrupunu təmsil edən şagirdlərin iştirakı, mövzunun ekoloji problemləri əhatə etməsi, hesabatların təqdim edilməsində təsdiqləyici materialların mövcudluğu (foto və s.) kimi meyarlara əsasən müəyyən olunacaq.

# Kitab Mərkəzinə ekskursiya

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində ""Azərkitab" Kitab Təbliğat Mərkəzinə ekskursiyalar" layihəsinə start verilib.

Layihənin məqsədi şagirdlər arasında sistemli mütaliə işinin təşkili, onların mütaliəyə həvəsinin daha da artırılması, mənəviyyatının zənginləşməsi, dünyagörüşünün və bilik dairəsinin genişləndirilməsi, şagirdlərlə müəlliflər arasında canlı təmasın yaradılmasından, eyni zamanda, məktəb kitabxanalarının məqsədyönlü şəkildə komplektləşdirilməsinə yardım etməkdən ibarətdir.

Qeyd edək ki, bu layihə çərçivəsində "Azərkitab" Kitab Təbliğat Mərkəzinin ilk ekskursantları Yasamal rayonundakı ümumi təhsil müəssisələrinin müəllimləri, şagirdləri və kitabxanaçıları olub.

Ekskursiya zamanı şagirdlər Kitab Mərkəzinin müxtəlif struktur bölmələri, konfrans, oxu, sərgi, kiçikyaşlı uşaqlar üçün nağıl zalları və işgüzar istirahət (co-working) məkanı, kitab kafesi ilə tanış olublar. Mərkəzdə keçirilməsi nəzərdə tutulan kitab təqdimatları, müzakirələri, imza günləri, müxtəlif müsabiqələr, yaradıcılıq gecələri haqqında məktəblilərə ətraflı məlumat verilib.

Ekskursiyaya gələnlərlə mərkəzin əməkdaşları arasında geniş fikir mübadiləsi aparılıb. Belə layihələrin keçirilməsinin uşaqlarda mütaliə mədəniyyətinin formalaşması ilə yanaşı, kitabların təbliği işinə də müsbət təsir göstərəcəyi nəzərə çatdırılıb.

# “Mükafatlarım çoxaldıqca məsuliyyətim də artır ”

## *Çinarə Əzimova:* “Qarşıda məni çox sınaqlar, imtahanlar gözləyir”



**Sifai SƏFƏROVA**

Çinarə Əzimova qeyri-adi istedad sahibidir. O, Bakıdakı Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin IX sinfində təhsil alır. Bir çox beynəlxalq müsabiqə və festivallarda nailiyyətlər qazanan bu yeniyetmənin də adı 2015-ci ilin iyulunda Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Azərbaycanın gənc istedadlarının ”Qızıl kitabı”na yazılıb və o, Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülüb.

Onunla təhsil aldığı məktəbdə görüşüb söhbətləşirik: – Bu gün saat ikidə skripkadan imtahanımdır, – deyir. – Üç imtahan vermişəm, hamısından da “5” qiymət almışam. Bu gün də “5” alacağıma əminəm. Çünki ciddi hazırlaşmışam. Azərbaycan bəstəkarı Musa Mirzəyevin “Adajio” və “Vals-skertso” əsərlərini, dünya bəstəkarı G.Venyavskinin konsertini və İ.S.Baxın əsərlərini ifa edəcəyəm. İmtahanı da xalq artisti Teymur Göyçayev götürəcək. Sinif yoldaşım Mehriban Xudiyeva deyir ki, sən narahat olma, həmişə “5” qiymət almısan və bu gün də “5” alacaqsan. Doğrusu, mən imtahanlarda sərbəst oluram. Həyəcan nə olduğunu bilmirəm.

### “Musiqi mənim həyatımdır”

2002-ci ildə Bakıda musiqiçi ailəsində anadan olmuşam. Atam Mehman Əzimov vaxtilə zərb alətlərində çox gözəl ifa edib. Hazırda paytaxtdakı 28 nömrəli uşaq musiqi məktəbinin direktorudur. 2008-ci ildə Bakı şəhəri 9 nömrəli uşaq musiqi məktəbinin skripka ixtisası üzrə I sinfinə qəbul olunsam da, sonradan təhsilimi 28 nömrəli uşaq məktəbində davam etdirmişəm. 2011-ci ildə isə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin skripka üzrə IV sinfinə daxil oldum və vokal ixtisası üzrə dosent, fəlsəfə doktoru İradə Xəlilovanın sinfində təhsil aldım. İradə xanım mənim anam olsa da, dərs zamanı onu müəllim kimi qəbul edirəm. Ümumiyyətlə, bütün dərslərimi əla oxuyuram. Bacım Aydan Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alır. Onun da 7 illik musiqi təhsili var. Bakıdakı 9 nömrəli uşaq musiqi məktəbini bitirib. Amma onun musiqiyə həvəsi mənim qədər deyil. Mən isə musiqisiz yaşaya bilmərəm. Musiqi mənim həyatımdır.

### “7 yaşım olanda laureat adını qazandım”

7 yaşım olanda Leopold və Mstislav Rostropoviçlər adına “Gənc ifaçıların I Bakı müsabiqəsi”nə qatıldım və laureat adını qazandım. 2013-cü ildə Estoniyanın Koxtla-Yarve şəhərində keçirilən gənc vokalçıların VIII beynəlxalq müsabiqəsində iştirak edərək tamaşaçıların alqışlarına qərq oldum və Qran-pri mükafatına layiq görüldüm. Həmin ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunan gənc ifaçıların II Respublika müsabiqəsində vokal ixtisası üzrə laureat adını qazandım.

### “Qran-pri mükafatına layiq görüldüm”

Latviyanın paytaxtında gənc vokalçıların beynəlxalq Riqa Symphony festivalı keçirilirdi. Müsabiqədə 20-dən çox ölkədən solistlər və ansambllar iştirak edirdilər. Münsiflər heyətinin təşkilatçılıq işində və festivalın ustad dərslərində iştirak etmək üçün ABŞ, Britaniya, İtaliya, Rusiya və digər ölkələrin tanınmış pedaqoq və vokalçıları Riqaya dəvət olunmuşdular. Vokalçıların bu müsabiqəsində Azərbaycanı Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin yetirmələrindən Mərziyə Hüseynova, Elara Əliyeva, Sona İsgəndərli və mən təmsil edirdim. Bizim kollektivə anam - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin vokal kafedrasının dosenti İradə Xəlilova rəhbərlik edirdi. Bu müsabiqədə mən Qran-pri mükafatına layiq görüldüm. Akademik vokal nominasiyasında Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa etdim. Həmkarlarım da mükafatlandırıldılar.

### “İxtisasıma uyğun çoxlu kitablar oxuyuram”

Mükafatlarım çoxaldıqca məsuliyyətim də artır və daha da əzmlə çalışıram. İxtisasıma uyğun çoxlu kitablar oxuyuram. 2014-cü ildə Moskva şəhərində keçirilən 1 iyun ”Uşaqların Beynəlxalq Müdafiəsi Günü”nə həsr olunan möhtəşəm tədbirə dəvət olunanda sevincim yerə-göyə sığmırdı. Hər çıxışı özüm üçün bir imtahan sanırdım və bu imtahandan üzüağ çıxmağa nail olurdum. Moskvanın Böyük Kreml Sarayında keçirilən "Melodika pokoleniy" adlı II Beynəlxalq Uşaq Musiqi Festivalında da Azərbaycanı layiqincə təmsil etdim. Mənimlə bərabər Belarus, Çin, Qırğızıstan və Rusiyadan olan istedadlı vokalçılar Kreml Sarayının Georgiyevsk zalında Prezident Orkestri ilə çıxış edirdilər. 25-30 avqust 2014-cü il tarixlərində isə Sankt-Peterburqda görkəmli opera müğənnisi Yelena Obraztsova adına gənc vokalçıların V beynəlxalq müsabiqəsinə və ispan vokal ustadı Konçita Badianın xatirəsinə həsr olunmuş kamera musiqisi beynəlxalq müsabiqəsi keçirilirdi. Dünyanın 11 ölkəsindən 147 gənc vokalçı bu müsabiqəyə qatılmışdı. Sevinirdim ki, mən də onların sırasındayam və ölkəmizi təmsil edirəm. Həmin müsabiqədə II yerə layiq görüldüm. Sentyabrın 1-də D.Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasının böyük zalında keçirilən qaliblərin təltifolunma mərasimində və yekun konsertində çıxışım tamaşaçılarda xoş ovqat yaratdı. Həmin ilin noyabrında ”Kapellhaus” Alman-Azərbaycan Mədəniyyət birliyində Barokko musiqi axşamında dünya bəstəkarlarının əsərlərindən parçalar ifa etdim.

### “Festivala istedadlı uşaqlar qatılmışdı”

2016-cı ilin fevralında isə Tailandın Banqkok şəhərində keçirilən beynəlxalq festivalda iştirak etdim. Bütün ölkələrdən bu festivala istedadlı uşaqlar qatılmışdı. Orada mən Azərbaycanın milli mahnılarını ifa etdim. Məni və başqa ölkələrdən olan uşaqları Banqkok televiziya kanalına dəvət etdilər. Hər kəsə mikrofon verdilər. Hansı ölkədən olduğumuzu söylədik. Orada Gürcüstandan, Belarusdan, Rusiyadan olan uşaqlar ilə ünsiyyətdə olurdum. Hər axşam bir-birimizə yaşadığımız şəhərin mədəniyyətindən, tarixi abidələrimizdən söz açırdıq. Hindistandan olan Aditi ilə dostluq edirdim. İngilis dilində danışırdıq. Azərbaycana gəlmək arzusu ilə yaşayır. Mən söz verdim ki, nə vaxtsa onu Azərbaycana dəvət edəcəyəm. Bakıdan apardığım Azərbaycan haqqında bukleti ona verdim. 5 gün Banqkokda qaldıq. Tunisdən Aya ilə də dostlaşmışdım. Olduğumuz şəhər çox gözəl idi...

### “Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa etdim”

2017-ci ilin yanvarında tanınmış skripkaçı, xalq artisti, sevimli müəllimim, çoxşaxəli yaradıcılığından bəhrələndiyim Zəhra Quliyevanın Azərbaycan Dövlət Filarmoniyasında keçirilən yubiley konsertində Dövlət Simfonik Orkestri ilə Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa etdim. Konsertdə vaxtilə Zəhra Quliyevanın şagirdi olan Mustafa Mehmandarov mənə dirijorluq edirdi. O, Avstriyadan, Cəmilə Qarayusifli İsveçrədən, Anar Seyidov Rusiyadan təşrif buyurmuşdular. Skripkada ifamı çox bəyəndilər və məni təbrik etdilər. Azərbaycan bəstəkarları Üzeyir Hacıbəylinin, Tofiq Quliyevin, Qara Qarayevin, Vasif Adıgözəlovun əsərlərini ifa etməkdən zövq alıram. U.Şekspirin, F.Dostoyevskinin, A.Puşkinin, L.Tolstoyun, Y.Lermontovun əsərlərini sevə-sevə oxuyuram.

### “Aldığım təqaüdün çox hissəsini musiqi ilə bağlı ədəbiyyatlara xərcləyirəm”

Qazandığım bütün uğurlarda müəllimlərim xalq artisti, professor Zəhra Quliyevanın və anamın əməyi danılmazdır. Yeri gəlmişkən deyim ki, adımın “Qızıl kitab”a düşəcəyi, xüsusi təqaüdə layiq görüləcəyim haqda heç bir məlumatım yox idi. Bu xəbəri eşidəndə sevincimin hədd-hüdudu yox idi. Həmin gün evdə idim. Telefon zənginə anam cavab verdi. Zəng edən məktəbimizin direktor müavini Aytən Əhmədova idi. Mənə görə anamı təbrik edirdi. Sonra anam, atam və bacım məni təbrik etdilər. Şübhəsiz bu, çəkdiyim əziyyətin bəhrəsi idi. Aldığım təqaüdün çox hissəsini musiqi ilə bağlı ədəbiyyatlara xərcləyirəm. Çox pul xərcləməyi də sevmirəm. Hazırda imtahanlarla bərabər gələcək müsabiqə və festivallara da ciddi hazırlaşıram. Qarşıda hələ məni daha böyük sınaqlar gözləyir.

*...Çox təəssüf ki, mən bu dilli-dilavər qızın ifasında bir musiqi nömrəsini dinləyə bilmədim. Ancaq o danışdıqca sanki ifa etdiyi melodiyaların qanadlarında pərvazlanırdım. Görkəmli sənətkarların insanı ram edən, ağrı-acısına məlhəm olan ifaları qulağımda əks-səda verirdi və öz-özümə düşünürdüm ki, nə vaxtsa mənim bugünkü qəhrəmanım, sözlü-söhbətli yeniyetmə musiqiçinin də əsərləri tarixin musiqi yaddaşında özünəməxsus yer tutacaq. Onda hamı kimi mən də sevinəcəyəm bu vətən qızının nailiyyətlərinə və ifa etdiyi mahnıları ən kədərli anlarımda belə xoş ovqat qatacaq ruhuma.*

# Çempion əmioğlular



Uğur İSMAYIL

## *Fikrət İsmayılov, Avropa və dünya çempionu:* “Atam ən çox təhsil almağıma üstünlük verib”



Fikrət İSMAYILOV

**Rəşad ZİYADOV**

Uşaqların fiziki inkişafı, sağlamlığının qorunması, idmana cəlb olunmasına ölkəmizdə xüsusi diqqət yetirilir. Böyüməkdə olan nəslin idmanla məşğul olması üçün respublikamızda bütün imkanlar mövcuddur. İdmanın müxtəlif növlərinin sirlərinə yiyələnən uşaqlar milli komandalarımızın ehtiyat qüvvəsi sayılır. Bu baxımdan onların erkən yaşlardan idmanla məşğul olmaları vacibdir. Haqqında söhbət açacağım Uğur İsmayıl və Fikrət İsmayılov da belə balaca idmançılarımızdandır. Onlar həm də əmioğludur. Hər ikisi də idmanın kinq-boksinq növü ilə məşğul olur. Uğur Bakıdakı 100 nömrəli tam orta məktəbin II, Fikrət isə IV sinif şagirdləridir. Balaca qəhrəmanlarımla yaxından tanışlıq üçün onların məşq etdiyi zala – “Turan” İdman Klubuna yol aldıq.

### 6-8 yaşlılar arasında Avropa çempionu

Əvvəlcə sizləri 8 yaşlı Uğur İsmayılla tanış etmək, onun məşğul olduğu kinq-boksinqdə əldə etdiyi uğurlarından söhbət açmaq istərdim. Balaca Uğur 2009-cu il aprelin 4-də Bakıda anadan olub. 5 yaşından idmanın kinq-boksinq növü ilə məşğuldur və təcrübəli məşqçi müəllim Ruhi Hüseynovdan bu idman növünün sirlərini öyrənir. Uğurlarına gəldikdə isə o, 2014-cü il oktyabrın 26-da şaolin-sanda döyüş növü üzrə klublararası açıq birincilikdə yeniyetmələr arasında 24 kq çəki dərəcəsində I yerə layiq görülüb. Bundan başqa, 2015-ci ilin aprelində Ukraynanın Lvov şəhərində keçirilən 6-8 yaşlılar arasında kinq-boksinq üzrə Avropa çempionatında 27 kq çəkidə I yeri tutaraq çempion olub. O, 2015-ci ilin dekabr ayında Bakıda keçirilən beynəlxalq turnirdə də I yerə çıxıb. Bundan başqa, Uğur həmin ildə Gənclər və İdman Nazirliyi tərəfindən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş 50-yə yaxın idmançının iştirak etdiyi açıq birincilikdə 21 kq çəki dərəcəsində I yeri tutub.

### Həm idmanda, həm təhsildə birinci

IV sninf şagirdi Fikrət İsmayılovun isə idmanda uğurları xeylidir. O, 2007-ci il martın 15-də Bakıda anadan olub. 10 yaşlı idmançı bu gün təmsil etdiyi “Turan” İdman Klubunda özündən yaşca böyük idmançılarla birgə məşq edir. Klubun ən kiçik üzvlərindən olan Fikrət yaşının az olmasına baxmayaraq, komanda yoldaşları ilə eyni fiziki hərəkətləri yerinə yetirir, döyüşlərdə özündən böyük idmançılarla gücünü sınayır. 5 ildir ki, idman klubunda kinq-boksinqlə məşğul olan bu çempion Azərbaycanı beynəlxalq yarışlarda ləyaqətlə təmsil edəcək idmançılardandır. Məşqçisi Ruhi Hüseynovun tövsiyələrinə əməl edən perspektivli idmançı mübarizə apardığı yarışlarda dəfələrlə birinci yeri tutub. Belə ki, o, 2014-cü ildə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş turnirdə bütün rəqiblərini üstələyərək I yerə layiq görülüb. Həmin il dekabrın 5-də Ukraynanın Xarkov şəhərində 8 yaşlı kinq-boksinqçilər arasında keçirilən dünya çempionatında I yerə sahib çıxıb və Vətənimizə qızıl medalla dönüb. 2015-ci il də onun üçün uğurlu olub. O, həmin ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş vinq çun-kunq fu üzrə açıq Bakı turnirində 23 kq çəki dərəcəsində fəxri kürsünün birinci pilləsində yer alıb. Xocalı soyqırımına, 20 Yanvar faciəsinə, həmçinin Dövlət Müstəqilliyi Gününə həsr olunan turnirlərdə Fikrət İsmayılov bütün döyüşlərini qələbə ilə başa çatdırıb.

O, 2015-ci ildə iştirak etdiyi daha iki yarışdan qızıl medalla ayrılıb. Belə ki, 2015-ci ilin aprel ayında Ukraynada 6-8 yaşlı idmançılar arasında Avropa çempionatında 25 kq çəkidə fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq I yerə layiq görülüb. Balaca kinq-boksinqçi həmin il noyabrın 29-da “Şaolin-sanda” İdman Klubunun şaolin-sanda döyüş növü üzrə açıq birincilikdə 30-a yaxın idmançı arasında fərqlənərək Azərbaycan Şaolin Döyüş Sənəti Federasiyası tərəfindən “Ən yaxşı idmançı” kuboku ilə mükafatlandırılıb. 2016-cı il də məktəbli idmançı üçün uğurlu keçib. Belə ki, açıq Bakı turnirində, açıq Bakı kubokunda və şaolin-sanda döyüş sənəti üzrə təşkil olunan paytaxt çempionatında Fikrət birinci yerə layiq görülüb. Həmin il noyabrın 30-da Gürcüstanda keçirilən beynəlxalq turnirdə rəqiblərini təmiz qələbə ilə məğlub edərək fəxri kürsüdə öz yerinə sahib çıxıb. Onun demək olar ki, iştirak etdiyi bütün yarışlarda fəxri kürsünün ən yüksək pilləsində yer alması məktəbli idmançının gələcəkdə ölkəmizi beynəlxalq turnirlərdə yüksək səviyyədə təmsil edəcəyini deməyə əsas verir.

Fikrət həm də dərs əlaçısıdır. Təsadüfi deyil ki, o, 2014-cü ildə məktəb rəhbərliyi tərəfindən “İlin intellektual şagirdi” diplomuna layiq görülüb.

Fikrətlə söhbət zamanı məlum oldu ki, onun idmana gəlişi dayısının istəyi ilə baş verib. Dediyinə görə, dayısı da məşhur idmançılardandır: “Dayım Turqay Nəsibovun idmana olan sevgisi məni də bu idman növünə həvəsləndirdi. O da kinq-boksinqlə məşğul olur. Dəfələrlə dünya və Avropa çempionatlarının qalibidir. Onun idmançı olması mənə də təsir etdi. Balaca vaxtı məni məşqlərə aparırdı. Fiziki gücümü artırmaq üçün məşqlər etdirirdi. O, məndə idmançı potensialını görürdü. Həmişə valideynlərimə deyirdi ki, Fikrəti idmana yazdırın, mütəmadi məşqlər etsin. Anam razı olsa da atam istəmirdi ki, mən idmançı olum. O, ən çox mənim təhsil almağıma üstünlük verib”.

Fikrətlə söhbət zamanı onu da öyrəndik ki, böyüyəndə idmançı kimi yox, başqa sahədə tanınmaq istəyir: “Arzum böyüyəndə polis olmaqdır. Özü də yol polisi. Atam isə məni prokuror kimi görmək istəyir”.

**“Turan” İdman Klubunun baş məşqçisi Ruhi Hüseynov kiçikyaşlı Uğur və Fikrətin imkanlarını yüksək qiymətləndirir:** “Onlar klubda ən kiçik yaşlı idmançılardandır. Uşaqların bu yaşda idmanla məşğul olması çox yaxşıdır. Bu yaşda məşğul olan idmançılar sonradan peşəkar idmanda daha böyük uğurlar qazana bilirlər. Məşq etdiyi dövrdən bu iki əmioğluda çox böyük irəliləyişlər var. Onların qavrama qabiliyyəti yüksəkdir. Fiziki hazırlığı da çox yaxşıdır. Fikrət əmisi oğluna nisbətən daha cəld və zəhmətsevər idmançıdır. Bəzən kiçikyaşlı idmançılar fiziki məşqlərə dözmürlər. Amma Fikrət 7-8 yaşlı idmançıların fiziki yükünü yorulmaq bilmədən yerinə yetirə bilir”.

Biz də balaca idmançılarla yeni-yeni uğurlara imza atmaq arzusuyla sağollaşdıq.

## Şəhid, şəhid balası və Azərbaycan bayrağı



**Rafiq YUSİFOĞLU,**
*Sumqayıt Dövlət Universitetinin professoru*

*Televiziyada torpaqlarımız uğrunda döyüşlərdə həlak olan taqım komandiri, kapitan Nəcməddin Savalanovun dəfn mərasimindən hazırlanan süjet verirdilər. Onun körpə qızının atasının məzarı başında mənim "Üçrəngli bayraq" şeirimi söyləməsi hamını ağlatdı. Ekranın bu üzündə mən də göz yaşlarımı saxlaya bilmədim...*

Üçrəngli bayrağım
göyqurşağı kimi şəfəq saçır,
onun rəngləri nur saçır,
heç zaman deyil solası.
Bayrağımın altında
şəhid uyuyur,
Bayrağımın üstündə
"Üçrəngli bayraq" şeirini
oxuyur şəhid balası...
İntiqam almaq istəyi
onlara rahatlıq vermir,
nə mürgüləyə,
nə yata bilirlər. -
Şəhid oğullarımız
bayrağa bükülüb
dəfn olunduğundan,
şəhid övladları
bayrağı özlərinə
ata bilirlər...
Bəsdi uyuduğumuz,
İlin-günün bu vədəsində
bu nə mürgüdü,
bu nə yuxudu?
Bayraqları dalğalandıran
küləklər deyil,
şəhidlərin intiqama səsləyən
ruhudu...

## Qarabağdan gələn səs

Cəbhədən zəng eləyib, sən mənimlə danışdın,
Dedin ki, səsinizi mən eşitmək istədim.
Bu səs necə doğmadı, bu səs necə tanışdı!
Qarabağdan gələn səs bir sehrli bəstədi...

Bu səsi eşidəndə sızlayan qəlbim güldü,
Elə bil dağ havası hopmuşdu o nəfəsə...
Bu səsdən Qubadlının, Laçının ətri gəldi,
Həkərinin laylası qarışmışdı o səsə.

Ayrılığın sazağı qəlbimi üşüdəndə
Öp mənim əvəzimdən neçə çayı, çeşməni...
Mənim səsim titrədi səsini eşidəndə,
Sənin əlin əsməsin məhv edəndə düşməni.

Yağıdan azad olan torpaq alsın dincini,
Bizi tərk eləməsin yaşamaq həvəsimiz.
Zəng edib böl mənimlə qələbə sevincini,
Doğma Şuşadan gəlsin yenə qadir səsimiz...

## Bu gecə sübhəcən...

Qəlbimə tuşlanan dərd nizə-nizə,
Saralıb yarpağım, solub güllərim.
Nə ata-anama, nə evimizə,
Nə də kəndimizə yetir əllərim.

Bəs qalan ömrümü kimə həsr edim?
Doğma diyarımda qəribəm, qərib.
Bu gecə əriyib sonsuz həsrətim,
Kənddəki evimiz yuxuma girib.

...Yağış qoymurdu ki, alışam, yanam.
Baxırdım buludu biçən işığa.
Evin bir küncündə əyləşib anam,
Yemək yedirdirdi körpə uşağa...

Döyürdü buludu şimşək qamçılar,
Sanki ölüm-dirim savaşı idi...
Evimiz damırdı, axan damcılar,
Nigaran ruhların göz yaşı idi...

Şimşək oynayırdı bulud içində,
Külək işardırdı kül altda közü.
Dağlar dayanmışdı sükut içində,
Pəyhanın, Qısrağın dolmuşdu gözü...

Kimsə eşitməsin qoy ahlarımı,
Ruhuma şəfəqlər səpirdi Allah.
Ot basan cığırlar ayaqlarımı
Necə qucaqlayıb öpürdü, Allah?!

Bu yerdə kəsək də, daş da doğmadı,
Burda ətir saçır qaratikan da.
Bu yerdə payız da, qış da doğmadı,
İnsan darıxarmı doğma məkanda?!

Yaxına gəlmişdi sanki uzaqlar,
Mən Qızıl qayadan durub baxanda.
Ətirli yamaclar, sərin bulaqlar
Bizi darıxmağa qoymaz bir an da.

Burda qərib deyil yalquzaq qurd da,
Gül tək bu torpaqda bitsəm, solmaram.
Bu doğma məkanda, bu doğma yurdda,
Yüz il tək yaşasam tənha qalmaram...

...Yuxudan durmuşam, gözlərim şişib,
Ağac tək kök atıb, rişələnmişəm.
Xatirə közləri içinə düşüb,
Bu gecə sübhəcən pörşələnmişəm...

## Mənim dilim



**Elmira İSMAYILOVA,**
*pedaqogika üzrə fəlsəfə doktoru*

Qayaların sərt qəlpəsi,
Zirvələrin şəlaləsi.
Bəzən cəngi sədasıdır,
Bəzən yanıq ney naləsi
Mənim dilim...

Yaşıl çəmən, sıx meşədir,
Tarixlərə güzgü tutan,
Bir güzgüdür, bir şüşədir.
Qar altında boy aldıran
Ətir saçan bənövşədir,
Mənim dilim...

Qobustanda daşa dönmüş
Tarixləşən, insan ömrü,
Qanad açıb quşa dönmüş
Milyon illik cahan ömrü,

Bir bəşəri sərvətimdir,
Mənim dilim...

Dədəm Qorqud qopuzunda
Dilləndikcə cilalanan,
Neçə kərə dərdə düşən, odda qalan
Yaddaşlardan silindikcə yadda qalan,
Ən kəsərli qılınclara meydan açan
Mənim dilim...

Yağılara baş əyməyən Qız qalası,
Naxçıvanda Əlincədir,
Savalanda Bəzz qalası.
Vətən üçün döyüşçüdür,
Millət üçün söz qalası
Mənim dilim.

Nə yaxşı ki, bu dünyanın
Dərbəndi var, Təbrizi var.
Nə yaxşı ki, vətənimin
Bu dünyada öz sözü var.

Bu söz səndən gəlib keçir
Kəlmə-kəlmə mənim dilim.
Minbir xalı toxuyursan
İlmə-ilmə mənim dilim.

Sən anamın laylasısan,
Sən ruhumun mayasısan.
Səndən mənə candı gələn,
Səndən mənə qandı gələn,
Səni duyan vəcdə gəldi
Çox elədi heyrət dilim,
Şərəf dilim, qeyrət dilim!
Ana dilim...

## Xəyalın dağlara uçan vaxtıdır...



**Əyyub ŞIRLANLI,**
*əməkdar müəllim, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

Pənah babamızın öz əlləriylə,
Bir şəhər salınıb dağ zirvəsində.
Bu şəhər hər gecə yuxuma girir,
Cabbarın, Seyidin zümzüməsində.

Bu şəhər şəhərlər şahənşahıdır,
Bu şəhər Günəşlə, Ayla qoşadır.
Bu şəhər dünyanı heyrətə salıb,
Adı Pənahabad - adı Şuşadır!

Heyf ki, əsirdir düşmən əlində,
Pənahın şəhəri - möhtəşəm Şuşa.
Vətən Qarabağın zümrüd tacına,
Nə qədər kənardan edək tamaşa?!

Dostlar, qınamayın şairləri siz,
Xəyalın dağlara uçan vaxtıdır.
İndi "Topxana"da, Cıdır düzündə,
Lalənin, nərgizin açan vaxtıdır.

İndi cəh-cəh vurur orda bülbüllər,
Meşələr, bulaqlar çağırır bizi.

İndi məclis qurub "Ağzıyastı"da,
Vaqif, Zakir, Nəvvab, Xan əmi özü.

Sizdən nə gizlədim: ləl-gövhər yatır,
Şuşa torpağının hər guşəsində.
Özgə gözəllik var, özgə ətir var,
Şuşa torpağının bənövşəsində.

Natəvan çıxıbdır Cıdır düzünə,
Şuşanın qənirsiz gözəlləriylə.
Xanəndə "Segah"la qəlb ovsunlayır,
Füzuli babamın qəzəlləriylə!

Gözündən öpürəm hər axşam-səhər,
Gördüyüm dağların, buz bulaqların.
Həsrətin çəkirəm Şırlanımdakı
Qoyunlu-quzulu göy yaylaqların.

İçimdən boylanıb qalxan duyğular,
Çəkir xəyalımı dağ zirvəsinə.
Söykənib bir daşa qulaq asıram,
Daşaltı çayının zümzüməsinə.

Kəsir məftilləri, keçir sədləri,
Dahi Üzeyirin "Uvertura"sı.
Düşmənə əbədi gözdağı olub,
Şahbulaq, Əsgəran, Şuşa qalası!!!

Dostlar, çiçəklərin, güllərin şahı,
Xarıbülbül gülü çağırır bizi.
Eşidin səsimi, ay şuşalılar,
Yollarda qalıbdı Şuşanın gözü.

İnana bilmərəm bənzəri olsun,
Əyyubun ruhunda qalan Şuşanın!
Görəsən dünyada bənzəri varmı,
Dünyanı heyrətə salan Şuşanın?!

## Tonqal



**Məhəmməd TURAN,**
*Şəmkir şəhər Əhməd Cavad adına tam orta məktəbin XI sinif şagirdi*

Boynu bükük qalıb bu boz tonqalın
Başına fırlanan bir kəsi yoxdu...

Bütün çıl-çırpısı alovdan yalın,
Kül olub, qırmızı çöhrəsi yoxdu...

Niyə yaddan çıxıb görəsən, Allah,
Ümidi alışan bu tənha tonqal?
Ehh... külü sovrulub öz ürəyinə
Danışmır, ağlayır, kirimişcə, lal...

Hanı bu tonqalı quran yiyəsi?
Bayram nəşəsindən qaçaqmı yoxsa?
Vallah bağışlamaz Quran yiyəsi,
İnsan bu bayramı kinində boğsa...

Bəlkə də ürəyi yandı tonqalın,
İldırım səsiydi amanı, ünü!
Elə bu tonqalın göz yaşlarıymış-
Buluddan töküldü bu bayram günü.

## Bircə yol görüm özümü...

Gör necə yalqızlamışam
Danışıram öz-özümə...
Xatirələr narahatdı
Yoxluğun düşüb izimə...

Sənsizlikdən qəm yemişəm
Udub arzular qəhəri...
Bir gecənin hənirtisi
Aydınlaşdırır səhəri...

Nədir ki həsrət dediyin?!
Bir az ölüm, bir az sağlıq...
Gedəndə "Sağol" demişdin
Sevgimizə üzrxahlıq...

Yerdəkilər anlamadı
Göylərə dedim sözümü...
Bir yol qırılsın güzgülər
Bircə yol görüm özümü...

## Səni gözləyib, ölmürəm...

Gedişindən nə qalıb ki?
Nə vardı səninlə getdi...
Bu sevginin şəvə saçı,
Ağardı, dən ilə getdi...

Hardan alım o əlləri,
Sıxam, əlimi isidə...
Sən gedəndən durub zaman,
Susub saatın səsi də...

Yadigarın qalıb mənə -
Bir az həsrət, bir az qəhər...
Bir də üç- beş şeirim var
Gəlsən əlindən öpərlər...

Başıma dolanır dünya,
Elə gün sayıb ölmürəm...
Tez yetiş, mələyim mənim
Səni gözləyib, ölmürəm...

## Darıxmaq belə olur...

Addımlar asta-asta
Gəzər gecəni gəzər...
Xəyalım ayaq açar
Sizin küçəni gəzər...

Ulduz qonar çiynimə
Təbəssümə bataram...
Bir röya uydururam
Dizlərində yataram...

Gözlərimdə bitərsən...
Üstünə yüyürərəm...
Xəyalına sarılıb
Yoxluğunu görərəm...

Gecələri sayıram
Hər nəfəs dilək olur...
Kölgəmlə oynayıram-
Darıxmaq belə olur...

## Gözün aydın

### ("Cocuq Mərcanlı" kəndinə qayıdış)



**Göyçək NAMAZOVA,**
*Samux rayonu Qarayeri qəsəbə 1 nömrəli məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi, əməkdar müəllim*

Od oğluyam odu alıb gəlirəm
Sönmüş yurdum, işıq alıb gəlirəm.
Ayrılığın gözlərini dəlirəm
Həm qürurlu, həm kövrək, həyəcanlı
Gözün aydın doğma yurdum, Mərcanlı!

Sinən üstə söykəyəcəm üzümü
Qucaqlayıb torpağını, düzünü.
Pıçıldayıb "Ana vətən" sözünü
Həm qürurlu, həm kövrək, həyəcanlı
Gözün aydın doğma yurdum, Mərcanlı!

Gül kimi qarşıma qaçsın çiçəklər.
Torunu itirsin, toz kəpənəklər
Şənlik nəğməsini çalsın ürəklər.
Həm qürurlu, həm kövrək, həyəcanlı
Gözün aydın doğma yurdum, Mərcanlı!

Buz bağlamış ocağında od olar.
Damağında şərbət olar, dad olar.
İndən belə həsrət sənə yad olar.
Həm qürurlu, həm kövrək, həyəcanlı
Gözün aydın doğma yurdum, Mərcanlı!

Alovundan Qarabağa aparaq.
Qələbədən - qələbəyə çaparaq.
Zəfər nəğməsini dağlardan soraq.
Həm qürurlu, həm kövrək, həyəcanlı
Gözün aydın doğma yurdum, Mərcanlı!

Elə gün gələcək söküləcək dan.
Müjdəni verəcək, Ali Komandan!
Azaddır, bütövdür, can Azərbaycan!
Həm qürurlu, həm kövrək, həyəcanlı
Gözün aydın doğma yurdum, Mərcanlı!



**Elnaz EYVAZ,**
*Bakı şəhəri 328 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

Qapı döyüldü, dedim,
bəlkə də, sən olarsan...
Açıb saldım içəri
mən yalançı küləyi.
Baha başa oturdu
mənə onun kələyi...

***

Payız buludu kimiyəm,
fəqət
hələ də yay ayaqqabısında gəzən
kimsəsiz uşaqdan utanıb
yağmıram...

***

Gedəsən,
bir də gələsən.
Gəlib görəsən
düzəlib
əyrisi bu dünyanın.
Yerin boynu bükük qalıb,
tuta bilməyib yerini
qeyrisi bu dünyanın.

***

Ayaqları donmuş,
əlləri kəsilmiş,
yaddaşı qançır adamam mən:
gecələr yuxularıma qar yağır,
səhərlər Günəşə baxa bilmirəm,
qan qoxuyur hava, torpaq.
Vərəqlənir yaddaşım
hər gün yarpaq-yarpaq.
Quşlar ağı deyir o gündən
yaz səhəri.
Bayram fişəngləri atəşə tutur şəhəri
əziz günlərdə.
Qar yağır üstümə,
gözümə dəyən nə varsa,
qəsdimə durub, qəsdimə
o gündən bəri.
Mən - bir sinəsi dağlı sərsəri,
Sən - döşləri kəsilmiş ana.
Mən - süddən kəsilmiş körpə,
Sən - külfəti qırılmış anasan bir çətən.
Başdan-başa Xocalısan o gündən,
Vətən...
Biz hər gün qırılırıq vəhşicəsinə,
layla deyir ruhlar yetimlərinə.
Hələ ki, gözümüzə yuxu getməməli,
örtməməli qapıları gecələrin üzünə,
açmamalı səhərləri alnıaçıq,
üzüağ.
Nə qədər ki, bağışlamayıb bizi Xocalı,
nə qədər ki, qan qusur Qarabağ.

***

Bəlkə, sonuna çatmışam,
bəlkə də, yarı yoldu bu.
Dünyaya gəlmək olmadı,
oyuna düşmək oldu bu...

## Yağı başını əzməyə



**Gülşən MUSTAFA,**
*Bakı şəhəri 64 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

Bu dünyada gün görmədən,
Gəlib çıxdım bu yaşıma.
Vətən dərdi çəkər oldum,
Min bəla gəldi başıma.

Yağı düşmən dağlar çəkdi,
Vətənimin ürəyinə.
Talem, bəxtim kədər əkdi,
Torpağımın diləyinə.

Amma belə olmayacaq,
Gələcək yel qanadlılar.
Alacaqdır hər qarışı,
Ağatlılar, Qıratlılar.

Daha yox tabım dözməyə,
Qəlbimdə intiqam əsdi.
Yağı başını əzməyə,
Komandanın əmri bəsdi.

**Səhifəni hazırladı:** *Samirə KƏRİMOVA*

# Nümunəvi dərslərin “Açıq qapı günü”



**Niyazi RƏHİMOV**

Mayın 12-də Bərdə şəhər Alı Mustafayev adına 5 nömrəli tam orta məktəbdə nümunəvi dərslərin “Açıq qapı günü” keçirilib. Bərdə Rayon Təhsil Şöbəsi (RTŞ) Metodkabinetinin və şəhər 5 nömrəli tam orta məktəbinin birgə təşkilatçılığı ilə keçirilən nümunəvi dərslərdə RTŞ-ın müdiri Rzaqulu Şərifov, metodkabinet müdiri Xuraman Qurbanova, metodistlər, məktəb direktorları, rayonun qabaqcıl və gənc müəllimləri, valideynlər və KİV nümayəndələri iştirak ediblər.

Öncə məktəbin foyesində şagirdlərin əl işlərindən ibarət sərgiyə baxış keçirilib. Sonra fənn kurikulumlarının tətbiqi ilə bağlı şəhər 5 nömrəli tam orta məktəbin müəllimləri Minayə Nəbbaqi, Cəmilə Ağayeva, Rahilə Nuriyeva, Ülviyyə Muradova, Fəridə Qurbanova, Pərvanə Mehdiyeva, Təhminə Əliyeva, Nəzakət Qarayeva, Reyhan Qafarova, Elnarə Əliyeva, Məfkurə Allahverdiyeva, Şahirə Həsənova və Nurlana Abbasovanın nümunəvi dərsləri dinlənilib. Dərslər dinlənildikdən sonra məktəbin akt zalında praktik seminar öz işini davam etdirib.

Seminarı giriş sözü ilə açan Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifov bildirib ki, artıq 9 ildir respublikamızın ümumtəhsil məktəblərində fənn kurikulumları tətbiq edilir, təhsilin məzmunu yenilənir. Bu proses 5 nömrəli orta məktəbdə də uğurla həyata keçirilir. Tədris ocağında metodiki işin təşkili günün tələblərinə uyğun qurulur və bu işdə məktəbin direktoru Teymur Həmidovun xüsusi rolu var. R.Şərifov onu da qeyd edib ki, məktəbdə görülən işlərin məntiqi nəticəsidir ki, tədris ocağının uğurları ilbəil artmaqdadır. Məktəbin şagirdləri rayon məktəbliləri arasında keçirilən inşa, rəsm, şeir və başqa müsabiqələrdə iştirak edir və uğurlar qazanırlar. Sevindirici haldır ki, 5 nömrəli məktəbin 2 nəfər şagirdi bu il Respublika Fənn Olimpiadasında biologiya fənnindən 2 medal qazanıb. Onlardan IX sinif şagirdi Təhmin Muradov qızıl, Fəhmin Cavadzadə isə gümüş medalla təltif olunublar.

Seminarda dərslərin müzakirəsi aparılıb. Mütəxəssislər nümunəvi dərslərin müasir tələblərə cavab verdiyini, məktəbdə metodiki işin yüksək səviyyədə təşkil olunduğunu bildiriblər.

# İntellektual yarışmanın qalibləri mükafatlandırılıb



“Məktəblinin dostu” layihəsi çərçivəsində “Nə? Harada? Nə zaman?” intellektual oyunun final mərhələsi keçirilib.

Bilik yarışması şagirdlərin intellektual səviyyəsini, dünyagörüşünü artırmaq, zehni inkişafını gücləndirmək, eləcə də asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə təşkil olunub.

“Məktəblinin dostu” pilot layihəsinin tətbiq olunduğu təhsil müəssisələrində fevral, mart, aprel ayları ərzində intellektual oyunun məktəbdaxili mərhələsi keçirilib. 30 məktəb arasından bu mərhələni uğurla adlayan komandalar finalda iştirak etmək hüququ qazanıblar.

NORM MMC-nin dəstəyi ilə “Badamdar Hotel Baku”da keçirilən final oyununda Azərbaycan İntellektual Klublar Assosiasiyasının sədri Balaş Qasımov çıxış edərək komandalara uğurlar arzulayıb.

İntellektual oyunun final mərhələsinin 3 turunu uğurla keçən Binəqədi rayonu R.Əliyev adına 3 nömrəli tam orta məktəbin komandası qalib elan olunub. II və III yerləri isə müvafiq olaraq, Nərimanov rayonu T.Həsənov adına 57 nömrəli və Səbail rayonu 189-190 nömrəli tam orta məktəblərin biliciləri tutublar.

“Məktəblinin dostu” layihəsinin rəhbəri Rüstəm Ağayev qalib komandaya kubok təqdim edib və komandanın hər bir üzvünə smartfonlar hədiyyə olunub. Digər qaliblər isə həvəsləndirici medal və sertifikatlarla təltif ediliblər.

# Gənclər vətənpərvər ruhda yetişir

**Şakir CƏFƏROV**

Gənc nəslin tərbiyəsi sahəsində məktəbin qarşısında duran vəzifələrdən biri də hərbi-vətənpərvərlik tərbiyəsidir. Hərbi-vətənpərvərlik yönündə tərbiyə işləri ümumilikdə təlim-tərbiyə prosesinin ayrılmaz hissəsidir. Şagirdləri Azərbaycan Silahlı Qüvvələrinin şanlı tarixi, onun vətən qarşısında xidmətləri ilə yaxından tanış etmək, onları vətənpərvər ruhda yetişdirmək üçün Bakıdakı humanitar fənlər təmayüllü məktəb-liseydə geniş iş aparılır.

Liseyin direktoru Nəzakət Əsgərova bildirir ki, tədris ocağında şagirdlərə vətən sevgisi aşılanaraq, onların gələcəkdə Azərbaycana layiqli bir vətəndaş kimi yetişməsində pedaqoji kollektiv səylə çalışır. Hər il olduğu kimi, bu il də Xətai rayonunda məktəblilər arasında keçirilən “Şahinlər” hərbi-idman oyununda liseyin şagirdləri doğma məktəblərini layiqincə təmsil edərək müəllimlərinin, xüsusən də liseyin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri Fərhad Quliyevin etimadını doğruldublar.

Xətai Rayon İcra Hakimiyyətinin Gənclər və İdman İdarəsi ilə birgə keçirdiyi “Şahinlər” hərbi-idman oyununda liseyin komandası Xətai rayonu üzrə 2-ci yerə çıxıb. Belə bir uğurun qazanılmasında şagirdlərdən Sahib Qasımlı, Ülviyyə İbadullayeva, Nurcahan Ağabalayeva, Ruslan Məmmədov və Zəhra Baxşəliyeva daha çox fəallıq göstəriblər. Komanda üzvlərinə diplomlar təqdim olunub.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Bakı Slavyan Universiteti

Kafedra müdiri, professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün:**

1. Praktik rus dili və onun tədrisi metodikası kafedrası
2. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası
3. Rus dili və mədəniyyətlərarası kommunikasiya kafedrası
4. Azərbaycan multikulturalizmi kafedrası

**Qeyd:** *Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısını təqdim edirlər):*

*1. Rektorun adına ərizə;*
*2. Kadrlar uçotunun şəxsi vərəqəsi;*
*3. Tərcümeyi-hal;*
*4. Ali təhsil haqqında diplomun surəti;*
*5. Elmi dərəcə haqqında diplomun surəti;*
*6. Elmi ad haqqında diplomun surəti;*
*7. Elmi və elmi-metodiki işlərin siyahısı.*

**Ünvan:** Bakı, AZ 1014, S.Rüstəm küçəsi, 33.

**REKTORLUQ**

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66
**Baş redaktor müavini**
Sarvan İbrahimov s.ibrahimov@muallim.edu.az 538-21-55
**Məsul katib**
Elman Əbdülov e.abdulov@muallim.edu.az 510-68-73
**Elm və təhsil şöbəsi**
Yusif Əliyev y.aliyev@muallim.edu.az 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi**
Oruc Mustafayev o.mustafayev@muallim.edu.az 538-67-41
**İnformasiya şöbəsi**
Niyazi Rəhimov n.rahimov@muallim.edu.az 538-51-41
**Gənclik və yaradıcılıq şöbəsi**
Samirə Kərimova s.kerimova@muallim.edu.az 539-19-74
**Məktublar şöbəsi**
Şakir Cəfərov sh.cafarov@muallim.edu.az 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)
**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə
Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur
Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831
**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6230, **Sifariş** 1419
**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Bakı Slavyan Universiteti** tərəfindən 2015-ci ildə Quliyeva Elnarə İlham qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1989-cu ildə Əliyeva Səidə Kamal qızına verilmiş TB-I-088301 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta məktəbi 1986-cı ildə bitirmiş Həsənova Sevinc Şamil qızına verilmiş 219550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2002-ci ildə İslamov Namiq Siracəddin oğluna verilmiş B-095941 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Bağırov Əbülfəz Aydın oğluna verilmiş 546976 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyeva Gülnar Abbas qızına verilmiş 745905 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2015-ci ildə Həsənov Mirtağı Elçin oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 18 nömrəli tam orta məktəbi tərəfindən 2011-ci ildə Vahidzadə Vahid Tərlan oğluna verilmiş A-065898 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Əsədullayev Elmar Nadir oğluna verilmiş A-751221 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Çolbeşdəli kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Əliyev Şahin Əlipənah oğluna verilmiş A-191041 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 21 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədli Ramil Fikrət oğluna verilmiş A-345261 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2011-ci ildə Əhmədov Hafis Cəbi oğluna verilmiş B-220778 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** tərəfindən 2013-cü ildə Rza Aytac Rəhimxan qızına verilmiş 34323 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2011-ci ildə Səmidzadə Pərviz Etibar oğluna verilmiş A054054 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Salamov İlkin Hikmət oğluna verilmiş A-357217 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** tərəfindən 2016-cı ildə Şəmiyev Həbulla Maqsud oğluna verilmiş 35131 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Abdullayeva Balacaxanım Ağaxan qızına verilmiş B-049523 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Araz qəsəbə tam orta məktəbini 2005-ci ildə bitirmiş Rumzadə Fuad Faiq oğluna verilmiş B-175907 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 7 nömrəli məktəbin (Kələdəhnə 30 nömrəli Dəmiryol məktəbi) VIII sinfini 1987-ci ildə bitirmiş Rəhmanova (Quliyeva) Xədicə Qurbanəli qızına verilmiş A-001579 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayonu** Ləki qəsəbə 6 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Rəşidov Əfqan Elxan oğluna verilmiş 341355 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Məmmədova Şəhla Sədaqət qızına verilmiş A-198504 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cavad adına şəhər tam orta məktəbini 1999-cu ildə bitirmiş Kazımov Sənan Aqil oğluna verilmiş 349101 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Özəl Türk Liseyinin Dədə Qorqud filialını** 2011-ci ildə bitirmiş Mütəllimov Zaur İkram oğluna verilmiş A-006777 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Həşimov Vahid Vəli oğluna verilmiş 142024 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1994-cü ildə Nəbiyev Vüqar Əliağa oğluna verilmiş AB-I-047836 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1985-ci ildə Qarayeva Şəhla Nazim qızına verilmiş 3T-031750 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əkbərov Orxan Nazim oğluna verilmiş A-097778 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 91 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Avşalumov Mixail İsakoviçə verilmiş 072353 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2006-cı ildə Bayramov Elşən Rzaxan oğluna verilmiş B-063038 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Əsədova Gülnar Elmar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Babayeva Sevinc Həsən qızına verilmiş A-086346 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Bayramova Zülfiyyə Arif qızına verilmiş A-556464 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Absəlimov Coşqun Telman oğluna verilmiş B-730159 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Nüşrəvanlı Aytac Çingiz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz Peşə Liseyi** tərəfindən 1998-ci ildə Orucova Günay Absətdər qızına verilmiş AB-028044 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 12 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Heydərova Aynurə Təvəkkül qızına verilmiş A-263035 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2013-cü ildə Sadıqzadə Nərmin Arif qızına verilmiş AA-005725 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə Səlimova Ülviyyə Namiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə Hüseynli Nərgiz Fəxrəddin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Xocalı şəhər** 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Mirzəyeva Ülviyyə Camal qızına verilmiş B-350828 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 8 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əhmədova Nuridə Əli qızına verilmiş 299600 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2002-ci ildə Qurbanov Ruslan Qabil oğluna verilmiş A-108401 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1989-cu ildə Fəttahova Sevinc Nazim qızına verilmiş PB-037742 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 202 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Qurbanova (Hüseynova) Aynurə Vaqif qızına verilmiş A-144722 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Uğurbəyli kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Abdullayeva Solmaz Qurban qızına verilmiş B-307393 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**6 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2007-ci ildə Mirzəyev Fərid Almaz oğluna verilmiş BB-023699 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kimya-biologiya təmayüllü Respublika Liseyini** 2003-cü ildə bitirmiş Səmədov İlkin Şəmsəddin oğluna verilmiş A-728749 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı** tərəfindən Hüseynova Günay Nəsib qızına verilmiş B-087777 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyi 2007-ci ildə bitirmiş Heydərov Sərxan Fəxrəddin oğluna verilmiş B-455912 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Hacıyeva Günel Aydın qızına verilmiş B-057937 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli məktəb-liseyi 2011-ci ildə bitirmiş Həsənzadə Dəyanət Bəxtiyar oğluna verilmiş A-025793 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Rüstəmov Rəşid İmamyar oğluna verilmiş A-442383 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2007-ci ildə Əliyev Əfqan Abasəli oğluna verilmiş B-107319 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Cəfərova Ülviyyə Məhərrəm qızına verilmiş B-005758 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Yaqubova Nərmin Rəhman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – Middle Eastern

by Jon Porter

### Activity 1

Before you read, decide which word or words go with which meaning.

| | | |
|---|---|---|
| **1.** fisherman | **2.** genie | **3.** impressed |
| **4.** let out | **5.** lid | **6.** trick |

**a.** a creature that has magic powers - it lives inside containers and, when it comes out, uses magic to help or hurt people
**b.** a man who catches fish, usually as his job
**c.** allow a person or an animal to leave, especially when they are unable to escape themselves
**d.** make somebody do something you want them to do and that they don't want to do, usually by lying to them
**e.** the top, or cover, of a container
**f.** how you feel when something, usually good, has a powerful effect on you

### From the Arabian Nights: The fisherman and the genie

A long time ago there was an old, poor fisherman who did not catch enough fish for him and his family to live well. One day when he pulled in his fishing net he found a pot in it that looked valuable. He was happy because he could sell the pot and make some money. But he was also curious to see what was inside, and so he took the lid off. Smoke came out of the pot and became a big, powerful genie.

The genie had been in the pot for four hundred years and he was very angry. At first he told the fisherman that he would kill him and that the fisherman had to choose how he wanted to die. Scared, the fisherman decided to trick the genie. He told him that he did not believe he could fit inside that little pot because he was so much bigger than it. So the genie went back inside to prove it. The fisherman told the genie how he had tricked him and then said he would only let the genie out again if the genie promised to help him instead of hurt him.

The genie promised and the fisherman released him. The genie took the fisherman to a lake where there were many special fish. The fisherman caught four of these fish and the genie told him to take these fish to the king. The fish were special because they talked and answered any questions that people wanted to know. The king was very impressed by this and he paid the fisherman a lot of money for the fish. He also gave the fisherman's son a very important job and married one of the fisherman's beautiful daughters.

### Activity 2

The phrases 1–5 below are subordinate clauses: they begin a sentence but they need a main clause (the main information of a sentence) to complete them. Subordinate clauses are often followed by a comma, and then the main clause comes after the comma. Match the subordinate clauses 1–5 with the main clauses a–e below:

**1.** Curious to see what was inside,
**2.** Inside the pot for so many years,
**3.** Scared of the genie,
**4.** Keeping his promise,
**5.** Impressed by the talking fish,

**a.** the fisherman decided to trick him.
**b.** the king paid the fisherman a lot of money for them.
**c.** the genie took the fisherman to a special lake.
**d.** the fisherman took the lid off the pot.
**e.** the genie was very angry.



© Hannah Eaton/British Council

### Activity 3

The story contains common phrases. Use the story to help you decide which words on the left go with which words on the right. More than one answer is possible, but choose the answer from the story. The words do not always go directly together. For example, '**catch** enough **fish**' and '**caught** four of these **fish**.'

| | |
|---|---|
| answer | out |
| **catch** | off |
| come | money |
| make | out |
| pay | questions |
| let | **fish** |
| take | money |

### Activity 4

Are there any stories about genies, or anything similar, where you come from? How are they different from and how are they similar to the genie from this story? Are they good or bad? Which would you prefer to meet?

### Answers

**Activity 1**
1. b; 2. a; 3. f; 4. c; 5. e; 6. d

**Activity 2**
1. d; 2. e; 3. a; 4. c; 5. b

**Activity 3**
answer questions; catch fish; come out; make money; pay money; let out; take off

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017